Bu bir xalq qəzetidi
ƏDALƏT

## Nazirlik: AMEA öz fəaliyyətini yeni inkişaf prioritetləri ilə davam etdirəcək




**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) bir sıra humanitaryönümlü elmi müəssisələri ilə öz fəaliyyətini yeni inkişaf prioritetləri ilə davam etdirəcək.**

Bu barədə Təhsil Nazirliyinin məlumatında deyilir.

"Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Elm və Təhsil Nazirliyi yaradılıb. Elm və Təhsil Nazirliyinə elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər həvalə edilib. Nazirliyin yanında 2 yeni agentlik yaradılıb və Azərbaycan Milli Elmlər Akademiyasının bir sıra elmi müəssisə və təşkilatları yeni yaradılan Elm və Təhsil Nazirliyinin tabeliyinə verilib.

Bu proses AMEA-nın ləğv olunması deyil, əksinə elm və təhsilin inteqrasiyasında yeni mərhələnin başlanğıcı deməkdir. AMEA bir sıra humanitaryönümlü elmi müəssisələri ilə öz fəaliyyətini yeni inkişaf prioritetləri ilə davam etdirəcək", - məlumatda qeyd edilir.

## Çavuşoğlu: "Önəmli layihələr reallaşdırmışıq"



**Gürcüstan və Azərbaycanla birgə regionumuzun simasını dəyişən önəmli layihələr reallaşdırmışıq.**

Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu gürcüstanlı həmkarı İliya Darçiaşvili ilə birgə mətbuat konfransında deyib.

"Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyah boru xətti və Cənub Qaz Dəhlizi bu anlayışla həyata keçirildi. Orta Dəhliz başda olmaqla regional kommunikasiyalar üçün önəm daşıyan Bakı-Tbilisi-Qars dəmir yolundan daha səmərəli şəkildə istifadə etmək niyyətindəyik. Qarşıdakı günlərdə bütün bunları dəyərləndirmək üçün Türkiyə, Gürcüstan, Azərbaycan nazirlərinin iştirakı ilə üçtərəfli görüş keçirmək istəyirik. Bir müddət əvvəl Bakıda Türkiyə, Azərbaycan və Qazaxıtan xarici işlər və nəqliyyat nazirlərinin iclası keçirildi. Gələn həftə Türkiyə, Azərbaycan və Qazaxıtan xarici işlər, nəqliyyat və enerji nazirlərinin iclasının keçirilməsi nəzərdə tutulur", - deyə o bildirib.

Aqil ABBAS

## Ukraynadan səfeh hərəkət

Bax:səh-4

## "Bizim siyasətimiz ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir"

Bax:səh-2

## Korotçenko: Nə qədər ki, erməni ordusu Qarabağdadır...

*Ermənistan hərbçilərinin, eləcə də Qarabağ ərazisində olan qanunsuz erməni silahlı birləşmələrin, separatçıların silahlı təxribatları sülh istiqamətində gedən danışıqlar üçün daimi təhdid və təhlükə mənbəyidir. 10 noybar 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata əsasən, erməni silahlı birləşmələri Qarabağ ərazisini tamamilə tərk etməli idilər.*

*Lakin biz indi görürük ki, İrəvan bu prosesi hər cürləngitməyə çalışır. Cəmi bir neçə həftə bundan əvvəl ilk dəfə olaraq Ermənistan rəsmiləri Azərbaycan ərazisində, yəni Qarabağda Ermənistan silahlı qüvvələrinə məxsus müqaviləli xidmət edən hərbçilərin olması faktını etiraf etdilər.*

*Bunu Pravda.az-a açıqlamasında rusiyalı hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko deyib.*

*İ.Korotçenko qeyd edib ki, Prezident İlham Əliyevin əsas kimi irəli sürdüyü 5 prinsip əsasında sülh danışıqlarının aparılması və sülh müqaviləsinin bağlanması son dərəcə zəruridir:*

*"Düşünürəm ki, bu şərtlərdən ən əsası silahlı ermənilərin Qarabağ ərazisindən dərhal çıxarılmasıdır. Erməni silahlı birləşmələrinin orada qalacağı müddətdə hər an yenidən döyüşlərin başlama riski var. Biz ümid edirik ki, Moskva və Bakının birgə səyləri ilə rəsmi İrəvanın üçtərəfli bəyanatlar imzalamaqla üzərinə götürdüyü bütün öhdəliklərin tam yerinə yetirilməsinə nail olunacaq".*

## "Qarabağ" Zürixi tapdaq-tapdaq elədi






**Mən həmişə "Qarabağ"a və Qurban Qurbanova inanmışam. Və hələ oyundan üç-dörd gün əvvəl də verdiyim açıqlamalarda Qarabağ atlarının Zürixi tapdalayıb keçəcəklərini bildirmişəm. Çox gözəl və həyəcanlı oyun olub. Qurban bütün oyunları şəhidlərə və qazilərə həsr edib. "Qarabağ" möhtəşəm oyunu ilə şəhidlərimizin ruhunu şad elədi, qazilərimizin də ağrı-acısını xeyli yüngülləşdirdi.**

Qurban göstərdi ki, sonacan YAŞMA kimi döyüşməyi bacarır komanda. Özü də 12 oyunçuya qalib gəldi, hakim də onlardan oynayırdı. Hakimin də ağzını cırdılar. Zürixin prezidenti oyun başa çatmamış suyu süzülə-süzülə durub getdi.

İnşallah, macarları da tapdalayıb keçəcəyik, ondan sonra rəqibimiz kim olsa, onu da tapdalayıb keçəcəyik.

Yeri gəlmişkən, Ramin Musayev zarafatla bir söz demişdi, "Qarabağ" Lexi lox elədi, hamı töküldü Raminin üstünə. Nə qədər Lexsevər varmış?!

**Zürixin baş məşqçisi oyunçularına qışqırırdı ki, topu qaytarmayın "Qarabağ"a, Ramil Şeydayev də yıxılıb qalıb yerdə. İndi belə məşqçiyə nə deyəsən?! Biz Zürixi lox eləmədik e, həm də ağızlarını cırdıq. İndi görək nə qədər Zürixsevər var?!**

Aqil ABBAS

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 34 (5971) 30 iyul 2022-ci il | Qiyməti 30 qəpik

## Türkiyə ordusu 7 terrorçunu məhv etdi



**Suriyanın şimalında "Fərat qalxanı" bölgəsində atəş açan 7 PKK/YPG terrorçusu zərərsizləşdirilib.**

**Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat verib.**

# Prezident və birinci xanım Bakıxanov qəsəbəsində olublar



Bax:səh-2

## AMEA-nın vitse prezidenti: Ali təhsillə elmin birgə fəaliyyəti ancaq müsbət rol oynayacaq



**Prezident İlham Əliyevin Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərmanı çox yerində verilmiş və zəruri olan bir fərmandır.**

Bunu Trend-ə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun baş direktoru Dilqəm Tağıyev deyib. O bildirib ki, ali təhsil və elm cəmiyyətin inkişafı üçün qoşa qanaddır. "İndiyə qədər bunlar ayrı-ayrılıqda fəaliyyət göstərirdi. Hesab edirəm ki, ali təhsil ilə elmin birgə fəaliyyəti və inteqrasiyası ancaq müsbət rol oynayacaq. Bununla əlaqədar olaraq biz Akademiyada bizim öhdəmizə düşən vəzifələri yerinə yetirəcəyik. Akademiyanın Rəyasət Heyəti yeni elmi, prioritet istiqamətlərin müəyyən edilməsi, struktur optimallaşdırılması, yeni nizamnamənin qəbul edilməsi və digər məsələlərlə bağlı üzərinə düşəni edəcək", - deyə o bildirib. D.Tağıyev vurğulayıb ki, müasir dövrün çağırışlarına uyğun olaraq nəzərdə tutulan dəyişikliklər yalnız ümumi işin xeyrinə olacaq. "Bu istiqamətdə biz nə lazımdırsa, edəcəyik. Bu addım elmin inkişafına xidmət edəcək və çox uğurlu addımdır. Elm və ali təhsil birgə fəaliyyət göstərməlidir ki, yeni kadrlar yetişsin, yeni kadrların yetişməsində elm yaxından iştirak etsin və həmin kadrlar da elmin inkişafında iştirak etsin", - deyə o əlavə edib.

## RUSİYA-UKRAYNA MÜHARİBƏSİ NƏ VAXT DAYANACAQ?!



**Təbii ki, 6 aydır davam edən bu müharibədə Ukraynanın bütün şəhərləri və kəndləri dağılacaq və Rusiya öz dediyini Ukrayna və NATO-ya yedirdəcək.**

Bəli, Ukrayna bütün gücüylə müqavimət göstərir. Amma təəssüf ki, Ukrayna ordusu Rusiya ordusundan zəifdir və hələ Rusiya bütün qüvvələrindən istifadə eləmir. Və Sovetdən qalma texnikasını sürüb irəli. Buna utilizasiya deyirlər. Amma məsələ ondadır ki, Ukraynanın şəhər və kəndlərini dağıdır.

ABŞ və NATO Ukraynaya nə qədər yardım etsə də qırğının qarşısını ala bilmir. Ölən ukraynalılar və ruslardır. Belə getsə, ukraynalıların hamısı qırılmalıdır ki, ABŞ və NATO istədiyinə nail olsun.

Bir az həqiqətin gözünə dik baxaq. Ukrayna bütün gücüylə müqavimət göstərir, amma bu azdır. ABŞ və NATO Ukraynaya lazım olan silahları vermir, Rusiya da Ukraynanı tapdalayır.

Amma məsələ budur ki, 6 aydır davam edən müharibədə hələ ki Rusiya qalib gələ bilmir.

Təbii ki, Rusiya bu müharibədə müəyyən qalibiyyət əldə edəcək, amma bu Rusiyanın məhvinə aparıb çıxaracaq.

**SSRİ-ni Dağlıq Qarabağ problemi dağıtdı, Rusiyanı da Ukraynaya qarşı apardığı müharibə dağıdacaq.**

## MƏLƏYİN UÇMA SÜRƏTİNİ İNDİ NECƏ BİLƏCƏYİK?!

***Milli Elmlər Akademiyasını da ləğv elədilər, birləşdirdilər Elm və Təhsil Nazirliyinə.***

***Yeri gəlmişkən, AMEA-nın İstiqlaliyyət küçəsindəki baş ofisi gözəl şadlıq sarayıdı.***

Faiq QİSMƏTOĞLU

## Söz rəssamı...

Bax:səh-6

## Murad Nəbibəyovdan günün statusu

### Bəlkə MİLLİ MƏTBUATIMIZI urvatsız etməyək?



*İstəyirsiniz inanın... Mən çox qonaqpərvər insanam. Amma sonuncu - qazlı-qazlı gəlib, qozlu-qozlu gedən "qonaq" heç xoşuma gəlmədi...*

*Otağa girib salam verən kimi uzaqdan bir vəsiqə göstərib dedi "Mən Bakıdan gəlmişəm, "Ədalət" qəzetinin baş redaktoruyam."*

*Vay dədə,.. soruşuram ki, Aqil Abbasın qəzetinin? Başını aşağı-yuxarı hərəkət etdirir. Deyirəm, qardaş, o qəzetin baş redaktoru mənim ablamdır, mattım-mattım üzümə baxır... Soruşuram ki, nəşriyyatda 6-cı mərtəbədədir redaksiyanız? Deyir yox, 5-ci mərtəbədə...*

*Axırda dedim, qaqaş, vəsiqəni ver baxım. Vəsiqəni mənə uzadır, uzaqdan "ƏDALƏT" sözünü oxuyuram, yaxından isə o sözün yanında "uğrunda" sözünü görürəm... Nə isə və NƏ İSƏ...*

*Sözümün canı budur ki, bəlkə MİLLİ MƏTBUATIMIZI urvatsız etməyək, JURNALİST adına, peşəsinə hörmətlə yanaşaq.*

***P.S.** Belə statusları günötürə yaza bilərəm, amma yazmıram. Bu dəfə ona görə yazdım ki, özünün qəzetinin adı əvəzinə başqa qəzetin adını çəkdi yoldaş...*

## Bakıda hündürlükdən yıxılan fəhlə ölüb

**İyulun 18-i saat 22 radələrində Nərimanov rayonu, Böyükşor qəsəbəsi ərazisində yerləşən "Metak" MMC-də qaynaqçı işləyən 1986-cı il təvəllüdlü Vüqar Paşayevin xəsarət alması və aldığı xəsarətlərdən iyulun 28-də xəstəxanada ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Nərimanov rayon prokurorluğundan verilən məlumata görə, aparılmış araşdırmalarla



müəyyən edilib ki, Vüqar Paşayev MMC-nin boru istehsalı sexində dam örtüyünü təmir edən zaman hündürlükdən yıxılaraq xəsarətlər alıb.

**Faktla bağlı Nərimanov rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. İş üzrə istintaq davam edir.**

## "NEFTÇİ" "ARİS"Ə FUTBOL DƏRSİ KEÇDİ



**Təbrik edirik, uğurlar arzulayırıq. İnanırıq ki, "Rapid"i də belə yola salacaq və öz keçmiş şöhrətini qaytaracaq. Sonadək komandalarını dəstəklədiklərinə görə də "Neftçi"nin fanatlarına minnətdarlıq edirik.**

## MİQ üzrə Test imtahanı mərhələsinin nəticələri açıqlanıb



**Müəllimlərin işə qəbulu (MİQ) üzrə test imtahanı mərhələsinin nəticələri açıqlanıb**

Təhsil Nazirliyindən verilən məlumata görə, 14-22 iyul tarixlrində keçirilən test imtahanlarının nəticələri namizədlərin şəxsi səhiflrinə göndrilib.

**Qeyd edək ki, ümumi təhsil müəssisələrinin müəllimlərinin qəbulu üzrə müsabiqənin bütün fənlər üzrə minimum tələbi 40 bal müəyyən olunub.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## Gərək tülküyə dörd-beş çolpa tutub verəydilər, yüz qram da araq



*Pah atonnan! Nə qədər heyvansevərmişik. Deməli, bir tülkü Sabirabadda kəndliyə ziyan vurub, kəndli də tülkünü çırpıb, həm də düşüklük eləyib, videoya çəkib paylaşıb. İndi eşidirəm ki, buna görə onları saxlayıb cəzalandırıblar.*

*Əvvəllər belə bir qanun vardı, bir tülkü öldürənə otuz manat, çaqqal öldürənə qırx manat, canavar öldürənə əlli manat mükafat verərdilər. İndi canavar gəlib girsin kəndlinin həyətinə, neçə heyvanı şikəst eləsin, ən sağlamını da götürüb getsin, kəndli ona güllə atarsa, cəzalanacaq, ya da gərək iki qoyununu da satıb cərimə ödəsin. Qanun deyil e, kefdi başdan-ayağa. Belə də qanun olarmı?! Gəl gir mənim yerimi dağıt, mən də durub baxım.*

*Yadıma bir hadisə düşdü. Qasım bəy Zakirin kəndində (Ağdamın Xındırıstan kəndi) ağır-ağayana bir kolxoz sədri vardı, İldırım Cəfərov. Çox varlı təsərrüfat idi. İldırım müəllim də çox xeyirxah adam idi. Kənddə də gözəl bir qonaq evi tikmişdi. Şair Tofiq Bayram gedib Xındırıstana, bir həftə İldırım müəllimin qonağı olur. Hər gün də yemək-içmək. Bir gün söhbət əsnasında İldırım müəllim deyir ki, canavarlar yaman ziyan vurur fermaya, qabağını ala bilmirik.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ



Eminquey yeni tanış olduğu qızla şəhərdə bir restoranın yanından keçirlər.

Qız:
**- Oy, yeməklərin nə yaxşı qoxusu gəlir...**
Emin:
**- Xoşuna gəlirsə gəl bir də**

# Prezident və birinci xanım Bakıxanov qəsəbəsində olublar




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində 2 nömrəli doğum evində aparılmış əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar.**

Trend xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma doğum evində yaradılan şərait barədə məlumat verildi.

Azərbaycanda əhalinin sağlamlığı hər zaman dövlət siyasətinin mərkəzində dayanır. Bu baxımdan ölkəmizdə səhiyyə sisteminin inkişafı, maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yenilənməsi istiqamətində mühüm addımlar atılır. Dövlətimizin başçısının təşəbbüsü ilə bu sahədə həyata keçirilən layihələr insanların sağlamlığının etibarlı qorunmasına xidmət edir. Müalicə-diaqnostika mərkəzlərinin, xəstəxanaların tikilməsi və əsaslı şəkildə yenidən qurulması, müasir avadanlıqlarla təchiz olunması bunun əyani təsdiqidir.

Qeyd edək ki, 2 nömrəli doğum evi 1987-ci ildə istifadəyə verilib. Uzunmüddətli istismar nəticəsində bu tibb müəssisəsində əsaslı təmirə ehtiyac yarandığından dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə 2 nömrəli doğum evinin əsaslı təmiri üçün Prezidentin ehtiyat fondundan 2 milyon manat vəsait ayrılıb.

Məlumat verildi ki, əsaslı şəkildə təmir edilən 120 çarpayılıq bu səhiyyə müəssisəsində ən müasir tələblərə uyğun tibbi avadanlıqlar quraşdırılıb. Üçmərtəbəli binada ümumilikdə 51 palata var. Tibb ocağında 80 çarpayılıq doğum, 30 çarpayılıq ginekologiya və 10 çarpayılıq reanimasiya şöbələri fəaliyyət göstərir. Burada vətəndaşlara həm ambulator, həm də stasionar xidmət göstəriləcək. Əvvəllər Səhiyyə Nazirliyinin nəzdində olan 2 nömrəli doğum evi 2021-ci ildən "Sabunçu Tibb Mərkəzi" publik hüquqi şəxsin tabeliyindədir.

Azərbaycanda yeni tikilən səhiyyə ocaqları, ölkəmizə gətirilən müasir tibbi avadanlıqlar bir məqsədə - əhalinin sağlamlığının qorunması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir. Bu prosesdə Heydər Əliyev Fondunun da misilsiz xidmətləri var. Bütövlükdə əhalinin, xüsusən də ana və uşaqların sağlamlığının qorunması Fondun fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən tədbirlər genefondumuzun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı surətdə həllinə yönəlib. Bu doğum evinin əsaslı şəkildə yenidən qurulması da ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərin daha bir əyani təsdiqidir.

# Prezident Qanunlara edilən dəyişiklikləri təsdiqlədi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.**

Sənədə əsasən, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilir:

21-ci maddə üzrə:

1.1.1. birinci, ikinci və altıncı hissələr ləğv edilir;

1.1.2. üçüncü hissədə "2475 manat miqdarında" sözləri "3550 manat məbləğində" sözləri ilə əvəz edilir;

1.1.3. beşinci hissədə "bir misli məbləğində" sözləri "iki misli həcmində" sözləri ilə əvəz edilir;

29-cu maddənin ikinci cümləsi çıxarılır.

Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***

**Prezident İlham Əliyev "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.**

Sənədə əsasən, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilib:

- 106-cı maddənin birinci hissəsinin ikinci abzasında "Azərbaycan Respublikası Milli Məclisi Sədrinin aylıq vəzifə maaşı" sözləri "3550 manat" sözləri ilə əvəz edilir;
- 107-ci maddənin birinci hissəsinin ikinci cümləsindən "və iki aylıq əmək haqqı məbləğində müavinət" sözləri çıxarılır;
- 109-cu maddənin dördüncü hissəsinin ikinci cümləsi çıxarılır.

Bu Qanun 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***

**Dövlət başçısı, həmçinin, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli Qanununun tətbiqi və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.**

Fərmanla "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alınır:

- "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının 7.3-cü bəndi ləğv edilsin.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 568-VIQD nömrəli, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 569-VIQD nömrəli və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 570-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar yaranan əlavə xərclərin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait, eləcə də müvafiq dövlət orqanlarının saxlanılması xərclərində büdcə xərclərinin iqtisadi təsnifatının "Əməkhaqqı" köməkçi bölməsi dairəsində xərc paraqrafları arasında dəyişikliklər etməklə həyata keçirsin.
- Bu Fərman 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

# "Bizim siyasətimiz ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, 25 iyul tarixində Masallı, Lerik və Göygöl Rayon İcra Hakimiyyətlərinin yeni başçılarını vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbulu zamanı çıxışında bildirib ki, son illərdə bütün rayonlarda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində geniş abadlıq-quruculuq işləri görülüb, böyük infrastruktur layihələri icra edilib və uzun illər ərzində insanları narahat edən problemlərin böyük hissəsi aradan qalxıb.**

"Elektrik enerjisi ilə təchizat, qazlaşdırma, yol infrastrukturu, suvarma, içməli su layihələri, sosial infrastruktur layihələri icra olundu, hər rayonda müasir xəstəxana, tibb ocaqları, bir çox məktəblər inşa edildi, bu rayonların iqtisadi inkişafına böyük töhfədir" Prezident bildirdi ki, İnfrastruktur layihələr davamlı icra olunur:

"Lerik rayonu sovet vaxtında qazlaşdırılmamışdı. İmkan daxilində bütün işləri görməklə insanların rifah halı yaxşılaşdırılıb. Yeni iş yerlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Yeni infrastruktur layihələri iş yerlərinin yaradılmasına xidmət göstərir. Sahibkarlar da bölgələrdə bütün quruculuq işlərində fəal iştirak edirlər".

"Azərbaycan müstəqilliyə qovuşanda əhalimiz 7 milyondan bir qədər çox idisə, bu gün 10 milyondan çoxdur. Bu, təbii olaraq tələb edir ki, iş yerlərinin açılması prosesi daimi xarakter alsın.

Eyni zamanda, ödənişli sosial işlərin yaradılması da geniş vüsət almışdır".

İlham Əliyev etimad göstərilərək vəzifələrə təyin olunmuş bir neçə keçmiş icra başçısının artıq cinayət məsuliyyətinə cəlb edildiyini, bəzilərinin hökmü verilyini, bəzilərinin işlərinin məhkəmə icrahatında olduğunu yeni təyinat alan isra başçılarının nəzərinə çatdıraraq bildirdi ki, "bu onu göstərir ki, heç kim qanundan üstün ola bilməz".

Pezident İlham Əliyev çıxışı zamanı xüsusi vurğrladı ki, İcra başçıları daim insanlarla daim təmasda olmalıdır: "İcra başçıları bütün kəndlərdə olmalıdır, kənd camaatının qayğıları ilə yaşamalıdır, onları narahat edən problemləri onların dilindən eşitməlidir və imkan daxilində bu problemləri həll etməlidir. Əgər hər bir kəndin problemi həll olunarsa, demək olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq. İcra başçıları öz fəaliyyətlərində sosial ədalət prinsipinə əməl etməlidirlər. Sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür".

"Bu gün Azərbaycan cəmiyyəti həmrəylik nümayiş etdirir, Azərbaycan cəmiyyəti ölkədə



gedən prosesləri dəstəkləyir, xarici və daxili siyasəti dəstəkləyir. Bizim siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasınaistiqamətləndirilib. Bizim siyasətimiz ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Bizim siyasətimiz nəticəsində Azərbaycan Ermənistanın işğalçılıq siyasətinə son qoydu". "Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir.

Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Şəhid ailələrinin və müharibə əlillərininməişət problemləri dövlət xətti ilə həll olunur. Şəhid ailələrinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir.

Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Rayon icra orqanlarının nümayəndələri bu kateqoriyadan olan insanlara biganə qalmamalı, əksinə, daim onların yaşayışı ilə maraqlanmalıdır".

İlham Əliyev yeni kadrlara bir daha xatırladı ki, "Heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun".

Bəzi icra hakimiyyəti başçılarının yerli sahibkarlara qarşı qanunsuz tələblərinə toxunan Prezident bildirdi ki, "Bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür. İcra başçıları özləri sahibkarları rayonlara cəlb etməlidir. Xüsusilə nəzərə alsaq ki, Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir bu rayonları turizm mərkəzinə çevirmək əsas vəzifələrdən biridir".

İlham Əliyev çıxışı zamanı bildirdi ki, Göygöl, Masallı və Lerik rayonlarında müasir istirahət zonaları, otel kompleksləri inşa edilib. Bu proses daha geniş vüsət almalıdır. Bir neçə il bundan əvvəl Göygöl gölü də ictimaiyyət üçün açıldı. İndi minlərlə insan hər gün, xüsusilə yaz-yay mövsümlərində Göygöl gölünə gəlir, bu gözəl mənzərəni seyr edir. Nəzərə alsaq ki, bu gün Göygöl rayonundan Kəlbəcər rayonuna yol açılır, tunel çəkilir, bu rayonun Kəlbəcər-Laçın zonasının inkişafı ilə bağlı xüsusi rolu vardır. "Vaxtilə Lənkəran - Lerik yolu bərbad vəziyyətdə olduğu üçün Lerik rayonuna demək olar ki, turizm axını yox idi. Həmin yol indi əsaslı şəkildə təmir olundu, yenidən quruldu. Lerik rayonuna da turizm axını başlamışdır.

Bu rayonun da çox böyük tarixi, çox böyük sərvətləri var. Masallı rayonunun da həmçinin. Masallı rayonunun dağlıq hissəsi, düzən hissələri var. Hər üç rayonda kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar var. Burada da müasir tələblərə uyğun kənd təsərrüfatı yaradılmalıdır.

Müasir aqrotexniki tədbirlərin görülməsi, tətbiq edilməsi şərtilə heyvandarlıq, bitkiçilik rayonların xüsusiyyətlərinə görə inkişaf etməlidir. Bununla bağlı olan çox ciddi məsələ torpaqlardan səmərəli istifadə edilməsidir".

Respublikamızda torpaqların qanunsuz zəpt olunması faktları barədə də ciddi narazılığını bildirdi: "Torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır. Bu, təkcə regionlara aid olan məsələ deyil, Bakı şəhərində, Abşeron yarımadasında da belə hallar var. İdarəetmədə çox ciddi islahatlar aparılır, çox böyük təmizləmə işləri aparılır. Bu işlərə rəvac verən və bəzi dövlət məmurlarını, yerli icra orqanlarını bu qanunsuz işlərə təhrik edən insanlar hakimiyyətdən uzaqlaşdırıldı.

Hakimiyyət təmizlənir və insanlar bunu görürlər. Qanunsuz işlərlə məşğul olmaq istəyənlər cəzalandırılacaq. Kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır". "Görülən və görüləcək bütün işlər elə aparılmalıdır ki, ekologiyaya ziyan dəyməsin. Hər qarış torpaq qiymətlidir, dəyərlidir və torpaqdan insanlar istifadə etməlidirlər. Fermerlər, kəndlilər məhsul yetişdirmək üçün istifadə etməlidirlər.

Biz ölkəmizin ekoloji sistemini qorumalıyıq. Hər bir rayonda, hər bir yerdə müasir idarəetmə qaydaları tətbiq olunarsa, bir çox problemlər aradan qaldırılacaq. Dövlətin siyasəti bundan ibarətdir".

**Prezident bildirdi ki, rayonlarda işlərin daha yaxşı getməsi üçün ictimai nəzarət olmalıdır. İcra başçıları ictimai nəzarətdən çəkinməməlidir. İctimai nəzarət, ictimaiyyətin fəallığı, mövcud olan problemlərə dövlət orqanlarının diqqətinin cəlb edilməsi fəaliyyəti daha effektiv edəcəkdir. "Biz müzəffər xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq və ölkəmizdə işlər elə getməlidir ki, heç bir narahatedici problem olmasın, heç bir ədalətsizlik olmasın. Azərbaycanın çox böyük perspektivləri var, çox böyük potensialı var, xüsusilə İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərdən sonra. Bütün imkanlar var - təbii sərvətlərimiz, coğrafi yerləşməyimiz, beynəlxalq nüfuz, infrastruktur layihələri".**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# QMİ-dən Məhərrəm ayının başlaması ilə bağlı müraciət

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Məhərrəm ayının başlaması ilə əlaqədar müraciət yayıb.**

Müraciətin mətnini təqdim edir:

"Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm mömin qardaş və bacılar!

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri nəzərinizə çatdırır ki, Hicri-qəməri təqvimi ilə 1443-cü il başa çatır, yeni 1444-cü ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə 2022-ci il iyul ayının 30-na, Aşura günü isə avqust ayının 8-nə təsadüf edir.

Əsrlər boyu Azərbaycanda ənənəvi olaraq qeyd edilən Məhərrəm ayının Aşura günü - İmam Hüseyn əleyhissəlamın ailəsi və səhabələri ilə birlikdə Haqq uğrunda şəhadətə yetişməsi dünya tarixində qəhrəmanlıq salnaməsi kimi dəyərləndirilməlidir.

Peyğəmbərimiz Məhəmməd salavatullahın əziz nəvəsi Həzrət Hüseynin (ə) bu mənəvi qələbəsi dünyada zülm və haqsızlığa qarşı mübarizənin bariz nümunəsidir.

İslam fəlsəfi məktəbinə görə, Aşura - insana İman şüarı olan "Allahdan başqa ibadətə layiq heç bir varlıq yoxdur" zikrini əməli halda sübuta yetirən və İslam dininin yaşadılmasını təmin edən özəl günlərdən biridir.

Kərbəla şəhidləri İslamın "yaxşılığa dəvət və pislikdən çəkindirmə" məfkurəsini bütün ümmət üçün əsl nümunəyə çevirmiş, din, Vətən və ailə şərəfi uğrunda fədakarlığın və mükəmməl əxlaqın parlaq təzahürünü yaratmışlar.

Bu mənada İmam Hüseyn məktəbi - Allah, Vətən və xalq naminə şəhadətin nümunəvi göstəricisi, mənəvi-əxlaqi dəyərlər müstəvisində danılmaz yeri olan dini-tarixi örnəkdir.

İmam Hüseyn əleyhissalamın müqəddəs xatirəsinin və Kərbəla müsibətinin nəsillərin yaddaşında yaşadılması imanın, əqidəyə sadiqliyin, Vətən, torpaq, ailə naminə şəhidlik məktəbinin əbədi təcəssümüdür.

Həmd olsun Allaha ki, Məhərrəm ayını 30 illik Qarabağ həsrətinin sonu, illər boyu dualar etdiyimiz zəfər dönəmində qarşılayırıq.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun bizlərə yaşatdığı qürur və sevincə görə Uca Yaradana həmd-sənalar, dövlətimizə dualar edirik.

Qarabağda yenidənqurmanın başlanması, dini-mədəni abidələrimizin bərpası, həmvətənlərimizin doğma yurd-yuvalarına Böyük Qayıdışı - bütün bunlar Allah-taalanın lütfü və müdrik dövlət başçımızın sayəsində reallaşan arzularımız, dualarımızdır. Uca Allah xalqımızı, dövlətimizi hifz etsin, dövlət rəhbərimizin və Ali Baş Komandanımızın Azərbaycan naminə fəaliyyətinə daima rəvac versin!

Qazılar Şurası olaraq dindarlarımıza xatırlatmaq istərdik ki, məhərrəmlik mərasimləri zamanı müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq və s. şəriətə görə icazəli deyildir. Son illər məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şə-



hidlərinin xatirəsinə qan verilməsi isə ən münasib əzadarlıq nümunələrindən biridir. Ümidvarıq ki, inşAllah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, qan bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında ehsan niyyəti ilə qan verəcək, minlərlə xəstə insana, irsi xəstəliklərdən əziyyət çəkən uşaqlara İmam Hüseyn (ə) xatirinə həyat bəxş edəcəklər. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdiriləcək.

Həmçinin QMİ Qazılar Şurası yerlərdəki nümayəndələrinin nəzərinə çatdırır ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına riayət edərək dini mərasimləri məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirsinlər. Özəlliklə, son günlər pandemiyanın artım tendensiyasını nəzərə alaraq, məhərrəmlik ayinləri tibbi-profilaktik qaydalara uyğun olmalıdır.

Qeyd olunan tövsiyələrin bölgələrdəki din xadimlərinin dindarlara çatdırması vacibdir, qazılar və səlahiyyətli nümayəndələr görülən tədbirlər barədə hesabatlarını Qafqaz Müsəlmanları İdarəsinə təqdim etməlidirlər.

Allah yanında imanın, mənəviyyatın yüksək məqamlarından biri - ailə, torpaq və Vətən uğrunda şəhidlikdir. Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 Yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur. Allah-taalanın Nəim cənnətləri ilə müjdələnən, Peyğəmbər Məhəmməd Salavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksələn şəhidlərə, o cümlədən Kərbəla və Vətən şəhidlərimizə rəhmət, qazilərimizə şəfaət, bütün xalqımıza dəyanət və səadət diləyirik.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!"

Aqil ABBAS

# Gərək tülküyə dörd-beş çolpa tutub verəydilər, yüz qram da araq

*Pah atonnan! Nə qədər heyvansevərmişik. Deməli, bir tülkü Sabirabadda kəndliyə ziyan vurub, kəndli də tülkünü çırpıb, həm də düşüklük eləyib, videoya çəkib paylaşıb. İndi eşidirəm ki, buna görə onları saxlayıb cəzalandırıblar.*

*Əvvəllər belə bir qanun vardı, bir tülkü öldürənə otuz manat, çaqqal öldürənə qırx manat, canavar öldürənə əlli manat mükafat verərdilər. İndi canavar gəlib girsin kəndlinin həyətinə, neçə heyvanı şikəst eləsin, ən sağlamını da götürüb getsin, kəndli ona güllə atarsa, cəzalanacaq, ya da gərək iki qoyununu da satıb cərimə ödəsin. Qanun deyil e, kefdi başdan-ayağa. Belə də qanun olarmı?! Gəl gir mənim yerimi dağıt, mən də durub baxım.*



*Yadıma bir hadisə düşdü. Qasım bəy Zakirin kəndində (Ağdamın Xındırıstan kəndi) ağır-ağayana bir kolxoz sədri vardı, İldırım Cəfərov. Çox varlı təsərrüfat idi. İldırım müəllim də çox xeyirxah adam idi. Kənddə də gözəl bir qonaq evi tikmişdi. Şair Tofiq Bayram gedib Xındırıstana, bir həftə İldırım müəllimin qonağı olur. Hər gün də yemək-içmək. Bir gün söhbət əsnasında İldırım müəllim deyir ki, canavarlar yaman ziyan vurur fermaya, qabağını ala bilmirik.*

*Tofiq Bayram gülərək deyir:*

*- İldırım müəllim, sən o canavarlara hərdən qoyun pay göndərirsən? Göndərmirsən! Onlar da paylarını belə alır. Sən gərək çobana tapşırasan həftədə bir-iki qoyun göndərə canavarların ixtiyarına.*

*İldırım müəllim də gülüb dedi:*

*- Şair, öz canavarlarımızın əlindən imkan tapırıq ki?! Deyirəm, bu bir həftədə sənin üçün beş quzu kəsmişəm, halal xoşun. Hələ biri-ikisini də raykomun qonaqlarına göndərmişəm.*

*İndi gərək həmin kəndli tülkünü döyməyəydi, dörd-beş çolpa tutaydı, anası da çolpaları yolaydı, bir buğum da qaynadaydı, sonra qoyaydı tülkünün qabağına, tülkü də rahat-rahat yeyəydi, hələ üstündən də yüz qram süzüb verəydilər tülküyə, kefi açılaydı. Sonra da yola salaydılar təmtəraqla və kəndlilər də tülkünün payını gətirib verəydi.*

*İndi bütün tülkülər, çaqqallar, canavarlar eşidəcəklər ki, onlara gözün üstə qaşın var deyəni cəzalandırırlar, həbs edirlər, töküləşəcəklər kəndlərə ki payımızı verin.*

*Nə isə.*

*Sovet vaxtı Ağdamda bir ovçunu hansısa bir cinayətə görə həbs etmişdilər. Təsadüfən prokurorluqda olanda Gülablıdan olan bu ovçu haqqında materialla tanış oldum. Məlum oldu ki, ovçu indiyədək 64 canavar öldürüb və həmin canavarların da ürəklərini çıxarıb şişə çəkib, kabab bişirib və övladlarına yedirib. Övladları da canavara oxşayırdı. Azərbaycanlılarda bir söz var, igid adama deyirlər ki, filankəs qurd ürəyi yeyib. Yenə deyirəm, ovçu buna görə həbs olunmamışdı, başqa şeyə görə həbs olunmuşdu. Hər vurduğu canavara görə də əlli manat mükafat almışdı.*

*Qarabağı da qurd ürəyi yeyən igidlər işğaldan azad edib.*

*Bir statistika aparsaq, görərik ki, hər il qoruqlarda canavarlar nə qədər ceyran-cüyürü məhv edir, yaralayır. Hər il kəndlərə nə qədər hücumlar edirlər, ziyanlıq vururlar.*

*Başa düşdük, Hindistanda inək müqəddəsdi. Belə çıxır ki, Azərbaycanda da tülkü, çaqqal, canavar müqəddəsdi, toxunmaq olmaz.*

*Belə-belə işlər, belə-belə qanunlar...*

# Səhhətində ciddi problemlər olan şəhid övladı Türkiyəyə göndərildi

**Vətən müharibəsi şəhidi Seymur Ələsgərovun üç yaşlı övladı Eldar Ələsgərovun səhhətində problemlər yaranıb.**



"YAŞAT" Fondundan Oxu.Az-a verilən məlumata görə, Ələsgərov Eldar Seymur oğlu səhhətində yaranan problemlərlə bağlı Neyrocərrahiyyə İnstitutunda müalicəyə başlayıb.

Daha sonra vəziyyətinin ağırlaşdığı bildirilib və ixtisaslaşmış özəl tibb müəssisəsinə yerləşdirilməsi ilə bağlı "YAŞAT" Fonduna müraciət daxil olub. Fond tərəfindən dərhal reaksiya verilərək elə həmin gün Eldar "Baku Medical Plaza"ya köçürülüb. İnfeksiyalı meningit diaqnozu ilə 2022-ci ilin 5 may tarixində əməliyyat olunub. 2022-ci ilin 15 iyun tarixinədək həmin klinikada stasionar müalicəsi davam edib. Həkimlərin rəyinə əsasən, 15 iyun tarixindən stasionar müalicə başa çatıb və fizioterapiya ilə bağlı ambulator müalicəsi davam edib. 2022-ci ilin 26 iyul tarixində Eldarın ailə üzvləri tərəfindən vəziyyətinin pisləşməsi ilə bağlı məlumat daxil olub və "YAŞAT" Fondu yenidən məsələni nəzarətə götürüb. Mütəxəssislər tərəfindən 28 iyul tarixində verilən rəyə əsasən, şəhidimizin övladının müalicəsinin ölkədə davam etdirilməsinin mümkün olmadığı, vəziyyətinin kritik olduğu bildirilib və müalicənin davamının Türkiyə Respublikasında aparılması tövsiyə olunub.

Vəziyyətin ciddiyəti nəzərə alınaraq, elə həmin gecə Eldar Ələsgərov onun üçün xüsusi ayrılan ambulans təyyarə ilə "YAŞAT" Fondu tərəfindən Türkiyə Respublikasına göndərilib. Müalicə prosesi Eldar tam sağlamlığına qovuşanadək Fondun nəzarəti altında həyata keçiriləcək və yaranacaq bütün xərclər bundan sonra da Fond tərəfindən qarşılanacaq.

# "Minalar insanların təhlükəsiz geri qayıtmalarına mane olur"

**"Minalar mülki vətəndaşları öldürür və şikəst etməklə yanaşı, məcburi köçkünlərin təhlükəsiz geri qayıtmalarına mane olur".**

Bu barədə ABŞ Dövlət Departamentinin Mətbuat Xidmətindən bildirilib. Qeyd olunub ki, münaqişə zonasında olan minalar və partlamamış hərbi sursatlar mülki vətəndaşları öldürməkdə və şikəst etməkdə davam edir, iqtisadi inkişafa və məcburi köçkünlərin təhlükəsiz geri qayıtmalarına mane olur: "Regional sülhə və əməkdaşlığa dəstək məqsədilə ABŞ 2021-ci ilin noyabr ayında İkinci Qarabağ müharibəsinin gedişində zərər çəkmiş rayonlarda humanitar minatəmizləmə fəaliyyəti üçün 500 min dollar ayırıb. ABŞ tərəfindən maliyyələşdirmə minaların və partlamamış hərbi sursatların zərərsizləşdirilməsi üçün minatəmizləmə fəaliyyəti həyata keçirən təşkilatların texniki potensialını gücləndirməyə imkan verir, bu isə təhlükəsizliyin möhkəmlənməsində həlledici rol oynayacaq və məcburi köçkünlərin öz evlərinə qaytırmalarına və təhlükəsiz həyat yaşamalarına imkan verəcək". Dövlət Departamentindən deyilib ki, ABŞ humanitar problemlərin həlli istiqamətində konkret addımlar atmağa çağırır: "Bura həmçinin minalı sahələr və 1990-cı illər də daxil olmaqla, itkin düşmüş mülki vətəndaşlar və hərbçilər haqqında müvafiq məlumatların mübadiləsi də daxildir. ABŞ tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) maliyyələşdirilməsi onların Cənubi Qafqazda itkin düşmüş şəxslərin axtarışı üzrə fəaliyyətini dəstəkləməyə kömək edir. BQXK həmin şəxslərin qalıqlarının tapılmasında və geri qaytarılmasında neytral vasitəçi qismində çıxış edir".

# Ordunun nüfuzuna kölgə salmaq məqsədilə informasiya tirajlayan şəxs həbs edildi

**Bu barədə Baş prokurorluğun ictimailəşdirdiyi məlumatda bildirilir: ”Son günlər bəzi sosial media istifadəçiləri tərəfindən Azərbaycan Ordusunun işgüzar nüfuzuna xələl gətirmək, vətəndaşlar arasında süni ajiotaj yaratmaq, eləcə də dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görüln işlərə kölgə salmaq məqsədilə həqiqətə uyğun olmayan informasiyalar tirajlanıb.**

İctimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının pozulmasına yönələn halların qarşısının alınması üçün bu cür hərəkətlərə yol verən şəxslər Baş prokurorluğa dəvət olunub, onların barələrində prokuror təsir tədbirləri görülüb.



Belə ki, sosial media istifadəçiləri ”jamaz.info” saytının rəhbəri İbişbəyli Fikrət Fərəməz oğlu, ”miq.az” saytının rəhbəri Alışov Aqil Balabəy oğlu, Şirvan şəhər sakini İsmayıl Elçin Xankərəm oğlu, Lənkəran rayon sakini Cabbarlı Əli Allahverdi oğlu və Xaçmaz rayon sakini Fətəliyeva Nuranə Etibar qızına ”Prokurorluq haqqında” Qanunun 22-ci maddəsinə əsasən gələcəkdə bu kimi neqativ hallara yol verməmələri ilə bağlı xəbərdarlıq edilib.

Bundan başqa, ”Facebook” sosial şəbəkəsində özünə məxsus olan səhifədə qanunla yayılması qadağan edilən informasiyanı yerləşdirdiyinə görə ”Prokurorluq haqqında” Qanunun 24-cü maddəsi rəhbər tutulmaqla Şahmuradov Tofiq Təhmuraz oğlunun barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci (internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün Bakı şəhəri, Nizami rayon Məhkəməsinə göndərilib.

Məhkəmənin qərarı ilə Tofiq Şahmuradov barəsində 1 ay müddətinə inzibati həbs tənbehi seçilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu media subyektləri və sosial şəbəkə istifadəçilərinə müraciət edərək bildirir ki, dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış məlumatların yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Neqativ hallara yol vermiş şəxslər barəsində mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görüləcək”.

### *Milli Ordu ilə bağlı müəyyən yanlış mövqələr ortaya qoyulur*

Ötən gün isə Mətbuat Şurasının təşəbbüsü ilə internet media subyektlərində və sosial şəbəkə profillərində Azərbaycan Ordusu ilə bağlı əsassız bilgilərin yayılması və ictimai rəyin yanlış yönləndirilməsi təmayülləri ilə bağlı toplantı keçirilib. Ölkənin tanınmış kütləbi informasiya vasitələrinin rəhbərlərinin, media ekspertlərinin, müvafiq dövlət qurumlarının ictimaiyyətlə əlaqələrə məsul şəxslərinin iştirak etdikləri tədbiri giriş sözü ilə MŞ sədri Əflatun Amaşov açıb.

Ə.Amaşov bildirib ki, bu gün görürük ki, 44 günlük Vətən Müharibəsində rəşadət simvolumuz olan Milli Ordu ilə bağlı müəyyən yanlış mövqələr ortaya qoyulur. Bu sayaq hallar ictimaiyyətə təsir göstərməyə hesablanıb. Nəticədə ordumuzun nüfuzunun, fəaliyyətinin aşağılanması təhlükəsi yaranır. Çox təəssüf ki, bu prosesdə bilərəkdən, yaxud bilməyərəkdən media təmsilçiləri, bu və ya digər şəkildə jurnalist fəaliyyətini həyata keçirən şəxslər də iştirak edirlər. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən onların müəyyən qismi ilə profillaktik söhbət aparıldı, xəbərdarlıqlar edildi, bir nəfər inzibati həbslə cəzalandırıldı. Bunlar arzuolunmazdır, problemlərin mövcudluğundan xəbər verir. Biz də bura ona görə toplaşmışıq ki, problemləri sadalayaq. Həm öz problemlərimizi görək, müzakirə edək, nöqsanları aradan qaldırmaq istiqamətində bir növ, razılıq, konsensus əldə edək, həm də bizdən asılı olmayan, ancaq fəaliyyətimizə hansısa formada təsir göstərən məqamları vurğulayaq, diqqətə çatdıraq”, - deyə Ə.Amaşov fikrinə aydınlıq gətirib.

### *Media orqanlarının və sosial media seqmentinin əsas işi dezinformasiyaların qarşısını almaq olmalıdır*

**MŞ İdarə Heyətinin üzvü, ”Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlu** çıxışında bildirib ki, son günlər ölkədə informasiya gərginliyi, real həyatda olmayanları daha qabarıq, daha pis təqdim etmə cəhdləri müşahidə olunur. Burada sosial medianın Ermənistan seqmentinin fəaliyyəti də vurğulanmalıdır. Nəzərə alınmalıdır ki, sosial şəbəkələrin cəmiyyət üçün açıq qapıya çevrildiyi reallığında informasiya təxribatlarına zəmin formalaşır. Ölkəmizin normal media orqanlarının və sosial media seqmentinin əsas işi, funksiyası dezinformasiyaların qarşısını almaq olmalıdır. ”Bunu biz etməliyik. Sədd çəkərək, kimisə tutaraq, cəzalandıraraq yox, fəaliyyətimizi yeniləyərək. Eynilə müharibə dövründəki kimi. Savaşımız, Vətən Müharibəmiz hələ də davam edir. Vətənimizin kiçik bir parçası da olsa, orda suverenliyimizi bərpa etməmişiksə, proses davam edir”, - deyən R.Arifoğlu hazırda ölkəmizə qarşı informasiya müharibəsi Vətən Müharibəsi dövründən daha amansız xarakter aldığını, ən müxtəlif platformalar vaxitəsilə informasiya diversiyalarının törədildiyini deyib. Belə hallara qarşı səmərəli media səfərbərliyinin təmin olunmasının əhəmiyyətinə diqqət çəkib.



### *İnzibati tədbirlərin seçilməsinə anlayışla yanaşılmalıdır*

Cəmiyyətdə söz və ifadə azadlığının toxunulmazlığının vacibliyini, mövcud istiqamətdəki məhdudlaşdırılmaların yolverilməzliyini vurğulayan MŞ İdarə Heyətinin üzvü, ”Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev bildirib ki, bu azadlığa zidd, sui-istifadə mahiyyəti daşıyan təmayüllərə münasibətdə inzibati tədbirlərin seçilməsinə anlayışla yanaşılmalıdır. A.Quliyev çıxışında həmçinin Azərbaycan mediasının Milli Ordu ilə bağlı məsələlərə hər zaman həssas yanaşdığı, Vətən Müharibəsi dönəmində müstəsna xidmətlər göstərdiyini və eyni kursun hazırda da davam etdiyi barədə fikir və düşüncələrini bölüşüb.

### *Qanunların dövriyyəyə girməsi mütləqdir*

**MŞ İdarə Heyətinin üzvü, ”Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli** media fəaliyyəti ilə bağlı məsələlərin ümumən qanunlarla da tənzimləndiyini, konkret məsuliyyət kateqoriyalarının mövcudluğunu dilə gətirib. O bildirib ki, həm qanunlara riayət, həm də etik dəyərlərin gözləniməsi prinsip etibarilə KİV-lərə peşəkar obraz verir. Ancaq eyni vəziyyətin sosial media subyektləri üçün keçərlilik əmsalı aşağıdır. Belə durumlarda qanunların dövriyyəyə girməsi mütləqdir. Ümumən qanunlar konkret təbiətə malikdir. Kimliyindən asılı olmayaraq, dövlətin təhlükəsizliyi, cəmiyyətin maraq və mənafelərinin toxunulmazlığına zidd təmayüllərə münasibətdə barışmaz mövqe tutulmalıdır.

### *Milli Ordu ilə əlaqədar məsələlərə həssas yanaşılmalıdır*

**MŞ İdarə Heyətinin üzvü, ”İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə** də sosial media subyektlərində və ayrı-ayrı KİV-lərdə Azərbaycan Ordusunun nüfuzunu zədələyən bilgiləri yayanlara qarşı barışmaz mövqe tutulmasının vacibliyini əsaslandırıb. O, çıxışında həmçinin jurnalistləri istənilən məsələyə, o cümlədən Milli Ordu ilə əlaqədar məsələlərə həssas yanaşmağa çağırıb, həssaslığın eyni zamanda mühüm peşəkarlıq tələbi olduğunu vurğulayıb.

### *Monitorinq qrupu yaradılsın*

**”Qazilər.az” saytının rəhbəri, hərbi jurnalist Rey Kərimoğlu** çıxışında təklif edib ki, dövlət qurumlarının nümayəndələrinin, sahə ekspertlərinin və media təmsilçilərinin iştirakı ilə monitorinq qrupu yaradılsın və həmin qrup mütəmadi şəkildə KİV-lərdə, habelə sosial şəbəkələrdə Ordu ilə bağlı yayılmış müəyyən bilgilərin və informasiyaların araşdırılmasını həyata keçirsin, nöqsanları, çatışmazlıqları cəmiyyətə açıqlasın. Bu zaman hər kəs öz səhvini daha yaxından görmək imkanı əldə edəcək, həmçinin iş daha konkret səciyyə daşıyacaqdır.

### *Jurnalistlər hadisə və proseslərə çevik reaksiya verməlidir*

”Səhvi edən bir nəfər, yaxud bir neçə şəxsdir. Maraqlıdır ki, təqdim ediləndə məsələyə bütövlükdə Azərbaycan mediası kontekstində izah verilir və ittiham obyekti də ümumən mediamız olur”, - deyən **MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli** bu məqamın nəzərə alınmasının zəruriliyini diqqətə çatdırıb. O, eyni zamanda mövcud tendensiyanın peşəsinə məsuliyyətlə yanaşan jurnalistləri də hərəkətə gətirməli, onların hadisə və proseslərə çevik reaksiya verməli olduqlarını vurğulayıb.

### *Zəruri maarifləndirmə işlərinin aparılmalıdır*

**MŞ İdarə Heyətinin üzvü, ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı** çıxışında bildirib ki, ordudakı neqativ məqamlar barədə məlumatlar yayan jurnalistlərin tənələrə məruz qaldıqları, ancaq sonradan onların yazdıqlarının təsdiqini tapdığı hallar da baş verir, nəticə etibarilə jurnalist bir növ bəraət almış kimi olur. Bu sayaq durumların yaşanması onu göstərir ki, jurnalistlərin ordu ilə bağlı yazılara üstünlük verməsi zəruridir, ümumən bu sahəyə ictimai diqqət mütləqdir. Baş redaktorun sözlərinə görə, jurnalist fəaliyyəti cəmiyyətin maraqlarına söykənməlidir. Əgər bu fəaliyyət hansısa digər maraqlı lokal tərəflərin konfrantasiya predmetinə çevrilirsə, deməli, ictimailik sıradan çıxır. Əksər hallarda belə mənfi yanaşmalarda qanun pozuntuları da diqqət çəkir. A.Aşırlı ümumən jurnalistlərin inzibati qaydada məsuliyyətə cəlb edilməsinin yolverilməzliyi üzərində dayanıb və bunun baş verməməsi üçün ümumən media ictimaiyyəti tərəfindən də zəruri maarifləndirmə işlərinin aparılmasına ciddi ehtiyacın duyulduğunu deyib.

Toplantı iştirakçılarının yekun qənaəti aşağıdakı fikirlərdə çəmləşib və bu fikirlər media orqanlarına, sosial şəbəkə profillərinin sahiblərinə, eləcə də jurnalist fəaliyyəti ilə məşğul olduqlarını bəyan edən şəxslərə çağırış və tövsiyə məramı daşıyıb:

**- Cəmiyyətdə söz və ifadə azadlığının qorunması vacibdir;**

**- Eyni zamanda söz azadlığından sui-istifadə halları yolverilməzdir, media orqanları Milli Ordu ilə bağlı materialların təqdimatına həssas yanaşmalıdırlar;**

**- Nəzərə almalıdırlar ki, cəmiyyətin bütün məsələlərlə, o cümlədən Milli Ordu ilə əlaqədar yanlış yönləndirilməsi təmayülləri jurnalist peşəkarlığına zidd olmaqla yanaşı, hüquqi məsuliyyət də yaradır;**

**- Hüquqi məsuliyyətdən, eləcə də cəmiyyətin qınağından uzaq durmaq üçün informasiya əldə edilməsi, dövlət sirri, yayılması qadağan edilən informasiyalarla əlaqədar ölkə qanunvericiliyinin tələblərinə, peşə prinsiplərinə ciddi əməl olunmalıdır.**

**Toplantıda ölkəmizə qarşı informasiya müharibəsinin davam etdiyi vurğulanıb. Bu xüsusda aşağıdakıların nəzərə alınması və fəaliyyət müstəvisinə daxil edilməsi tövsiyə olunub:**

**- İnformasiya müharibəsinin davam etdiyi hazırkı dövrdə bəzi xarici və daxili qüvvələr dövlətin əsaslarını zəiflətmək, ona etimadsızlıq mühiti formalaşdırmaq yönümlü təbliğat ritorikasına üstünlük verirlər, məqsədli dezinformasiyalar yayırlar;**

**- Media orqanları belə mənfi meyllərə münasibətdə aktivliyi artırmalı, texnoloji yeniliklərin imkanlarından istifadə etməklə onlara qarşı cəmiyyətin müxtəlif təbəqələrinin duya biləcəyi aktiv əks-fəaliyyət aparmalıdırlar.**

**Nicat Novruzoğlu**

---

**Rza Rzayev**
**Rejissor, aktyor**

# Ə, BƏ ƏLİ İNSANOVSAN DA



*Elə şeylər var ki, o haqda yazmaq istəmirsən, düşünürsən ki, ziyanı xeyrindən çox olacaq.*

*Bu haqda çoxdan yazmaq istəyirdim, amma hər dəfə gözləyirdim, düşünürdüm, bəlkə yanılıram, bir az da keçsin...*

*Məsələ nədir? Hələ keçmiş komandanın qılıncının dalı-qabağı kəsəndə, məmur olduğum dövr - 2011 ci ildə, ”Biz olmaq istədiyimizdən fərqli ola bilməyəcəyik” adlı məqalə yazdım.*

*Uzun illər nazir işləyənləri istefaya çağırdım. Düşünürdüm, cəmiyyət dəyişikliyə hamilədir və sifətlər dəyişməsə, mahiyyət və məzmun da dəyişməyəcək.*

*Açıq və gizli təzyiqlər oldu.*

*İstəyimiz uzun illərdən sonra baş verdi, köhnələr getdi, düşündük yenilər yenilik gətirəcək...*

*Amma sifətlər dəyişdi, mahiyyət və məzmun isə dəyişmədi, dəyişən biçim oldu, bu da heç nəyi dəyişmir. Məsələn, rüşvət yerində qaldı, dəyişən rüşvət almağın biçimidir, çünki köhnələr köhnə metod ilə alırdı, yenilər yeni metod ilə alır.*

*Köhnə nazirlər iddialı idilər, ən azı nazirlərin naziri uğrunda mübarizə gedirdi, uzun illər baş nazir kabinetində yuxuladı, nazirlərə başqa biri nazirlik etdi.*

*Və yaxud köhnə nazirlər bir-biri ilə mübarizədə idilər, bir-biri ilə düşmən olanlar da var idi, bir-birini həbs etdirən də.*

*Köhnə nazirlər dövlət başçısına daha yaxın olmağın mübarizəsini aparırdılar, hər biri Prezidentin etimadını daha çox qazanmaq istəyirdi.*

*Köhnələr ictimai dayaq axtarırdılar, kimlərəsə maddi yardım edirdilər, cəmiyyətin hansısa təbəqəsi ilə işləyirdilər, tanınmış simalara, yazarlara, sənət adamlarına istəklərinə uyğun köməklik edirdilər...*

*Hətta müxalifət ilə işləyəni, müxalifəti parçalayanı, partiya sədri, icra başçısı düzəldənləri də var idi ...*

*Köhnə nazirlərin hamısı olmasa da, içlərində ürəyiyumşaq olanları, əliaçıqları da var idi, ən azı yolda polis görəndə maşınlarını saxladıb saatlarla yolda duran polislərə ”şirinlik” verirdilər...*

*Yeni nazirlər köhnələrdən fərqli olaraq görünməzlik metodundan istifadə edirlər, gözə girmirlər, özlərini yox kimi sayırlar.*

*Bu metod uzun illər hərbidə daha çox keçərli idi, zabit heyəti başlarını sağ saxlamağın ən yaxşı yolunu komandirin gözünə görünməmək metodu ilə həll edirdilər.*

*Yenilər kabinetlərində oturub qabaqlarına atılanı yeyirlər, çırpışdıra bildiklərini də dala atırlar, amma pulları çıxanda canları çıxır...*

*Yenilərə cəmiyyət, ictimai qınaq, ictimai rəy maraqlı deyil...*

*Belə olan halda köhnələrin üstündə qalan, üstlərinə yüklənən problemlər həlsiz qalır, bu da o hissi yaradır ki, köhnələrin, gedənlərin, yola salınanların heç də hamısı yolsuz deyilmiş...*

*Yenilər özlərini yol üstündə olan kimi aparırlar, daha çox yolsuzluq edirlər...*

*Yenilər köhnə problemləri həll etmək iqtidarında deyillər, edə də bilməyəcəklər, ən əsası da yeni problemlərə şərik çıxmırlar, bu da köhnələrə getdikcə rəğbət qazandırır, köhnələr də yerlərində heç də sakit oturmayıblar...*

*Yenilər hələ cəmiyyət həyatına təsir edən elə bir yenilik etməyiblər...*

*Bir sözlə, yenilərin içində Hikmət Hacıyevi, Şahmar Mövsümovu çıxmaq şərti ilə adam içinə çıxarılası və adam içinə çıxanı yoxdur...*

*Dərdim nədir?*

*Yenilər köhnələri unutdura bilmədilər. Bu da çox qorxulu tendensiya yaradır, daha heç bir yenilik, dəyişim qurtarıcı, xilasedici proses kimi dəyərləndirilməyəcək.*

*Bir azdan heç kim günahı keçmiş və yeni məmurlarda görməyəcək...*

*Və bu səbəbdən dövlət başçısına olan inam getdikcə zəifləyəcək (bu haqda sonrakı məqaləmdə geniş yazacağam).*

*Niyə?*

*Çünki, hələ də xalq prezident aparatının rəhbərini Ramiz Mehdiyev bilir, hələ də prezidentin köməkçisini Əli Həsənov bilir, hələ də vergilər nazirini Fazil Məmmədov bilir, hələ də neft şirkətinin prezidentini Natiq Əliyev bilir, hələ də xarici işlər nazirini Həsən Həsənov bilir, hələ də nəqliyyat nazirini Ziya Məmmədov bilir və hələ də səhiyyə nazirini Əli İnsanov bilir...*

*Və bir az insaflı olum, ikisi haqda bunu demək olmaz - daxili işlər naziri və DTX sədri haqda - onlar sələflərini az da olsa unutdura biliblər, onları yenilərə aid etmək olmaz...*

*Və ən əsası, Oktay Şirəliyev səhiyyə naziri təyin olunur, üstündən uzun illər keçir, bağdan gəlirmiş, halı da üstündə, postda şlaqbaum olduğu üçün sürücü məcbur qalıb maşını saxlayır, sürücü ucadan, ərklə polis nəfərinə deyir, ”Bu səhiyyə nazirinin maşınıdır”, polis nəfəri əlinə şans düşmüş kimi çiynini çəkir ( çünki təzə nazir polisləri görəndə bir dəfə də olsun maşınını saxladıb əlini cibinə salmayıb ) , özünü o yerə qoymur, bu vaxt nazir hallı başı ilə özü şüşəni endirir, polis nəfərini yanına çağırır.*

*Nazir əsəbi halda soruşur, - ”Ə, məni tanımırsan?”*

*Polis nəfəri diqqətlə Oktay Şirəliyevə baxır, deyir, - ” ə, bə niyə tanımıram , Əli İnsanovsan da ! ”*

***P. S.** Naxçıvanlılar demiş, ta heşdad...*

---

## *“Vəziyyət pisdir, Putin gizlətməyə çalışır”*



**Rusiya iqtisadiyyatı Ukraynadakı genişmiqyaslı müharibə səbəbindən fəlakətli şəkildə əziyyət çəkir, lakin Rusiya diktatoru Vladimir Putin real vəziyyəti gizlətməyə çalışır.**

Bu barədə Yel Universitetinin analitiklərinin Ukraynadakı müharibənin 5 ayı ilə bağlı hazırladıqları hesabatda qeyd olunub. ”Rusiyanın idxalı ÜDM-in təxminən 40%-ni təşkil edən şirkətlərin itirilməsilə çöküb. Təzyiq Putini davamlı olmayan, genişmiqyaslı fiskal və monetar müdaxilələrə sövq edir. Kremlin maliyyəsi hesab ediləndən daha çətin vəziyyətdədir”, - hesabatda bildirilib.

## *BMT Kiprdəki sülhməramlıların mandatını uzatdı*



**BMT-nin Kiprdəki sülhməramlı missiyasının mandatı gələn ilin yanvarına qədər davam edəcək.**

Təhlükəsizlik Şurası üzvləri mandatın iyulun 31-dən gələn il yanvarın 3-dək uzadılmasına qərar verib.

Qeyd edək kli, BMT-nin Kiprdəki sülhməramlı qüvvələri 1964-cü ildə Təhlükəsizlik Şurasının qərarı ilə 796 hərbçi və 65 polis əməkdaşından ibarət qüvvə ilə yaradılıb.

**MEHRİBAN**

---

# Yorulmaz araşdırıcının növbəti monoqrafiyasına dair

**Əslən şuşalı olan tarix üzrə fəlsəfə doktoru Yunis Rza oğlu Hüseynov Qarabağın və Qarabağ xanlığının ictimai-siyasi, iqtisadi, mədəni tarixi ilə bağlı olan yeddi monoqrafiyanın, bir çox dəyərli elmi məqalənin müəllifidir. O, ”Qarabağnamə” adlanan, 2022-ci ildə Bakıda, ”Füyuzat” nəşriyyatında nəşr olunmuş, 120 səhifədən ibarət olan yeni monoqrafiyasını Mirzə Camal bəy Məhəmməd xan oğlu Cavanşir Qarabağinin ”Qarabağ tarixi” əsəri və digər mənbələr əsasında yazmışdır. Qeyd edək ki, Mirzə Camal bəy Məhəmməd xan oğlu Cavanşir Qarabaği (1773-1853) ”Qarabağ tarixi” əsərini 1847-ci ildə fars dilində diqtə edib yazdırmış, həmin əsər 1855-ci ildə rus dilində ”Kavkaz” qəzetində nəşr olunmuşdur.**

Y.R.Hüseynov yeni monoqrafiyasının yazılmasının və nəşr olunmasının əsas səbəbini bu cür izah etmişdir: ”2022-ci ilin Azərbaybaycan Respublikasında ”Şuşa ili” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2022-ci il yanvar ayının 5-də verdiyi Fərmanı xalqımızın hədsiz sevincinə səbəb olmuşdur. Bu münasibətlə həmyerlim, Şuşa musiqisi tarixində xüsusi xidmətləri olan tarzən, pedaqoq, səmimi insan Rəsul Mikayıl oğlu İsmayılov məndən xahiş etdi ki, ”Şuşa ili”nə həsr olunmuş yeni bir əsər yazım. Mən onun xahişini nəzərə alaraq yeni ”Qarabağnamə” əsərini yazmağı dostuma söz verdim” (s. 3). Y.R.Hüseynovun nəşr olunmuş yeni əsərinin redaktoru və rəyçisi tarix üzrə elmlər doktoru, BDU-nun professoru Zabil Həsrət oğlu Bayramovdur. Bu əsərə tarix üzrə elmlər doktoru X.S.Qasımov və tarix üzrə fəlsəfə doktoru B.O.Əziz də müsbət rəy vermişlər. Fikrimizcə, Azərbaycanın əzəli və əbədi, dilbər guşələrindən olan, təqribən son 30 il ərzində erməni işğalına məruz qalmış Qarabağın tarixi ilə bağlı olan elmi əsərlərin yazılması, nəşri daim aktualdır. Bu məqamda 1784-cü ildə Şuşada anadan olmuş və 1857-ci ildə bu məkanda dünyasını dəyişmiş görkəmli Azərbaycan şairi Qasım bəy Əlibəy oğlu Cavanşirin (Zakirin) Rusiya imperiyasının məmurlarının, bu imperiryaya can-başla xidmət etmiş Azərbaycan bəylərinin və ruhanilərinin kəskin tənqidinə həsr olunmuş satirik şeirlərini xatırlamamaq qeyri-mümkündür. O, sərt, realist şeirlərinə görə rəsmi imperiya dairələri tərəfindən daim tənqid olunmuş, 1849-cu ildə Bakıya sürgün edilmiş, oğlu Nəcəfqulu və qardaşı oğlu İsgəndər bəy Rusiyaya sürgün olunmuş, özü isə bir neçə ay Bakı sürgünündə qaldıqdan sonra yaxın dostlarının və xüsusilə M.F.Axundovun səyləri nəticəsində Şuşaya qayıtmış, ömrünün sonuna qədər burada ehtiyac içində yaşamışdır. Qeyd edək ki, Qasım bəy Zakirin ”Xəbər alsan bu vilanın əhvalın, bir özgədir keyfiyyəti - Qarabağ” şeiri öz aktuallığını XXI əsrin 20-ci ilinin sonunadək itirməmişdi... 2020-ci ilin noyabr ayının 8-də dövlət başçımızın, şanlı Azərbaycan Ordusunun sarsılmaz iradəsi, birliyi, qardaş Türkiyənin böyük mənəvi dəstəyi sayəsində möhtəşəm Şuşa şəhəri erməni işğalından azad olunmuşdu. Bu məqamda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etdi: ”8 noyabr 2020-ci il. Bu tarixi bir gündə Azərbaycan xalqına müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərdən biridir... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabaş bizimdir! Qarabağ Azərbaycandır!”(https://prezident.az.articles45756).

2021-ci ilin yanvar ayının 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ailə üzvləri ilə birlikdə azad olunmuş Şuşa şəhərinə gəldi və burada üçrəngli dövlət bayrağımızı ucaltdı. Y.R.Hüseynovun 2022-ci ilin əvvəllərində nəşr olunmuş ”Qarabağnamə” əsərini qeyd etdiyimiz son möhtəşəm hadisələrin əks-sədası kimi dəyərləndirmək olar. Vətənpərvər tarixçimizin bu əsərində Qarabağın tarixi, Qarabağ xanlığının yaranması,




təkamülü, qədim yaşayış yerləri, bu xanlığın sərhədləri, çayları, adət və ənənələri, Qarabaş xanlığının Qacarlar məmləkəti, xanlığın Rusiya imperiyası ilə və digər qonşu dövlətlərlə münasibətləri 17 fəsil üzrə qısaca şərh olunur. Y.R.Hüseynov əsərin ”Xudafərin körpüləri” adlanan qismində yazmışdır: ”Ermənilər bu əraziyə XIX əsrin əvvəllərində gətiriliblər. Həmin dövrlər ərzində Azərbaycan ərazisində onların yalnız torpaq əldə etməkdən başqa heç bir izi qalmayıb” (s. 108-109). Vətəni olmayan erməniləri Azərbaycan ərazisinə gətirən, onları bu ərazinin ən məhsuldar hissələrində yerləşdirən, onları təqribən üç əsr ərzində dəstəkləyən siyasi qüvvənin Rusiya, Sovet imperiyası olduğunu isə tarixdən xəbəri olan hər bir şəxs bilir. Monoqrafiyanın ”Hay ünsürlərinin Qarabağa köçürülməsi” adlanan XVII bölümündə (s. 112-117) ernənilərin Şimali Azərbaycan ərazisinə, xüsusilə bərəkətli Qarabağ bölgəsinə köçürülməsindən bəhs olunmuşdur. Bu bölümün əvvəlində Y.R.Hüseynov A.S.Qriboyedovun və N.N.Şavrovun ermənilərlə bağlı olan, Rusiya rəsmi dairələrini duyuq salan, ”perspektiv və sərfəli olan” fikirlərini də təqdim etmişdir.

Y.R.Hüseynovun bu əsərinin 116-cı səhifəsində bizi razı salmayan bircə fikri xatırlatmamaq olmaz: ”Yeri gəlmişkən, deyim ki, Rusiya imperiyası ilə İran arasında müharibələr olmasaydı, nə Qarabağ, nə də İrəvan torpaqlarında ermənilər də olmazdı. Eyni zamanda həmin sözləri Rusiya və Osmanlı Türkiyəsi arasında gedən müharibəyə də aid etmək olar” (s. 116). Fikrimizcə, bu məqamda monoqrafiya müəllifi yalnız səmimi, saf duyğularının təsiri nəticəsində tarixçi olduğunu ”unudub”... Qeyd edək ki, tarixçinin başlıca vəzifəsi artıq keçmişdə baş vermiş obyektiv hadisə və prosesləri araşdırmaqdır, ”ola biləcəkləri” təxmin etmək isə tarixçinin əsas borcu, vəzifəsi deyil... Rusiya imperiyasının, Sovet dövlətinin Azərbaycanın qərb qismi hesabına formalaşdırdıqları, qurduqları ”Ermənistan Respublikası”nın taleyi isə obyektiv hadisə və proseslərin gələcək axarından asılıdır.

**Fikrimizcə, Yunis Rza oğlu Hüseynovun nəşr etdirdiyi, yeni XXI əsr ruhunda yazdığı ”Qarabağnamə” kitabı Azərbaycanın, onun Qarabağ bölgəsinin tarixi ilə maraqlanan oxucuların böyük marağına səbəb olacaq, Qarabağla bağlı olan yaddaşımızı təzələyəcək. Təcrübəli tarixçimiz Y.R.Hüseynova isə bu istiqamətdəki gələcək araşdırmalarında uğurlar diləyirəm!**

**Xeyirbəy Qasımov**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun baş elmi işçisi, tarix üzrə elmlər doktoru, dosent**

---

## *Manatın məzənnəsində dəyişiklik olacaq?*



**”İlin sonuna kimi Azərbaycan manatının məzənnəsində heç bir dəyişiklik gözlənilmir”.**

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Taleh Kazımov bildirib.

”Hazırda tədiyyə balansının profisitini, valyuta hərraclarında tələbin kəskin azalmasını nəzərə alsaq, bizim ilin sonuna kimi manatın məzənnəsinin dəyişməsi ilə bağlı heç bir gözləntimiz yoxdur”, - deyə Mərkəzi Bank sədri qeyd edib.

## Azərbaycanda “Google Pay” xidməti yaxın zamanlarda tətbiq olunacaq

**Yaxın zamanlarda ”Google Pay” xidməti Azərbaycanda tətbiq olunacaq.**

Bunu Mərkəzi Bankın Baş direktoru Fərid Osmanov mətbuat konfransı zamanı bildirib.

O deyib ki, Mərkəzi Bank maliyyə inklüzivliyinin genişləndirilməsi, maliyyə xidmətlərinin əlçatanlığının artırılması istiqamətində davamlı işlər həyata keçirir. ”Artıq Mərkəzi Bankın sıx çalışdığı layihələr çərçivəsində ”Apple” ödəniş xidmətləri gəlib, yaxın zamanlarda ”Google” üzrə xidmətlər ölkəmizdə tətbiq olunacaq”, - deyə o bildirib.

Aqil ABBAS

# Ukraynadan səfeh hərəkət

*Gərək ki 1989-cu il idi, Polşaya gedirdik, sərhədi Lvovdan keçməli idik. Vaxtımız vardı, Lvovu gəzdik. Çox gözəl şəhərdir. Şəhərin mərkəzində parkda qəribə bir mənzərənin şahidi oldum. Böyük bir kassa qoymuşdular parkın ortasına, ağzı da açıq idi. Bir dənə də elan yazmışdılar. "Burada Taras Şevçenkoya abidə qoyulacaq. Abidə Şevçenkonu sevənlərin ianəsi hesabına qoyulacaq". Təxminən belə. Kassanın içi pul ilə dolu idi. Kimin nəyə gücü çatırdı, atırdı kassaya. Türklər demiş, dedim ki, mənim də şorbada duzum olsun və 25 manat pul atdım kassaya.*



*Aradan bir neçə il keçəndən sonra yolum yenə Lvova düşmüşdü. Həmin parka getdim və gördüm ki, şairə möhtəşəm bir heykəl ucaldılıb. Çox sevindim.*

*İndi qəzetlərdə oxuyuram ki, Ukraynada, daha dəqiqi Kiyevdə Lev Tolstoyun adını daşıyan küçədən qərar veriblər ki, Tolstoyun adı götürülsün, Boris Conson adlandırılsın. Ayıbdı e. Bunun bir adı var - səfehlik, idiotluq! Ağdamlıların diliylə desək, dəmşalaqlıqdı.*

*Var axmaq sözü, var səfeh sözü, var düşük sözü, var idiot sözü. Bunların hamısını bir yerə yığanda olur dəmşalaq sözü.*

*Yəqin bir azdan Ukraynada Tolstoyun kitabını yandırsalar, təəccüblənmərəm.*

---



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Ağalıya dönüş...

## Yaxud işığa gedən yol

**...Zəngilan mənim üçün həmişə doğma bir yer olub, doğma bir yurd kimi yadımda qalıb. Ən azından ona görə ki, mənim orda millət vəkili İmamverdi İsmayılov və filologiya elmləri doktoru, professor, məşhur jurnalist Qulu Məhərrəmov kimi tələbə dostlarım var, sevdiyim insanlar da az deyil. Və o tələbə yoldaşlarım mənə həmişə o torpağı, o yurdu sevdiriblər və bir də mən Zəngilanı ona görə çox istəyirəm ki, orda çox ağayanə, el-obanın sevdiyi bir Seyid olub: Seyid Həsən Ağa!**

**Cəddinə qurban olduğum Seyid Həsən Ağa tez-tez bizim kəndə gələrdi. Hətta Bəhmənlidə olanda eşidib ki, toy var, gəlib bizim qapıya! Elə bir ağır adamın qapıya gəlməsi və orda xeyir-dua verməsi hər adama qismət olmazdı. Seyid Həsən Ağa bizim qapıya gəldi və qardaşım Qürbətin toyunda xeyir-dua verdi. Onu qapıda görən qonaqlar Ağaya yaxınlaşdı, "cəddinə qurban olum" dedilər. Çünki Seyid Həsən Ağa başqalarından fərqli olaraq nəzir alanda özünə xərcləməz, camaata paylayardı. O da verilmiş nəzirlərdən, xüsusən də bir manatlıq pulun üstünə imzasını atıb camaata paylayardı. Bizim toyda da imzasını atdığı bir manatları camaata payladı, birini də mənə verdi. Hələ də o pulu saxlayıram. Onun elə möcüzələri vardı ki, adam məəttəl qalırdı. Əlini yanan ocağın içinə salardı və ordan istədiyi şeyi götürərdi və əli də yanmazdı. Bax, Seyid Həsən Ağa belə bir Seyid idi...**

**...İndi azad olunmuş o torpağa 28 illik işğaldan sonra yenidən dönüş başlayıb. O dönüş ki, insanlar bu anı, bu dəqiqəni düz 28 ildir gözləyiblər. Bu dəqiqə, bu an indi gəlib çıxır və indi gəlib çıxdığına görə də 2020-ci ilin 44 günlük müharibəsində Zəngilanın bütün torpaqları kimi, Ağalı kəndi də erməni işğalından azad edildi. 1 il 7 ay orda ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə yeni ikimərtəbəli binalar tikilib.**

**Bu ağıllı kənd yeni layihədir və orda hər cür infrastruktur yaradılıb. Artıq köçün birinci mərhələsi başlayıb. İyulun 25-də isə ikinci köç gedir və bu köç sanki bir karvana, sanki bir işığa bənzəyir...**

**Ağalı kəndi 1993-cü ildə işğal olunandan sonra bizim qonşuluğumuza pənah gətirən el ağsaqqalı Məhəmməd kişi və onun övladları oldu. Oldu ona görə deyirəm ki, Məhəmməd kişi bir neçə ildir ki, Allahın dərgahına qovuşub. Amma onun oğlanları bizim qonşuluğumuzda çox böyük hörmət, məhəbbət və sevgi qazanıblar. Və həmişə bu ailə imkansızlara, çətin vəziyyətdə olanlara arxa durub. Ona görə də qonşularımızın hamısı onları çox istəyirlər. İyulun 24-də həyətimizə iri bir yük maşını gəldi. Və bu iri yük maşınına Məhəmməd kişinin övladları - Möhübbətin, Hümbətin, Zaurun bütün avadanlıqları yığıldı. Hətta Zaurgildə olan 28 il bundan əvvəl Zəngilandan gətirdikləri samovarı da yük maşınına qoydular. Zaur dedi ki, bunu Ağalıya aparmasan rahat olmaram. Əhd eləmişdim ki, Ağalı azad edilsin, bu samavarı da aparıb Ağalıda yenidən qaynadaq və onun çayını içək. Həmişə Bakıda bu samavarı qaynadanda Ağalının qoxusunu hiss eləmişik. İyulun 25-i səhər saat 6-da isə həyətdə bütün köçəcək adamlar bir yerə yığışmışdılar, sevincləri, səsləri həyəti ağzına götürmüşdü. Bu dəfə yük maşınları yox, onları Ağalıya aparacaq minik maşınları gəlmişdi. Qonşular hamısı həyətə düşmüşdü. Məhəmməd kişinin oğlanları - Möhübbətə, Hümbətə, Zaura, nəvələri Gülüşə, Məhəmmədə və gəlinləri Şəfiqəyə göz aydınlığı verirdilər. Sevinc sevincə qarışmışdı. Hərə öz məhəbbətini bir cürə bildirirdi. Hətta yola düşəndə onları aparan avtomobilin arxasınca su da səpdilər. Qonşular hamısı bir ağızdan dedilər ki, sağ gedib, salamat çatasız!**

**Mən Ağalının bir istedadlı qızını sizə də tanıtmaq istəyirəm. O, Məhəmməd kişinin nəvəsi və Zaurun qızı Gülüşdü. Gülüş düz 3 dəfə Ağalıda olub və cənab prezident İlham Əliyevlə görüşdə iştirak edib. O qədər savadlı və şirin danışıb ki, görüş iştirakçılarının yaddaşında əbədi iz qoyub. Gülüş Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Onu müxtəlif yerdə işə dəvət ediblər, ancaq bunu qəbul etməyib. Deyir ki, prokurorluq orqanlarında işləmək istəyirəm. Eşitmişik ki, bu yaxınlarda "Asan xidmət"də işə düzəlib. Və biz inanırıq ki, Gülüşün nə vaxtsa prokurorluq orqanlarında işləmək arzusu çin olacaq. Çünki bizim ölkəyə və xalqa bu cür savadlı, istedadlı və ədalətli gənc kadrlar lazımdı. O gənc kadrlar ki, onların həm mənəviyyatı təmizdir, həm də əxlaqı. Bir sözlə, arzumuz odur ki, biz Gülüşü gələcəkdə prokuror kimi görək.**

**...Maşın karvanı üzü Zəngilana yola düşür. Qabaqda onların təhlükəsizliyini təmin edən yol polisi maşını gedir, arxada isə yük maşınları və Ağalı sakinləri avtomobildə əyləşib, doğma yurda yola düşürlər. Təbii ki, bu anlar çox yaddaqalan, kövrək və sevindirici məqamlardır. Hətta göz yaşlarını saxlaya bilməyən insanlar da var. Elə çox yox, Məhəmməd kişinin həyat yoldaşı Mariya xalanı yada salmaq bəs edir. Deyir, bala, şükür Allaha, ölsəm tay dərdim yoxdu. Çünki Məhəmməd kimi Bakıda yox, öz kəndimdə basdırılacağam...**

**Tək qonşular deyil, bütün Azərbaycan Ağalılara "Yaxşı yol!" diləyir. Bütün Azərbaycan onları təbrik edir və onlara göz aydınlığı verir və biz də deyirik: Həmişə Ağalıda, qonşular! Ocağınız yanar olsun, çörəyiniz bol! Allah bir daha sizi Vətənlə sınağa çəkməsin!!!**

---

# Onlar çətin anda insanların həyatını xilas edirlər

## *Metropoliten polisi dəfələrlə vəziyyəti ağırlaşmış xəstəni çətin vəziyyətdən qurtarıb*

**Mən hər səhər metrodan istifadə edirəm. Yəni səhər saatlarında metronun "Xalqlar dostluğu" stansiyasına gəlir, ordan "Elmlər Akademiya"sına gedirəm. Və hər səhər də orda xidmət aparan metropoliten polislərini və metro işçilərini görürəm. Hətta onların çoxunu sifətdən tanıyıram və bir çox halda stansiyaya düşəndə salamlaşıram. Düzdür, bəziləri məni tanımasa da, salamımı alır və hörmətlə yanaşır.**

Düşünürəm ki, bizə və əhaliyə xidmət edən ən azından 18 saat işləyən bu insanlara ancaq təşəkkür düşür. Ən azından ona görə ki, metroda polis əməkdaşı gedir. Amma buna baxmayaraq, polis öz vəzifə borcunu yerinə yetirir, metronun və sərnişinlərin təhlükəsizliyi üçün bütün qabaqlayıcı tədbirləri vaxtında həyata keçirir.



Bəzi hallarda profilaktik tədbirlər məqsədilə vətəndaşlar metro stansiyaların içərisində polis əməkdaşları tərəfindən saxlanılır, onların şəxsiyyət vəsiqəsi yoxlanılır və heç bir problem olmayandan sonra həmin adamlara polis "Yaxşı yol!" deyir.

Bir dəfə də həmin polis nəfərlərindən biri məni saxladı və şəxsiyyət vəsiqəmə baxmaq istədi. Təbii ki, mən də sənədlərimi təqdim etdim, polis də həmin sənədlərə baxıb heç bir problem olmadığını bildirdi və mənə çox səmimi, isti bir münasibət göstərdi. Tək mənə deyil, ümumiyyətlə, metropoliten polisi bütün sərnişinlərlə rəftar edərkən mövcud qanunlara əməl edir, onlarla səmimi söhbətlər aparır, bir çətinlikləri olanda lazımi köməklik göstərir.



olaraq işləmək, həm də metro işçisi kimi fəaliyyət göstərmək çox böyük məsuliyyət tələb edir. Çünki metro stansiyalarında qatarların hərəkəti tənzimləməklə yanaşı, həmin qatardakı sərnişinlərin də həyatına orda xidmət aparan əməkdaşlar yüksək məsuliyyətlə və sevgiylə yanaşırlar.

Biz həmişə bunun şahidi olmuşuq. Şahidi olmuşuq ki, pandemiya başlayandan bugünə qədər metropoliten polisi nə qədər gərginliklə, nə qədər mürəkkəb bir şəraitdə işləyib.

Əlbəttə, hər bir vətəndaşı yoxlayıb stansiyaya buraxmaq elə də asan deyil. Bir vaxtlar sərnişinlər əl cihazları ilə yoxlanılırdı.

Amma pandemiya başlayandan sonra təhlükəsizliyin təmin edilməsi üçün ən müasir avadanlıqlardan istifadə edilir. Yəni sərnişinlər tərəfindən lazımi əşyalar və çantalar avadanlıqlara qoyulur və həmin avadanlıqlarda kameralar vasitəsilə yük yerində nə olduğu dəqiqliklə bilinir. Bir çox halda hətta vətəndaşlar narazılıq edirlər ki, bizim vaxtımız

Təbii ki, vətəndaşlar bu isti münasibəti görəndə onlara hörmətlə yanaşır və sevindirici haldır ki, əksər sərnişinlər metroda xidmət aparan polislərdən razılıq edirlər. Çünki bayaq dediyimiz kimi, onlar insanlarla nəzakətlə davranıb, çətin vəziyyətdə olanlara lazımi məsləhətlər verir və köməklik göstərirlər.

Köməklik dedim, yadıma iyulun 22-də saat 14:00 radələrində metronun "28 May" stansiyasında xəstələnmiş və çətin durumda olan bir qız yadıma düşdü. Həmin qızın 22, 23 yaşı olardı. Stansiyanın oturacağında əyləşərkən özünü çox pis hiss etdi. Elə həmin an stansiyada xidmət aparan və qatarın hərəkəti tənzimləyən xanım bunu hiss etdi və ona yaxınlaşdı. Elə mənim özüm də qıza kömək etmək istədim. Yanımda da ürəklə bağlı dərmanlar vardı. Amma çətin vəziyyətdə olan qız bu dərmanları istəmədi.

Xidmət aparan xanım isə ona ilk yardım göstərdi. Polislər isə qızın həyatını xilas etmək üçün əldən-ayaqdan gedirdilər. Artıq təcili yardım çağırılmışdı. Həkimlər gələnə qədər polislər və stansiyada xidmət aparan xanım ona lazımi köməklik elədilər. Qızı oturacağın üstünə uzatdılar. Çətin vəziyyətdən qurtarmağı bacardılar...

Metroda hər gün xəstələnib çətin vəziyyətə düşən sərnişinlərə rast gəlmək olur. Kiminin sudurğası tutur, kiminin ürəyi ağrıyır, kimi də nəfəs almaqda çətinlik çəkir. Bax, həmin anlarda sərnişinlərə ilk köməkliyi metropoliten polisi və orda xidmət aparan metro işçiləri göstərirlər.

İsti yay günlərində isə kondisioner sistemi olmayan vaqonlarda yaşlı və xəstə adamlar daha çox çətinlik yaşayırlar. Bax, özlərini pis hiss edən həmin sərnişinlər qatardan stansiyaya yerə düşürdülür və onlara lazımi yardım göstərilir. Əgər vəzyiyətləri ağır olursa, onda təcili tibbi yardım çağırılır.

Bir dəfə də "Elmlər Akademiyası" stansiyasında mənim vəziyyətim pisləşmişdi. Qatardan düşüb oturacaqda əyləşdim, o dəqiqə metropoliten polisinin əməkdaşı və metro işçilərindən bir neçəsi mənə yaxınlaşdı. Gördülər ki, vəziyyətim yaxşı deyil. Tər götürüb məni aparırdı. Təcili su gətirdilər, yanımda dərman vardı, onu atıb sakitləşdim. Həkim çağırmaq istədilər. Dedim ki, ehtiyac yoxdur, indi yaxşıyam. Metropoliten polisinin əməkdaşından biri mənim qolumdan tutub eskalatora mindirdi, düz çıxacağa qədər müşayiət elədi.

Dedi ki, qoy maşın çağıraq, səni evə ya da işə aparaq. Bildirdim ki, ehtiyac yoxdur, indi özümə gəlmişəm. Çox sağ olun ki, mənə çətin vəziyyətdə kömək göstərdiniz.

Bir faktı da qeyd edək ki, metropoliten polisi sərnişinlərin təhlükəsizliyini təmin etmək üçün çox böyük işlər görüb və görür. Bu işlərdən biri cinayətkarlığa qarşı mütəmadi olaraq mübarizə aparılmasıdı. Çünki metroda aparılan profilaktik tədbirlər nəticəsində neçə-neçə cinayətkar ifşa edilib. Sərnişinlərin mobil telefonunu, pulunu oğurlayan cibgirlər saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunublar. Təbii ki, polis həmişə cinayətkarlığa qarşı mübarizədə və onların zərərsizləşdirilməsində əvəzsiz rol oynayıb.

Çünki Azərbaycan polisi hər gün müasir texnika və avadanlıqla təchiz edilib, onların peşəkarlığı, çevikliyi və başqa sözlə demiş olsaq, işgüzarlığı bir daha yüksəlib.

Bu da onu deməyə əsas verir ki, digər sahələrdə olduğu kimi, metropoliten polisi də sərnişinlərin təhlükəsizliyini yüksək səviyyədə təmin edib, onların həyatını gözləyən qorxulu nə varsa, hamısının qabaqcadan qarşısını alır.

**Deməli biz hər yerdə olduğu kimi, metropolitendə də çox rahat işə gedib, evimizə qayıda bilirik. Çünki metropoliten polisi bizim təhlükəsizliyimizi yüksək səviyyədə həyata keçirir.**

**Faiq QİSMƏTOĞLU**

---

# Qələmdən silaha sarılanlar

**Uşaq ədəbiyyatının incilərini yaradan Abdulla Şaiq yazırdı ki, hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amilini elm və əxlaqı aşılayan müəllim yaradır.**

O müəllim ki, cəmiyyətin maariflənməsində müqəddəs dəyər hesab olunur.

Müəllim gələcəyin təməlidir, onlar bəşər üçün ən faydalı olanı öyrədir, aydınlığa gedən bir yolda çıraq təsiri bağışlayır.

Mənim üçün dünyada nə qədər elm sahəsi varsa, onların bir açarı və lideri var - müəllim. Bu ucalıq cəmiyyətin şərəfi və dəyəridir.

Müəllim olmazsa, cəmiyyət büsbütün uçurumun kənarında yer alar. Niyyəti, məramı cəmiyyəti "manqurtlaşmaqdan" xilas edən bu incilər içərisində iki vəzifəni bir anda yerinə yetirə bilən şəxslər də oldu. Bunlar eyni anda qələmdən silaha sarılan bir neçə müəllim kütləsi idi. Bu yerdə Sədi Şirazinin "Bustan" əsərindən bir parça lap yerinə düşür:



*Bir ağıllı adam, bir də qəhrəman,*
*Adını yüksəldər sənin hər zaman.*
*Kim ki qılınc, ya da qələm tuta bilməsə,*
*Ona heç acıma, yıxılıb ölsə.*

Qələm tutmağı öyrədən həmkarlarımdan Qarabağ savaşında iştirak edənlər də oldu. Azərbaycanın ərazi bütövlüyü uğrunda haqq savaşı başlayar - başlamaz. Vətən kəlməsinin müqəddəsliyini aşılayan bu müəllimlər könüllü olaraq Vətənin müdafiəsinə qalxdılar. Müəllim kimi sənətinin haqqını verən bu oğullar döyüş qabiliyyətlərini də nümayiş etdirərək xidmətlərində fərqləndilər. Bir pedaqoq olaraq, qələm və silaha sarılan bu müəllimlərin həyatını işıqlandırmaq mənim üçün şərəf və qürurdur. Çünki hər bir Azərbaycan gənci öz qəhrəmanlarını tanımalı, istər onların qələmindən, istərsə də döyüş təcrübələrindən özlərinə bir pay götürməlidirlər.

Böyük zəfərdə sarsılmaz inamları və əzmləri ilə payı əvəzsiz olan müəllimlərdən Rahim Xubalıyev, Eyvaz Əyyub, Emin Piri, Məhəmməd Məhəmmədov kimi müəllimlər sözün əsl mənasında timsaldır. "Öncə Vətən!" kəlməsini deyən bu oğullardan incə təbiətli, şair ruhlu olanlar da az deyil. Emin Piri kimi ecazkar poetik nümunələr yaradan, Eyvaz Əyyub kimi unudulmaz və təsirli bir poeziya formalaşdıran bu oğullar artıq şagird qarşısında cümlə qurarkən qürurla öz adları olan nümunələr gətirməkdən çəkinmirlər. İndi onların yaradıcılığında vətən və qəhrəmanlıq ön plandadır.

Məmməd Araz demişkən:

*Nə zaman ki qələm gəlir əllərinə,*
*Vətən gəlir dillərinə.*

**Sözü sözdən seçməyi bacaran belə oğullar "Vətəndən pay olmaz!" şüarına əsasən, vətən qarşısındakı borclarından bir daha şərəflə çıxmağı bacardılar.**

**Xəyalə Həmzəliyeva**
**Sumqayıt şəhər Evdə Fərdi Təhsil Məktəbinin müəllimi**

---

## *Camaat Marsa helicopter yollayır...*




**Adalet.az xəbər verir ki, NASA Marsa iki minihelikopter yollayacaq.**

Həmin helikopterlər Yerə Marsın dağlarından və torpağından nümunələr gətirmək üçün göndəriləcək.

"Minihelikoterlərdən birinin 2027-ci ilin payızında, o birinin isə 2028-ci ilin yayında göndərilməsi planlaşdırılır. Onların

Marsdan dağ-qaya və torpaq nümunələrinin xüsusi raketlərə yükləyəcəyi gözlənilir. Həmin yükün 2033-cü ildə Yerə qaydıcağı nəzərdə tutulub".

Məlumata əsasən minihelikopterlərin çəkisi 4 funt (1,8 kq). Onlara təkərlər və tutma qolları quraşdırılacaq. Helikopterin

layihələndirilməsi bu ilin oktyabrında başlayacaq. Bu mərhələnin 12 aya yaxın sürəcəyi gözlənilir.Hazırda Marsda NASA-nın "Perseverance" adlı uçan aparatı fəaliyyət göstərir. O, 2021-ci iln fevralında Qırmızı planetə göndərilib.

Həmin aparatın tapşırığı Marsda torpaq, qaya nümunələri götürüb öyrənməkdir. Aparat artıq 11 nümunə götürüb.

**Onların 2030-cu ilədək araşdırmaq üçün Yerə çatdırılması planlaşdırılıb.**

**Eminquey**

## *Kim Çenin nüvə hədəsinə BMT-dən reaksiya*



**Şimali Koreya lideri Kim Çen İnin nüvə silahından istifadə etməyə hazır olması ilə bağlı səsləndirdiyi bəyanatlar qəbuledilməzdir.**

Bu barədə BMT Baş katibinin rəsmi nümayəndəsinin müavini Fərhan Haq deyib.

"Bu cür ölümcül silahlardan istifadə ilə bağlı ölkələrin hər hansı ritorikasına qarşıyıq. Bundan əlavə, biz Pxenyanı nüvə silahından imtina ilə bağlı danışıqları bərpa etməyə səsləyirik", - F.Haq deyib.

Qeyd edək ki, bundan əvvəl Kim Çen Koreya müharibəsinin başa çatmasının 69-cu ildönümü ilə bağlı rəsmi bəyanatında Seulu təhdid edərək, nüvə silahı ilə zərbə endirməyə hazır olduğunu bildirib.

**MEHRİBAN**

---

Uğur Dündar

# Dəlixanalarda kimlər yatmalıdır?



*Ruhi əsəb xəstəxanasının bağçasında siqaret çəkirdim.*

*Ətrafa göz gəzdirərkən 40 yaşlarında təvazökar bir kişi ilə üz-üzə gəldim. Başımı çevirsəm də, o mənə baxmağa davam etdi.*

*Geyimindən qonağa oxşayırdı. Əvvəlcə danışmağa tərəddüd etdim, sonra cəsarətimi toplayıb ürkək addımlarla yaxınlaşdım.*

*"Mənə də bir siqaret ver!" - dərhal dedi. Deyəsən az-çox başa düşmüşdüm, amma siqareti uzadarkən yenə də "Niyə burdasan?" deyə soruşdum. Soruşmaya bilməzdim.*

*Siqaretdən dərin bir qullab alıb yenidən mənə baxdı. Gözünü belə qırpmırdı, eləcə baxırdı. Baxışlarından qorxmadım desəm yalan olar.*

*Sözü uzatmadan "Gününüz xoş keçsin" deyərək uzaqlaşmağa cəhd etdim.*

*Bəlkə səhv sual verdim, bəlkə onu narahat etdi, ya da bilmirəm, "Kişi dəlidir də!" deyə düşündüm öz-özümə...*

*"Sən niyə burda deyilsən?" - deyə qışqırmağa başladı. O qədər uca səslə qışqırdı ki, arxamı çevirməyə qorxdum.*

*Sakitləşənə oxşamırdı, elə bil içinə cin girmişdi. Bəlkə kömək edə bilərəm deyə üzümü ona çevirdim.*

*Olduğum yerdə dayandım, yaxınlaşmadan ona baxdım. O, bu dəfə daha yüksək səslə təkrarladı:*

*"Niyə burada deyilsən? Bu qədər fırıldaqçı, bu qədər vicdansız, bu qədər xəyanətin içində yıxılmamağı necə bacarırsan?".*

*Diqqətlə qulaq asdığımı görüb sözünə davam etdi: "Uşaqlar güllələnir, güllər qoparılır, ağaclar yandırılır, sevgi boşa çıxır, ümidlər itirilir. Orada rəngsiz və süni bir dünya var.*

*Uyğunlaşa bilmədiyim, səs-küyündən yata bilmədiyim çirkli, təkəbbürlü, qəddar bir dünya var. Səndən istifadə edib çirkli dəsmal kimi bir kənara atmaq üçün müxtəlif planlar quran bir dəstə zalım var.*

*Niyə burda deyilsən?*

*O cəhənnəmdə ağlı başında qalmağı necə bacarırsan?"*

*Mən titrəyirdim və donub qalmışdım. O gün yalnız bunu düşündüm: "Dəlixanalarda dəlilər qalmalıdır, yoxsa onları dəli edənlər?"*

*Dilimizə uyğunlaşdıran:*
*Eminquey*

---

Elgün Gəncimsoy

# Ağdamın işğal edilməsindən növbəti il ötmədi...



**İkinci ildir ki, dünənin sızıltısının səngiməsini hiss etmirəm özümdə. Ağdam azaddır. Ağdama qayıdış hazırlanır. Hər kəsin xaraba qalmış evinin kandarında hicran özünü öz şah damarı ilə asıb...**

**Bu, elə gözəl hisslərdir ki, nə yazmaq olur, nə də danışmaq. Məsələn, Ağdam təhvil veriləcək , deyildiyi gecə özüm-özümü bəlkə də 100 dəfə təbrik edib, əə, da kişi ol, ağlama arvad kimi... - Ağdamı aldıq, demişdim.**

**Ali Baş Komandanın çıxışını dostum Tahir danışdı. Elə bil hz.Yusif atası hz.Yaqubdan xəbər almışdı... Amma, şəkililər demiş, bu mür-müj olmuş müharibə, işğal dönəmidə yaşadıqlarımız bir gözümüzə qan ağladırdı.**

**Axı ora qayıtmayanlar olacaq!!! Elə ailə, elə nəsil var ki Ağdam kimidir... Ya ordan gələnlər tamamən yoxdur, ya da biri var, biri yoxdu.**

**Qaytmayanlar demişkən, rəhmətlik Qədir Rüstəmov "ACIbadəm" hospitalında ölümlə yaşam mübarizəsi aparanda Aqil Abbas Onun ziyarətinə gedir. Professor: "Beyin ölümü gerçəkləşib, sadəcə bu, sizin hökumətin diqqət mərkəzində olduğuna görə cihazdan ayırmırıq. Hazırda o heç bir reaksiya vermir", deyib. Aqil müəllim həkimdən icazə alıb reanimasiya otağına girir, astaca Qədirə yaxınlaşıb bərkdən, ay Qədir, gözün aydın, Ağdamı aldıq, deyib, çölə qaçır. Sonra dəhlizin divarına çöküb hönkürtüylə ağlayıb. Həmin vaxt tibb bacısı həkimə tərəf qaçaraq: "Hocam, xəstə bu adamın dediklərinə reaksiya verdi" - deyir.**

**Bir müddət sonra Qədir dünyasını dəyişir. Sizə düzün deyim, Qədirin Ağdamı görməməyi elə də çox böyük dərd deyil, Ağdama Qədirsiz qayıtmaq rəhmətliyin özündən də, lap elə xaraba qalmış Ağdamdan da böyük dərddir.**

**Görürsünüz bir gözüm niyə qan ağlayırdı... Ağdamsız tək təslim olmayan ağdamlı Qədir deyildi. Neçə-neçə ölüm yatağında olan AĞDAM boyda KİŞİni aldadıb əzrailə məğlub etmişdilər... Yəni duruşundan, yerişindən, kəlməsindən AĞDAM daman kişiləri AĞDAMı aldıq , yalanına bada verdik. Danışdıqca adamın bağrı dəmirçi kürəsi kimi özü qarışıq hər şeyi yandırır.**

**Min şükür Tanrının bu gününə!**

**Ona görə şükr etmirəm ki, Arif Babayev ora çəliklə gedib o taxtaya bədənini söykəsə də ürəyi xarabalığın dəhşətindən dayaq tutmağa daş üstə daş tapmadı...**

**Ona görə şükr edirəm ki, 27 il dünyanın ədalətsizlik məfhumu bətnində az qala zəhərlənməyə səbəb olan yeni Ağdama Ağdamı görməyən cavan Kişilər öz ruhlarını təvfil verdi, onun ağzına ruh üfürdü... Bax beləcə müasir Ağdamın nəbzi ilk inplusları onu görməyib yolunda can verənlərin müqəddəs ruhundan aldı. Azad oldu!..**

**ona görə şükür edirəm ki:**

**Heç olmasa Arif Babayev əsa ilə olsa da Qədir, Rəmiş əvəzdən gedib hər alağından VƏTƏN ətri gələn xarabalığı gördü...**

**Həm də illərdir təqvimin 23 iyulu qara gün, kədər günü kimi qeyd edilirdisə indi edilmir. Bax elə şükür buna düşür... Kii... Artıq bu təqvimdə ağdamlılar illər sonra həyatlarının əlamətdar gününü qeyd edir.**

**Uşaqlığı erməni silahlarının nişangahında keçən Fəxri Məmmədov Çıraqlıda, Ağdamın simalarından biri olmuş Əbülfəz (Samboçu) müəllimin tərbiyəsini almış Gülər xanım Bakıda özünə ad günü keçirib doğmaları toplayır başına. Daha keçmiş Ağdamdan kədərlə yox, sevinclə danışıb, gələcək Ağdamı fəxrlə müzakirə edirlər... Ölkənin ən bahalı düyün zalında, bütün ağdamlıların fəxr edəcəyi zabit övladına toy edib.**

**Ağdamdan bir misal da danışıb yekunlaşaq: Bir gün naşı bir sürücüdən soruşurlar, Xındırstan kəndindən Ağdama neçə dəfə gedib gələ bilərsən?**

**Adam deyib ki, Mirəşellinin "pavarotu" olmasa günə iki reys etmək olar. Artıq bizi Ağdama aparan yolda nə düşmən səngəri var, nə də qorxulu, sərt döngələr...**

**Daha Ağdamın arxasındakı bağrı qanlı Fərruxa Əfətlidən, Evoğludan, Sarıcalıdan, Çıraqlıdan baxmırıq. Artıq Fərruxun zirvəsindən qürurlu və mühafizəkar təzərlərlə Ağdam şəhərinə baxırıq.**

**Bircə böyük qayıdış qalıb. Bir də orada keçmişi unutmadan yaşamaq...**

**Eşq olsun, bütöv Azərbaycana!**



Adil Məmməd

# Tənqid nəcib sənətdir...

**Mən bu yazıda xalqımızın yetişdirdiyi, dünyaya bəxş etdiyi bənzərsiz və təkrarsız şair, böyük Rəsul Rzanın yaradıcılığından, ədəbiyyatımızda və mədəniyyətimizdə Anar fenomenindən danışmaq fikrində deyiləm. Bu böyük sənətkarlar barədə qiymətli, sanballı tədqiqat əsərləri - monoqrafiyalar, ədəbi-tənqidi, elmi-publisistik məqalələr yazılmış, ciddi elmi araşdırmalar aparılmışdır. Onların yaradıcılığının uzun illər və bəlkə də neçə-neçə əsrlər sonra da tədqiqatçıların diqqətində olacağı qənaətindəyəm. Bir həqiqətə də sarsılmayan inamım var; onların yaradıcılığı barədə neçə-neçə illər sonra da yazanlar, danışanlar ədəbiyyat tariximizin keçmişi kimi yox, həmin dövrün ədəbi prosesinin bir parçası, ayrılmaz hissəsi kimi bəhs edəcəklər.**

Bu yazıda başqa bir məqama toxunmaq istəyirəm. Artıq neçə illərdir ki, biz belə məqamlarla tez-tez rastlaşır, bəzən qəzəblənir, təəssüflənir, amma çoxumuzun münasibəti dediklərimdən o yana keçmir. Çox vaxt düşünürük ki, Rəsul Rza dahi sənətkardır, Anar qüdrətli yazıçıdır, xalq, oxucu onları yaxşı tanıyır, onlar barədə qərəzli yazanlara, böhtan atanlara baş qoşmağa dəyməz... və s. Bu düşüncələr bizi laqeydləşdirir, duyğusuz, ürəksiz, bir qədər də dərinə getsək, şərə, pisliyə vərdiş edən biganələrə çevirir. Rəsul Rza və Anar haqqında həqiqəti yazmaq, demək yalnız onları müdafiə etmək deyil, (bəlkə də, onların ədəbiyyatımızın, mədəniyyətimizin və mənəviyyatımızın ədəbi pasportuna çevrilmiş ölümsüz yaradıcılıqlarının müdafiəyə ehtiyacı yoxdur) ümumən Azərbaycan ədəbiyyatının, mədəniyyətinin keşiyində durmaqdır.

## *Bu yazımda*

***bu iki böyük sənətkarın adını qoşa çəkməyim onların ata-oğul olması ilə bağlı deyil. Səbəbi çox sadədir. Son illər ərzində Anarı bəyənməyənlər, onu tənqid edənlər bir neçə cümlə Anar haqqında yazdıqdan, söylədikdən sonra dərhal Rəsul Rzaya keçid alır, Azərbaycan ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan böyük şairin, əvəzsiz şəxsiyyətin işıqlı ruhundan utanmadan, xəcalət çəkmədən onun yaradıcılığı və şəxsiyyəti barədə bəsit, səviyyəsiz fikirlər söyləyir, hər vəchlə oxucuların və dinləyicilərin fikrini çaşdırmağa çalışırlar, və ya əksinə Rəsul Rzanın bizdən 100 illərlə öndə olan poeziyasını başa düşməyən, dərk etməyən, bəzən də başa düşüb, lakin etiraf etmək istəməyənlər şairin yaradıcılığı, şəxsiyyəti barədə 1-2 qərəzli fikir söylədikdən sonra, necə deyərlər, odlarını, sularını götürüb düşürlər Anarın üstünə.***

Azərbaycan ədəbiyyatı və mədəniyyətində eyni ailəyə məxsus onlarla sənətkarın adı hamıya məlumdur. Bunlar arasında şairlər, yazıçılar da var, bəstəkarlar, rəssamlar, rejissorlar, aktyorlar da.

Hələ indiyə kimi mənə rast gəlməyib ki, ata şair, yazıçı, rəssam, bəstəkar və ya başqa bir sənətkar haqqında tənqidi fikirlər söyləyən, yazan şəxs onun övladının da ünvanına hədyanlar söyləsin. Yaxud, sənətkar övladı tənqid edən sənət bilicisi onun sənətkar valideyninin ruhunu incitsin.

Təkcə Rəsul Rza və Anardan savayı...

Məgər Anarın günahıdı ki, onun valideynləri şair olub. Atası Rəsul Rza Azərbaycan poeziyasında yeni ədəbi məktəb yaradıb, Azərbaycan dilinin, Azərbaycan ruhunun keşiyində dayanıb. Haqsız hücumlara məruz qalsa da, əyilməyib, sınmayıb, neçə-neçə istedadlı gənci qoruyub, Azərbaycan ədəbiyyatının inkişafı naminə müdafiə edib...

Bəlkə Rəsul Rzanın günahıdır ki, onun oğlu Anar yalnız ədəbiyyatımızın deyil, mədəniyyətimizin bir çox sahələrinin inkişafında əvəzsiz işlər görüb...

***Məni bu sətirləri yazmağa LAF TV-də Ləman Əliəşrəf qızının aparıcısı olduğu verilişdə Şərif Ağayarın çıxışı oldu. Əsəd Cahangirin opponenti kimi verilişə təşrif gətirmiş Şərif Ağayar nə barədə danışacağını unudub, başladı Anarı tənqid etməyə. Onu orta səviyyəli yazıçı adlandırandan sonra Rəsul Rza haqqında danışmağa başlayanda təəccüblənmədim. Çünki yuxarıda qeyd etdiyim kimi, artıq biz buna vərdiş etmişik. O, Rəsul Rzanı ittiham edərkən, öz aləmində yəqin düşünürmüş ki, nəsə böyük bir sirrin üstünü açıb, ya da Amerikanı Kolumbdan əvvəl o, kəşf edib.***

## *1937-ci ildə*

keçmiş SSRİ-də tüğyan edən repressiyadan danışan Şərif Ağayar Rəsul Rzanı günahlandırır ki, niyə o, 1939-cu ildə Yazıçılar İttifaqının sədri seçilib. Görəsən, Şərif Ağayarın məlumatı varmıdır ki, 1937-39-ci illərin tufanında, qara yellərində öz qəlbini, vicdanını qoruyan, təmiz saxlayan, ümumi xora qoşulub, öz qələm yoldaşlarına böhtan atmayan bir neçə sənətkardan biri də Rəsul Rzadır. Məhz bu ləyaqətin sahibi olduğuna, o mənhus illərin sınağından başıuca çıxdığına görə, yalnız Azərbaycan ədəbiyyatında deyil, bütün Sovet İttifaqı ədəbiyyatında repressiya qurbanlarının acı taleyini əks etdirən, onların xatirəsini əbədiləşdirən ilk poetik əsəri - "Qızılgül olmayaydı" poemasını yazdı. Bu əsəri həmin illərdən başıuca çıxan, xalqının, qələm dostlarının gözünə dik baxan, həmin illərin qurbanlarının ruhu qarşısında öz şair, vətəndaş vicdanının ləkəsizliyinə, təmizliyinə inanan insan yarada bilərdi.

Görəsən, Şərif Ağayar Rəsul Rzanın "Füzuli", "Qızılgül olmayaydı", "Bir gün də insan ömrüdür", "Son gecə" və s. poemalarını və hər biri bir ədəbi kəşf sayıla bilən yüzlərlə şeirlərini, "Rənglər" silsiləsini, "Mənim fikrimcə", "Duyğuların izi ilə" kitablarını, Ali sovetdə, Yazıçılar İttifaqında Azərbaycan dilinin saflığını qorumaq üçün yazıçıların və mətbuatın görməli olduqları işi barədə etdiyi çıxışları oxuyubmu? Şərif Ağayara xatırlatmaq istəyirəm ki, həmin o qanlı-qadalı illərdə bəzi alimlər, yazıçılar, rəhbər partiya və sovet işçilərindən tutmuş adi məmura qədər bir çoxları öz yazısını, nitqini yerli-yersiz rus sözləri ilə "zənginləşdirəndə" Rəsul Rza bir vətəndaş qeyrəti ilə, necə deyərlər, "kəfənini boynuna dolayıb" Ali Sovetin sessiyasındakı çıxışında böyük cəsarətlə deyirdi: "... "Kommunist" qəzeti hansı əsasa görə və haqla maliyyə, vətəgə, təpə, məhsul, həvəs, fincan sözləri varkən finans, promısıl, sopka, produkt, stimul, çaşka və bu kimi sözləri özbaşına bizim dilimizə soxur? "

## *Bu sözlərə görə*

Rəsul Rzanı ən azı Sibirin gedər-gəlməzinə göndərə bilərdilər. Yüksək dövlət kürsüsündən bu sözləri söyləyərkən Rəsul Rzanın cəmi 29 yaşı vardı.

Bu gün Bakının küçələrində gəzərkən yüzlərlə dükan, aşxana (yeməkxana, restoran), bərbərxana, gözəllik salonu, müalicə, tibb evi və s. üzərində əcaib-qəraib adları oxuyanda hansımız səsimizi çıxarır, mətbuatda münasibətimizi bildiririk, Şərif Ağayar? Halbuki yaşadığımız cəmiyyətdə heç kim öz fikrinə, əqidəsinə və sözünə görə təqib olunmur. Mən hər dəfə bu eybəcərliklərlə rastlaşanda deyirəm: "Yerin görünür və əbədi olaraq da görünəcək, Rəsul Rza!"

Rəsul Rza bəşəriyyətin başı üstündən Domokl qılıncı kimi asılan dərdləri, təhlükələri qələmə alırdı:

*Dünya yuxusuzdur,*
*ağlaya bilmirəm.*
*Ölüm ömrü pusur*
*ağlaya bilmirəm.*
*Raketlər xərabə qusur,*
*ağlaya bilmirəm.*

İnsanlığı gözləyən təhlükələrdən bizləri xəbərdar edən böyük ustad yazırdı:

*Ən dəhşətli nüsxə*
*insanlar içindədir.*

Bu gün iddiası qabiliyyətini, istedadını dəfələrlə üstələyən insanlar haqqında yazılıb elə bil bu misralar.

Umacaqsız bir ömür yaşayan Rəsul Rzanın bəlkə də poeziyamızın ən faciəvi nümunələrindən biri olan "Unutmayın" şeirində insanlardan yeganə bir istəyi əks olunub:

*Mən xoşbəxt olardı,*
*tabutumu özüm apara bilsəm!*
*Adımı, xatirəmi*
*yazılı nitqlərdən,*
*sərin ahlardan qopara bilsəm...*

Mən böyük ustada xitabən deyirəm: Sizi tanıyanların çoxu XX əsrdə qaldı, bir qismi XXI əsrdə qalacaq... Sizin yolunuz isə sabahdır. Sizdən bir təmənnamız da var, bizdən də gələcək əsrlərə salam aparın.

Rəsul Rzanın bu gün Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən hesab edilən Əli Kərim, Fikrət Sadıq, Fikrət Qoca, Ramiz Rövşən, Vaqif Bayatlı, Mövlud Süleymanlı, Vahid Əziz və adını çəkmədiyim onlarla şair və yazıçını vaxtilə haqsız hücumlardan qoruduğundan Şərif Ağayarın xəbəri varmı? Şərif Ağayarın Rəsul Rzanın redaktorluğu ilə ərsəyə gələn və yayılmasına qadağa qoyulan yaşıl üzlü, mayası milli ruhla yoğrulmuş Ensiklopediya barədə görəsən, məlumatı vardırmı?

Bu sualların sayını xeyli artırmaq da olar. O ki qaldı Anar barədə onun dediklərinə, mən mərhum Vaqif Səmədoğlunun bir fikri ilə Şərif Ağayarı cavablandırmaq istəyirəm. Televiziyada Anar barədə danışan Vaqif Səmədoğlu deyirdi ki, kimsə deyə bilər ki, mən Anardan yaxşı romanlar yazıram, bir başqası isə iddia edər ki, mənim dram əsərlərim Anarınkından güclüdür. Biri kinossenarilərinin, digəri çəkdiyi filmlərin, yazdığı məqalələrin daha güclü olduğunu və ya musiqini Anardan yaxşı bildiyini söyləyər. Buna heç kim etiraz etmir. Hər kəsin öz fikri var. Lakin heç kim deyə bilməz ki, bu sadalananların hamısını birlikdə götürdükdə, o, Anarın etdiklərini Anar səviyyədə edə bilər.

Burada mənə ancaq bunu demək qalır: "Allah sənə rəhmət eləsin, Vaqif müəllim"

## *Bir yazıçı kimi*

***Anardan danışarkən mən onun dünya şöhrətli "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərlərinin, çoxdan Azərbaycan sərhədlərini aşaraq müəllifinə şöhrət qazandırmış klassik hekayələrinin adını çəkməyəcəm.***

***Şərif Ağayarın dedi-qodudan macalı varsa, Anarın "Macal" povestini də oxusun.***

Anarın kino yaradıcılığı Azərbaycan kinosunda yeni bir mərhələdir. Görkəmli kinoşünaslar onun Azərbaycan kinosuna verdiyi töhvələr, gətirdiyi yeniliklər barədə yazmışlar və yəqin ki, gələcəkdə də yazacaqlar. Mən yalnız onun iki filmini - dahi Mirzə Cəlil və Üzeyir bəy Hacıbəyov haqqında bədii-sənədli, publisistik filmlərini yada salmaq istəyirəm. Bu filmlərdə Anar Azərbaycan xalqının bu iki dahi oğlunu Azərbaycana (bəli, məhz özümüzə!) və dünyaya tanıtmaq baxımından ən azı böyük bir elmi-tədqiqat institutunun gördüyü iş qədər iş görmüşdür.

İradə Tuncayın Anar haqqında vaxtilə yazdığı "Quo vadis?" adlı yazıdan bir neçə cümləni oxucuların, elə Şərif Ağayarın da diqqətinə çatdırmaq istəyirəm:

"Rəvayətə görə Neronun təqiblərindən qaçıb qurtarmaq istəyən Apostol Pyotr Romadan çıxanda şəhər darvazasının önündə İsa peyğəmbərlə rastlaşır və heyrətlə soruşur: "Quo vadis, Domine?" (Hara gedirsən, İlahi?) "Romaya! Yenidən çarmıxa çəkilmək üçün", - deyir peyğəmbər və qeyb olur. Pyotr utanıb geri qayıdır. Onu da Romada əzabla qətlə yetirirlər.

Ədəbiyyat da Tanrıdı, dindi, siz də onun müridləri, Anar müəllim".

## *Anarın çoxcəhətli yaradıcılığı*

***haqqında düşünəndə ilk yadıma düşən böyük Cəfər Cabbarlı olur; şair, nasir, dramaturq, tərcüməçi, teatrşünas, rejissor, ssenariçi, musiqi bəstəçisi Cabbarlı... XX əsrin 15-34-cü illərində Cəfərin etdiklərini Anar XX əsrin 60-cı illərindən başlayaraq, bu gün də etməkdə davam edir. Təbii ki, özünəməxsus, orijinal şəkildə və yeni keyfiyyətdə.***

Şərif Ağayar deyir ki, atası Rəsul Rza kimi Anarın da bəxti gətirmişdir. Şərif Ağayar unutmamalıdır ki, bütün yaradıcı şəxsiyyətlər bəxti gətirən insanlardır. Onların bəxti onda gətirib ki, on minlər, yüz minlər içərisindən Allah onları seçib və onlara istedad verib. Rəsul Rza və Anar kimi böyük ədiblər Allahın verdiyi istedadla gərgin zəhməti birləşdirib ölməz sənət əsərləri yaradıblar. Bəziləri isə, Şərif Ağayar kimi, Allahın onlara verdiyi istedadı dedi-qoduya, böyük sənətkarlara, sözün və ədəbiyyatın keşiyində duranlara ləkə vurmağa yönəldirlər.

Şərif Ağayar çıxışında dedi ki, onun əsərlərindəki obrazlardan biri belə ifadə işlədib: "Qullar İsaya daş atdılar". Mən həmin əsəri oxumamışam. Amma ifadə xoşuma gəldi. Vaxtilə qullar İsaya daş atırdılar, həmin qulların varisləri isə bu gün Rəsul Rzaya daş atırlar.

Mən kiçik qeydlərimi Rəsul Rzanın "Tənqid nəcib sənətdir" şeirindən bir neçə misra ilə bitirmək istəyirəm.

***"İstəyirsən sözünü***
***Kükrəyən alovla yaz,***
***İstəyirsən buzla yaz.***
***Bircə şərti unutma!***
***Nə yazsan, namusla yaz!***
***... Xalq, oxucu adından***
***Yazmayın: filan, filan!***
***Sənət idman deyil ki,***
***Qazansın çox tullanan..."***

## *"Uşaqların Şuşası" - "Səhnə tv" nin layihəsi*



**Adalet.az xəbər verir ki, mədəniyyət kanallarından biri olan "Səhnə tv" maraqlı layihəyə imza atıb. Belə ki, kanal bu səfər Şuşaya uşaqların gözü ilə baxıb.**

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə 2022-ci ili "Şuşa İli" elan edilməsi bir daha sübut edir ki, Qarabağın tacı olan Şuşa ölkə vətəndaşları üçün müqəddəs məkan, böyüməkdə olan gənc nəslin mənəvi varlığının ayrılmaz parçasıdır. Şuşa arzuları bu şəhərdə gerçəkləşəcək uşaqların xəyallarda qurduqları nağıllar aləmidir. Onlar bu şəhərdə yaşayacaq, onu qoruyacaq, qurub yaradacaqlar. Şuşa uşaqları gözləyir!

**Eminquey**

## *Mərkəzi Bankdan uçot dərəcəsi ilə bağlı qərar*



***Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti (İH) uçot dərəcəsinin 7,75 % səviyyəsində saxlanılması barədə qərar qəbul edib.***

***Faiz dəhlizinin aşağı həddi 6,25 %, yuxarı həddi isə 9,25 % səviyyəsində saxlanılıb.***

***AMB-nin İH-nin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı sentyabrın 16-da ictimaiyyətə açıqlanacaq.***

***Qərar haqqında bir qədər sonra AMB-nin sədri Taleh Kazimovun iştirakı ilə keçiriləcək mətbuat konfransında daha ətraflı məlumat veriləcək.***

# Stress, Stress kardiomiopatisi və ya Qırıq qəlb (ürək) sindromu

## *(Yeni, yoxsa sirləri yeni açılan qədim xəstəlikdir?)*




Rafiq Yusifli,
kardioloq
(yusrafkard@mail.ru)


(əvvəli ötən sayımızda)

**Stomatoloqlar diş müalicəsi və ya çəkilməsi zamanı dişin dibinə vurulan keyləşdirici lidokain məhlulunun tərkibinə cüzi miqdarda adrenalin qatdıqda, xəstələrin çoxu ürəkdöyünmə, həyəcan, bədəndə titrəmə hiss edirlər. Bəzi xəstələrdə qan təzyiqi yüksəlir, ürək-damar sisteminə düşən yük artır, ürəyi qidalandıran damarların işində problem yarana bilir. Ona görə diş həkimləri yaşlı və ürək-damar xəstəliyi olanlarda adrenalindən istifadə etməməyə çalışır və kardioloqlarla məsləhətləşirlər.**

Adrenalinin miqdarının yüksəlməsi orqanizmə təsir edən amilin, stressorun gücündən və davam müddətindən asılıdır. Adi bir həyəcandan yaranan hal 5-10 dəqiqədən sonra keçsə də, çox ağır gərginliyin, stresin törətdiyi vəziyyət güclü və daha davamlı olur. Uzun müddət davam edən, təkrarlanan xoşagəlməz hallar, mənfi psixoemosional gərginlik törədən bədbəxt hadisələr təkcə ürək-damar sistemi (işemik xəstəliklər, qan təzyiqinin yüksəlməsi, aritmiyalar) deyil, sinir, həzm, endokrin və hazırda diqqət çəkən immun sistem üçün də zərərsiz ötüşmür. Stresin davam vaxtı uzandıqca insanlarda şəkərli diabet, qalxanvari vəz fəaliyyətinin pozulması (hiper və ya hipotireoz), mədə xorası, hətta müxtəlif üzvlərdə bəd xassəli şişlərin baş verməsi həkimlərə, elə əhaliyə də yaxşı məlumdur.

Stresdən, kəskin psixoemosional gərginliklərdən yaranan ən diqqət çəkən xəstəlik "Takotsubo kardiomiopatisi" (takotsubo cardiomyopathy) və ya "Stress kardiomiopatisidir" (stress cardiomyopathy) (kardiomiopati, ürək əzələsi fəaliyyətinin pozulması olan xəstəliklər qrupudur).

Xəstəliyə tibbi ədəbiyyatda azərbaycanca "Qırıq qəlb (ürək) sindromu", türkcə -"Kırık kalp sendromu", ingiliscə- "Broken-heart syndrome" və rusca- "Sindrom razbitoqo serdüa" kimi romantik adlar da verilmişdir (sindrom, xəstəlikdə rast gələnən ümumi səbəbli əlamətlərin, simptomların toplusu deməkdir). Bu vaxta qədər xəstəliyə tədqiqatçıların hansı əlaməti vacib qəbul etmələrindən asılı olaraq 70-ə qədər ad verildiyi məlumdur (bizcə də ürəyin bu halını "ürəyin dərin nokautu" kimi adlandırmaq olar). Müxtəlif mənbələrə görə kəskin koronar sindrom (ürəyin qan təchizatının kəskin pozulmasından törənən xəstəliklərinin ümumiləşdirilmiş adı) diaqnozu ilə klinikalara daxil olanların 1,7-2,2%-də stress kardiomiopatisinə rast gəlinir. Yeri gəlmişkən qeyd edək ki, bir şəxsdə stress kardiomiopatisi müxtəlif müddətdən sonra təkrar baş verə bilər.

Bu diaqnozla qeydə alınanların miqdarı faktik olanlardan xeyli azdır, belə ki, kəskin koronar sindrom diaqnozu ilə klinikalarda müalicə alanların bir hissəsinin stress kardiomiopatisi olması, amma ona düzgün, dəqiq diaqnoz qoyulmaması, öz adı ilə adlandırılmaması, nəzərdən qaçırılması, klassik miokard infarktı kimi qiymətləndirilməsi halları çoxdur. Əslində belə yanaşma, yəni xəstəliyə klassik miokard infarktı kimi yanaşılması və müalicəyə cəlb edilməsi xəstəyə bir ciddi ziyan gətirmirsə də, onun həyatının sonrakı illərində əmək qabiliyyətinin, əlilliyin qiymətləndirilməsində, işə düzəlməsində (əksər halda xəstəlikdən tam sağalma baş verir), ailə həyatının qurulmasında qeyri-müəyyənlik, anlaşılmazlıq və problemlər yarada bilər.

***Dünyanın hər ölkəsində stress kardiomiopatisi xəstəliyi vardır, əgər bir ölkədə və ya klinikada bu xəstəlik az qeydə alınır və ya heç qeydə alınmırsa, bu ancaq həkimlərin xəstəlik barədə məlumatlarının azlığı və ya müayinə imkanlarının (exokardioqrafi, angioqrafi, ventrikuloqrafi və s.) olmaması ilə izah oluna bilər. Yaqin hər bir kardioloqun praktikasında klassik miokard diaqnozu qoyduğu xəstədə koronar damarlarda ciddi, hemodinamik əhəmiyyətli daralmaların olmadığı, ürəyin böyük sahəsini tutan infarkt olsa da (bunun "sirkulyar" infarkt hesab edilməsinə də rast gəlinir), tez bərpa olduğu müşahidə edilmişdir. Çox vaxt bu hal damarda trombun öz-özünə əriməsinin, spontan trombolizisin nəticəsi kimi qiymətləndirilir. Bu mümkündür, amma belə halların stress kardiomiopatisi ola bilməsi də düşünülməlidir.***

Böyük Britaniyada ildə 2500-ə yaxın stress kardiomiopatisi xəstəliyi aşkar edilir (mənim çox sevdiyim bir hesablama var, statistikanın üzü sərt olur, həmin ölkədə, yəni Böyük Britaniyada əhali və hər milyon nəfərdə aşkar olunan stress kardiomiopatisi sayını standart kimi qəbul edib, digər ölkələrdə də vəziyyəti yuvarlaq şəkildə qiymətləndirmək olar. Bu müqayisə hər hansı bir xəstəliyin ölkədə yayılmasının öyrənilməsində də aparıla bilər. Təəssüflər olsun ki, hələ də ölkəmizdə ən vacib ürək-damar xəstəliklərinin yayılması haqqında məlumatlara malik deyilik, statistik nəticələri ancaq digər ölkələrin səviyyəsinə uyğunlaşdırırıq.

Qeyd etmək lazımdır ki, Avropa Kardioloqlar Cəmiyyətinin son 10-15 ildə keçirilən konqreslərində stress kardiomiopatisi barədə müzakirələr aparılandan sonra, xəstəliyin diaqnozunun qoyulmasına və müalicəsinə diqqət xeyli artmışdır.

***Xəstəlik bütün yaşlarda baş verə bilər, hətta 2 yaşı olan uşaqda tapılması barədə ədəbiyyatda məlumat vardır. Belə məlumatları oxuduqda, ailədə körpə uşaqları müəyyən vasitələrlə, güya zarafatla, sevərəkdən (itlə, pişiklə, siçanla, ilan balası, həşaratla və s.) qorxutduqda müdrik nənələrimizin, babalarımızın həyacanla "neyniyirsiniz uşağın bağrı çatdıyar (sözün sərtliyinə baxın!), uşağı heylə qorxutmaq olar, dəlisiniz!?" sözləri əbəs yerə demədiklərini anlayıram. Deməli, qorxudan uşaqlarda belə halların baş verə bildiyini onlar da müşahidə etmiş və ya eşitmişlər.***

Xəstəlik ən çox (80-85% halda) klimaksdan sonrakı yaş qruplarındakı qadınlarda olur, bu həmin dövrdə onların qanında estrogen hormonlarının miqdarının, onların qoruyucu təsirinin aşağı düşməsi ilə yanaşı, bizcə qadınların daha emossional, hər hadisəyə, digərlərinin dərdinə daha həssas olması, el arasında deyilən "ürəyiyumuşaqlılığı" ilə izah edilə bilər.

Kişilərdə xəstəliyə az təsadüf edilsə də, onlarda ölümlə nəticələnmə qadınlardan 10% çox olur. Xəstəliyin qış aylarında daha çox baş verdiyi də müşahidə edilmiş, bu da hava soyuqluğunun kiçik koronar arteriyalarda sıxılma əmələ gətirdiyi və həmin dövrlərdə damar divarlarına təsir edə bilən virus infeksiyalarının çoxalması ilə əlaqələndirilir.

Stress kardiomiopatisi xəstəliyi haqqında ilk dəfə 1990-cı ildə Yaponiya alimləri Sato və onun həmkarları məlumat vermişlər. Həmin dövrdə ölkələrində baş vermiş zəlzələdən sonra çox şiddətli psixoemosional gərginliyə, stresə məruz qalmış insanlarda, hətta bu vaxta qədər heç bir ciddi infarkt riski olmayan cavanlarda da, şiddətli, tipik infarkt ağrıları, elektrokardioqram dəyişiklikləri, infarktı təsdiq edən laborator göstəricilərin (troponin T və I, natriumuretik peptidlər və s.) klassik infarktdakı qədər çox olmasa da, yüksəldiyi aşkarlanmışdır. Alimlər alınan bu nəticələrdə klassik infarktlardan ciddi fərqə rast gəlməsələr də, xəstələrin exokardioqrafi müayinəsində fərqli şəkillər olduğunu müşahidə etmişlər.

Exokardioqrafi və ventrikuloqrafi (sol mədəciyə kontrast maye vurmaqla onun şəklinin alınması) müayinələrdə ürəyin sol mədəciyinin zirvəsindən, aşağı nahiyəsindən başlayan, bütün ön, arxa, yan divarlarının yığılma qabiliyyətinin kəskin azaldığını (hipokinez), hətta tam hərəkətsizliyi (akinez) müşahidə etmişlər. Bunlarla bərabər ürəyin hər sistolası, yığılması zamanı onun zirvə, aşağı nahiyəsinin balonlaşmasını, şişməsini, ürəyin yuxarı, əsas, bazal hissə adlanan yerinin isə daha güclü hərəkət etməsini (hiperkinez), sanki yığılması itirilmiş yerin əvəzinə işlədiyi aşkar olunmuşdur. Exokardioqrafi müayinədə aşkar edilən bu əlamət klassik takotsubo kardiomiopatisinin fərqləndirici əlaməti kimi qəbul edilir,"zirvədə akinez, bazalda hiperkinez" vəziyyəti kimi qeyd edirdilər. Lakin sonrakı müşahidələr prosesin mədəciyin orta, hətta yuxarı, bazal hissəsində də ("tərsinə takotsubo kardiomiopatisi", "zirvədə hiperkinez, bazalda akinez") olduğunu müşahidə etmişlər.

Göründüyü kimi əgər adi, klassik miokard infarktında bir damar tutulub və onun qanla təmin ediyi sahədə, seqmentdə hərəkətsizlik yaranırsa, stress kardiomiopatisində bu hal daha geniş, koronar damarların demək olar hamısının (total) qidalandırdığı ərazini əhatə edir.

Bu xəstəliyin özəlliklərindən biri ürəyin geniş sahəsinin zədələnməsinə baxmayaraq, xəstələrin əksərində koronar angioqrafi müayinəsində koronar damarlarda, hemodinamik əhəmiyyətli tıxanma, tutulma tapılmamasıdır.

***Exokardioqrafi və ventrikuloqrafi müayinə vasitələri ilə ürəyin alınan şəkli boğazı dar, aşağı hissəsi yumru küpə, yapon dilincə "takotsubo" adlanan qaba bənzədiyindən, xəstəliyi öyrənən həkimlər ilk olaraq bu xəstəliyi "Takotsubo kardiomiopatisi" adlandırmışlar. Takotsubo okeandan osminoq tutmaq üçün yaponların istifadə etdikləri qabdır. Osminoq ovçuları qabın içinə osminoqu cəlb edən qida qoyurmuşlar və onlar qabın boğazından içəri girib, qidanı yedikdən sonra oradan çıxa bilmədikləri üçün onları ovlayırmışlar.***

Ürək əzələsində baş verən bu dəyişikliklərin mexanizmi haqqında müxtəlif fikirlər vardır: Əsas səbəb, yüksək psixoemosional gərginlik, stress zamanı simpatik sinir sisteminin fəallaşmasından qanda katexolaminlərin, ən vacibi isə adrenalinin miqdarının həddən çox yüksəlməsi və onun bütün üzv və toxumalara təsiridir. Qısa bir müddətdə adrenalin təsirindən eyni vaxtda bütün koronar damarlarda, yayılmış şəkildə qan təchizatında pozulması, ürək əzələsinin total olaraq ciddi qansızlaşması, yığılma qabiliyyətinin kəskin zəifləməsi, demək olar hərəkətsizliyi baş verir.

Kardioloqlar bu halı ürəyin digər işemik xəstəlkilərində də təsadüf edilən hibernation "qış yuxusu" halına, hərəkətsizliyə (ingiliscə-hibernation, rusca- bezdeystvie, türkcə -kış uykusu) bənzədirlər. Bu hala düşən toxumalar normal iş qabiliyyətini (yığılma və boşalma) itirsələr də, ölmürlər. (Bir çox həşaratlar, heyvanlarda soyuqlar düşdükdə "qış yuxusu" halı yaranır, bu halda onların üzv və toxumalarında gedən mübadilə, qidalanma il ərzində ehtiyat şəklində toplanmış piyin hesabına olur, toxumaların tam ölməməsinə, yalnız yaza çıxmasına kifayət edir). Bundan başqa miokardın stanninq fenomeni, yəni qısa müddətli işemiya, reperfuziya təsirindən miokardın sarsılması, yığılma funksiyasının geriyə donə bilən azalmasının rolu da qeyd edilir (bu hal boks yarışındakı nokauta bənzəyir). Bu hallar ürəyin işemik xəstəliklərində, hər stenokardiya tutmasından sonra baş verə bilən hallardır.

***Miokardın biopsisi (ürək əzələsindən götürülmüş kiçik bir nümunənin mikroskopla müayinəsi) zamanı ürək əzələsində katexolaminlərin toksiki təsiri aşkar edilir.***

Stress kardiomiopatisi xəstəliyinin baş verdiyi anda xəstələrin sinəsində digər miokard infarktındakı kimi çox güclü, şiddərli ağrı, ağrının qollara, kürəyə yayılması və ürək əzələsinin geniş bir sahəsinin ciddi zəifləməsi səbəbindən kəskin sol mədəcik çatışmazlığı, boğulma, hava çatışmazlığı, təngnəfəslik, ürək döyünmə və xəstələrin müəyyən faizində isə ani ölüm baş verir.

Elektrokardioqrafi müayinədə miokard infarktına aid dəyişikliklər, aritmiyalar, ürəkdaxili keçiricilik pozulmaları aşkarlanır.

Bəzi alimlərə görə ürəkdə baş verən halların səbəbi yuxarıda qeyd edilən təsirlərdən əlavə ürəyin koronar damarlarının burulması, damar sıxılması (koronarspazm), qanın laxtalanmasının artması və qan elementlərinin hərəkətinin çətinləşməsi (yapışması, adhesion) də ola bilər. Xəstəliyin ən çox ürəyin zirvəsindən başlamasını isə həmin (apikal) nahiyədə adrenalinin təsirinə məruz qala bilən ?-1 reseptorlarının çox olması ilə izah olunur.

***Xəstələrin 95%-də 2 aya qədər çəkən müddətdə kliniki yaxşılaşma baş verir, sistolik funksiya 10-14 gün ərzində bərpa olunur elektrokardioqrafi, exokardioqrafi dəyişikliklər normal hala qayıda bilir. Lakin 75-dən yuxarı yaşlılarda 6%-dən çox, cavanlarda isə 3%-ə qədər ölüm hadisəsi müşahidə edilir.***

Stress (Takotsubo) kardiomiopatisindən ölüm faizi klassik infarktlardan aşağıdır Stress kardiomiopatisində qəfləti, ani ölümün səbəbini çox vaxt əhali miokard infraktından ürəyin cırılması (partlaması) hesab edir ki, bu da yanlış fikirdir. Çünki qısa müddət (saniyələr, dəqiqələr) ərzində miokard nekrozu, infraktı və bundan da ürək cırılması baş verə bilməz. Ani ölən şəxslərdə ürəyin yarılma müayinəsi aparıldıqda da ürək cırılması tapılmır, çünki, infarktla əlaqəli divar cırılmaları əsasən xəstəliyin 3-7-ci günlərdən, ürək əzələsinin tam nekrozu, yumuşalmasında sonra baş verir. Ani ölümün səbəbi yüksək miqdarda adrenalinin miokardda qeyri-sabit elektrik vəziyyəti yaratması, ciddi ritm pozulması, yəni aritmiyalardır.

Ölümün digər səbəbi kəskin ürək-damar çatışmazlığı və onun ən ağır kliniki variantı kardiogen şokdur. Xəstələrin 4-20%-də kardiogen şoka rast gəlinir və onunla ağırlaşanların 17-30%-də ölüm baş verir.

İkinci Qarabağ müharibəsi zamanı cəbhə ətafı kəndlərin birində evin həyətinə artileriya mərmisi düşməsindən şiddətli qorxu keçirmiş orta yaşlı, bu vaxta qədər heç bir ürək xəstəliyi olmayan qadında tipik infarkt ağrıları baş vermiş və Elmi-Tədqiqat Kardiologiya İnstitutuna qəbul edilmişdir. Araşdırmalarımıza görə xəstətəyə stress kardiomipatisi diaqnozu qoyulmuşdur. Müşahidəmiz altında az müddət (7-8 gün) keçdikdən sonra kliniki əlamətlər, elektrokardioqrafi, exokardioqpafi şəkillər yaxşılaşmış, sonrakı müayinələrimizdə isə normallaşmışdır.

***Yadda saxlamaq lazımdır ki, bu xəstəlik cavan, sağlam, heç bir ürək xəstəliyi olmayanlarda baş verdiyi kimi, əvvəldən ürək xəstəliyindən əziyyət çəkənlərdə də olar bilər. Bu halda çox vaxt diaqnozun qoyulmasında, yəni baş verən halın əvvəldən mövcud olan xəstəliyin kəskinləşməsi və ya stress kardiomipatisi olmasında incə mübahisələr yarana bilər, ancaq xəstəliyin gedişinin dinamikası ilə son fikrə gəlmək olur.Xəstələr əvvəldən mövcud olan morfoloji dəyişikliklərin daha da dərinləşməməsi üçün ciddi, standartlara uyğun müalicə almalıdırlar.***

Xəstəliyin baş verməsində ürəyin işemik xəstəliklərinin siqaret, alkaqol, narkotika kimi risk amillərinin rolu vardır.

Qırıq qəlb sindromu (Stress kardiomiopatisi) barədə məlumatlar topladıqca ömrüm boyu rast gəldiyim, şahidi olduğum stresdən baş verən minlərlə qəfləti xəstələnmələri, davamlı depressiyaları, intiharları və digər bədbəxt hadisələri xatırlamaqla yanaşı, düşünürdüm ki, görəsən ərəb dastanlarından qaynaqlanan, Nizami, Füzuli və Üzeyirin dühası ilə dünya şöhrəti qazanan "Leyli və Məcnun" ülvi məhəbbət nümunəsində Leylinin məzarı üstündə Məcnunun qəfləti, ani ölümünün səbəbi bu sindrom, bu xəstəlik ola bilərdimi?

Bu ölüm səhnəsini dastanlarda, poemalarda əsərin sonunun daha da dramatikləşdirilməsi üçün uydurulmuş əfsanə kimi və ya gündəlik həyatımızda yuxarıda göstərildiyi kimi törədicisi, klinikası, müasir tibbi müayinə üsulları ilə sübut edilməsi mümkün olan reallıq, həqiqi bir hadisə, stress kardiomiopatisi kimi qəbul edənlər də ola bilər.

***Mən onlarla, yüzlərlə kəskin koronar sindromlu xəstələrin və onlardan ölüm hadisələrinin şahidi bir həkim kimi, Məcnunun ölümünün ani, qəfləti ölüm (təbabətdə zor tətbiq olunmayan, ani baş verən və ya kəskin kliniki əlamətlərin başladığı ilk 4-6 saatda müşahidə edilən ölüm, qəfləti ölüm hesab edilir) olmasını qəbul edirəm. Amma məndə ilk olaraq sual yaranırdı ki, səhralarda dəli-divanə gəzən cavan oğlanda bizim klassik hesab etdiyimiz miokard infarktına, kəskin koronar sindroma səbəb olan koronar damar sklerozu və trombozu ola bilərdimi? Uzun illərin təcrübəsi və müşahidələrimə görə mən bu halın klassik kəskin koronar sindrom olma ehtimalının çox az olduğu və ya heç olmadığı qənaətindəyəm.***

**(ardı var)**

Əbülfət MƏDƏTOĞLU



# Əriyən gecənin acısı...

## Ağrılı, amma yaşanan gerçəklik...

**Əslində bütün gecələr bir ölçüdə, bir biçimdədi. Və əslində bütün gecələrin bir-birindən fərqi də onu necə canından, qanından keçirməyindən, özünü o gecənin içində necə tapmağından bilinir. Bu mənada hər gecəni qiymətləndirmək, onu bir-birindən fərqləndirmək çox da asan deyil. Çünki...**

Yadımdadır, hələ gənclik illərində yazmışdım ki:

*Vaxt var idi, dan yeriydim, sabahdım,*
*Gecə, gündüz sola, sağa ha baxdım...*
*Gecələr də ömürdəndi, a baxtım,*
*Gecələrin qəribliyi olmaya.*

Amma neynəyim ki, mənim istəyimlə nə Allah, nə də onun bəndələri heç vaxt razılaşmayıblar. Yəni ən ali olan Allahın iradəsinə qarşı kimsə çıxa bilməz və mən bu xəyalda da, istəkdə də deyiləm. O ki, qaldı bəndələrə... Bəndələr də ki, çeşid-çeşiddi, səlahiyyətlisi var, hökmlüsü var, ərkəsöyünü var, dəmşəlağı var...

Bir az da əli dəsmallısı, suda, quruda yaşayanı da var. Ən çətini də bunların içərisində bütün parametrləri ilə ADAM olanı seçməkdi. Yəni deməyim odur ki, indi ADAM tapmaq çox çətindi. Hətta bəzən fikirləşirsən ki, görəsən özüm ADAMAMMI? Sual bir az qəliz olsa da, günümüzün, gerçəkliyin ifadəsidi. Bu məqamda yadıma aqillərin dediyi bir fikir gəlir. O fikirə görə adamlıq ölməyən, itməyən, dəyişməyən bir bütövlükdü.

Amma o, sınanda polad kimi sınır. Və yamaq da götürmür. Hə, bax, indi belə adamları tap göstər mənə, mən də baxım sevinim. Nə isə...

Dörd divarın arasında özüm, sən və Allahım. Sükut, bir də qaranlıq. Mən bu məqamın içində özümübütünlüklə kimsəsiz, fağır, unudulmuş və heç nəyə yaramayan bir bəndə kimi hiss edirəm. Qapını açan yox, pəncərədən ancaq küləyin səsi gəlir. Hətta bir zamanlar "bülbül" olan telefonumda da həyat əlaməti hiss etmirəm.

Bu yerdə, bu məqamda kimdənsə rəhim diləmək, halıma acıma keçmir ürəyimdən. Ona görə ki, o acımanın, o könlümü ovudacaq varlığı da öz durumuma salmaq, öz ovqatımda kökləmək istəmirəm.

Necə deyərlər, özüm öz yükümlə, öz kimsəsizliyimlə, öz təkliyimlə baş-başa qalıb, özümü öz içimdə dəfn etməyə üstünlük verirəm. Bu məqamda pəncərədən görünən ay işığı mənə gecənin hansı çağı olduğunu xatırladır. Yəni o işıqda divardakı saata baxıram. Hə, indi hamı öz dünyasında, öz aləmində, öz yuxusundadı. Mən özüm də bilmədən pıçıldayıram. Daha doğrusu, üzümü Allaha və sənə tutub deyirəm:

*Gecə didilmiş əlçim*
*Əyirirəm gözümdə...*
*Əyildiyim gecəylə*
*Əriyirəm özüm də -*
*Üzü səhərə...*

*Halım qəmdi, qəhərdi*
*Dərd ümidə yəhərdi.*
*Xəyal dırnağı qanlı*
*Nalsız çapan kəhərdi -*
*Üzü səhərə...*

*Fikir dağılmış sikkə,*
*Ahlar çəkilmiş cikkə.*
*Sən inadkar, mən inad*
*Aparır bizi hikkə -*
*Üzü səhərə...*

Hə, əridə-əridə gecəni, üyüdə-üyüdə içimi, kipriklərimlə darıya-darıya qaranlığı gedirəm... Özü də tək yox, Allahımın səninlə bərabər çıxdığı yoldayam...

Gedirəm, elə bilirəm ki, bu qaranlıq əriyib qurtaranda sökülən dan yeri ümidə çevriləcək. Bu mənim düşüncəmdi, fərziyyəmdi, bir az da xəyalpərvərliyimdi.

Əslində isə gerçək tamam başqadı. O gerçəyi yenə Allah, sən və mən bilirəm. Ona görə də bir az pessimist olsa da bu misraları dilə gətirirəm.

***Bələmişəm , kipriklər***
***Nəm çəkibdi bələkdən.***
***Əlini uzat götür***
***Ələdiyin ələkdən -***
***Məni fələk...***

***Əyilmirdim, sinmirdim,***
***Təklikdən isinmirdim.***
***Belə namərd bilmirdim -***
***Səni fələk...***

***Binədən olub adət***
***Sevgi bitməyən səadət.***
***Qıymadım bircə ədəd -***
***Dəni fələk...***

Bəli, hər şeyi hər kəs öz bildiyi kimi görür və dəyərləndirir. Adəmin bir buğdanın qurbanına çevrilməsi də, o bir dənənin odundan alışıb Həvva sevgisini YER üzünə gətirməsi də, zaman da, bilənlər də bildi ki, bütün məsələlərin canında, qanında yalnız sevgi var, yalnız sevgi dayanır. O da adama elə yerdə, elə məqamda yaxalayır ki, o ancaq sümüklə çıxır.

Mən belə düşünürəm və bu əminliklə də yaşayıram. Hətta dan sökülləndə də, gün batanda da !!! Axı, həyat təkcə hansısa bir sənətlə, hansısa bir işin qulpundan tutmaqla gözəlləşmir, həyatı gözəlləşdirən həmin O İLAHİ SEVGİDİR!!! Necə ki, Adəmdən Həvvaya, Məcnundan Leyliyə, Məndən Sənə, Kimdənsə Kiməsə keçə-keçə, indiki yozumda desəm, yoluxa-yoluxa ömrünü davam etdirir. Və mən də bu yoluxmada özümü təkrar tapmış kimiyəm. Çünki:

***Təngiyən nəfəsimə***
***Bircə qaşıq ümid qat.***
***Bu ümidin də adı***
***Olsun sən verən həyat!***

***Xəyal yelkənin açım,***
***Dərin, uzaq sularda.***
***Xoşbəxtliyimə qaçım -***
***Mən sənli arzularda...***

***Özümü kösöv edim***
***Açıq-aşkar oduna.***
***Bu yanmağım , inşallah -***
***Söz gətirməz adına!..***

**Bəli, gecə əriyir, ömür üyünür... Dan sökülür, həyat davam edir,.. qarşıda yenə gecə var! Deyə bilərsən ki, bu gecənin də, elə bu gecə kimi əridiyini biz yaşamasaq da kimlərsə yaşayacaq. Təki əriyən gecələr olsun!..**

# Söz rəssamı...

## Yazıçı-publisist, jurnalist və hüquqşünas Rafiq Hacıyevin Allahın dərgahına qovuşmasından bir il keçdi

**...O, heç kimə bənzəməyən böyük ziyalı, yazıçı-publisist və jurnalist idi. Rafiq Hacıyev haqqında keçmiş zamanda danışmaq mümkün deyil. O, ötən il iyulun 26-da haqqın dərgahına qovuşsa da, mənə elə gəlir ki, Rafiq sağdır və o yaşayır. Ən azından ona görə ki, elə bir gün olmur ki, bir dost olaraq onu xatırlamayım, yada salmayım və ruhuna dualar oxumayım. Rafiq Hacıyevlə mən tələbə yoldaşı, dost olmuşuq, çörək kəsmişik. Onun qədər səmimi, onun qədər böyük ürək sahibi olan adam az görmüşəm.**

...Elə bir gün olmazdı ki, mənə zəng eləməsin, telefonda danışmayaq. Ən azından həftədə 2 dəfə "Azərbaycan" nəşriyyatına gələrdi, 6-cı mərtəbəyə "Ədalət"ə qalxardı, sonra da düşüb aşağıda, 1-ci mərtəbədə çay içərdik. Çayı da tək içməzdi ha! Mütləq o masanın arxasında Allahverdi Eminov, Adil Cəmil, Ağacəfər Həsənli və digər qələm dostlarımız olardı.

Və masanın arxasında bal kimi şirin söhbətlər eləyər, tələbəlik illərini, xatirələri yada salardıq. Rafiq tələbəlik illərində universitetin yataqxanasında Adil Cəmillə bir otaqda qalıb, üstəlik də Aşıqlar Birliyinin sədri, filologiya elmlər doktoru, Əməkdar elm xadimi, Məhərrəm Qasımlı ilə də tələbə yataqxanasında dostlaşıblar. O dostluq uzun illərdi davam edirdi. Rafiq Hacıyev Azərbaycan jurnalistikasının Pelesi idi. Onu mən belə adlandırmışdım. Barəsində bir yazı yazmışdım, o da Rafiqin çox xoşuna gəlmişdi. Hətta o qədər xoşuna gəlmişdi ki, qışın oğlan çağında paltosunun cibində bir tut arağı da gətirmişdi ki, gedək aşağıda yeyək-içək! Dedim ki, ay Rafiq, mən heç vaxt dostdan, tələbə yoldaşımdan nəsə ummaram və içən də deyiləm. O biri dostları tapaq, onlarla əyləşib bala-bala vurarsınız.

Mənimlə razılaşdı, dedi ki, yazıda məni Peleyə bənzətmisən. Təbii ki, burda heç bir şişirtmə yox idi. Pele topla necə davranırdısa, Rafiq də sözlə o cür oynayırdı. Sözün min rəngini, min çalarını və min oymaqlarını tapırdı və onu bal kimi oxucuya təqdim edirdi.

Onun barəsində saatlarla danışaram, yorulmaram. Elə Rafiq özü də saatlarla danışardı, adam yorulmazdı və həmin zaman necə getdiyini hiss etməzdik...

Çox sağ olsun dostları, tələbə yoldaşları və onu sevənlər. Çünki Allahın dərgahına qovuşduğu gün, yəni iyulun 26-da "Xalq qəzeti"nin konfrans zalında bir daha Rafiq Hacıyev onu sevənlər tərəfindən yada salındı və onun barəsində pedaqoji elmlər namizədi, yazıçı-publisist və böyük ziyalı Allahverdi Eminovun qələmə aldığı "Söz rəssamı, poetik duyğular ovsunçusu" kitabının təqdimat mərasimi oldu. Kitabın redaktoru filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı Məhərrəm Qasımlıdır və bu kitab "Elm və Təhsil" nəşriyyatı tərəfindən çox yüksək keyfiyyətlə nəşr edilib.




Elə Rafiqin adına layiq olan kitabdı. Və kitab dörd fəsildən ibarətdir: "Ötən illərin işığı...", "Kriminal aləmin dedektiv-roman təsviri", "Publisistikanın əxlaqi-davranış gücü", "Musiqinin qəlb-duyum möcüzəsi". Təbii ki, bu yazının hər birində həm Allahverdi müəllimin, həm də dostumuz və qardaşımız Rafiq Hacıyevin ürək çırpıntıları və ürək döyüntüləri hiss olunur. Bax, dost Allahverdi müəllim kimi olar. Qısa zaman kəsiyində ürəyinin atəşi ilə bu kitabı ərsəyə çatdırdı və oxucuya təqdim elədi. Belə dostluğa sədaqətinə görə Allahverdi müəllimə bir yağlı "5" düşür. Hər dost bu qədər sədaqətli olmur!

Tədbiri Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov açaraq Rafiq Hacıyevin Azərbaycan mətbuatındakı və jurnalistikasındakı xidmətlərindən, necə bir zəhmətkeş, halal və cəsarətli yazar olmasından ətraflı söhbət açdı. Əflatun Amaşov qeyd etdi ki, Rafiq tək məqalələr, oçerklər, zarisovkalar yazmayıb. O, bir-birindən maraqlı, sənət və incəsənətlə bağlı çox unikal romanlar, povestlər, hekayələr, dedektiv əsərlər qələmə alıb və onların hər biri istedadlı jurnalist Rafiq Hacıyevi Azərbaycan mətbuatı tarixində yaşadıb və yaşadacaq.

Təqdimat mərasimində Rafiq Hacıyevin tələbə yoldaşları, dostları və ziyalılar iştirak edirdilər. Çıxış edənlərdən Vaqif Bəhmənli, Mustafa Çəmənli, Akif Cabbarov, Adil Cəmil, İskəndər Allahverdiyev, Tahir Aydınoğlu, Ruslan Rəfizadə istedadlı yazıçı-jurnalist Rafiq Hacıyevin mətbuatımızdakı əvəzsiz yerindən, onun tutduğu mövqedən və bir ziyalı olaraq həmişə haqqın yanında olmasından danışdı. Tələbə yoldaşlarından biri olan məşhur junalist Vasif Quliyev tədbirdə danışmasa da, sonradan Rafiq haqqında o qədər şirin danışdı ki, bizim hamımızı kövrəltdi. Amma Rafiq elə adam idi ki, heç vaxt dostlarının kövrəlməyini, kədərlənməyini istəməzdi. Həmişə onda bir yumor, bir duz, bir şirinlik vardı. Hətta yaxın dostlarına tez-tez deyirdi ki, şəklini ver saxlayım, sənə baxım, darıxmayım...

O haqq dünyasında olsa da bəlkə də bizim üçün çox darıxır və biz də onun üçün darıxırıq. Onun özü qədər bal kimi şirin iki oğlu var. Və hər ikisi də həmin tədbirdə iştirak eləyirdi. Oğlanlardan birinin adı Rəşad, o birisinin adı isə Qənbərdir. Rəşad mənimlə telefonla danışanda sanki Rafiqin səsini eşidirəm. Onsuz da oğulların səsi çox vaxt ataların səsinə bənzəyir.

Amma Rəşadınkı xalis Rafiqin səsidi ki, onu eşidəndə elə bir Rafiqlə görüşüb gəlirəm. Rəşad tədbirdə çox gözəl bir məqamı xatırlatdı. Dedi ki, bir neçə il bundan əvvəl atamın 65 yaşı Beynəlxalq Mətbuat Klubunda keçiriləndə atam çıxış elədi, gələnlərə öz təşəkkürünü bildirib dedi ki, sizin qadanızı alım, məni yada salmısınız. Mən də atamın sözünü təkrar edərək deyirəm:

**Mətbuat Şurasının sədri Əflatun Amaşov, atamın tələbə yoldaşları, qələm dostları, çox sağ olun ki, onu belə yada saldınız. Minnətdaram və sizin qadanızı alım!**

**Faiq QİSMƏTOĞLU**

# Sevgi və həsrətin mayası...

## Bu, sənlə mənim inancım və güvəncimdi

Həyatda iki məqam var ki, onlar ADAQMı özünün də xəbəri olmadan yaxalayır. Bu məqamlar müxtəlif adlarda, müxtəlif donlarda ola bilər. Amma mahiyyət birdir. Sevgi və kədər insanı gözləmədiyi yerdə yaxalayır həmişə, axtarmadığı yerdə qarşısına çıxır... Bunlar Allahın insan üçün yaratdığı, dünyaya gətirdiyi elə hissdir ki, o südlə gəlib, sümüklə çıxır. Heç bir sevgi, heç bir kədər izsiz ötüşmür. Hətta sevginin də, kədərin də yeri "sağalsa" da, müalicə olunsa da, amma o qaysaqlanmış yara olur. Qəfil bir toxunuş o yaranı sanki yuxudan oyadır. Bax, bu mənada ruhu sözlə yoğrulan, mayası ilhamla, sevgiylə olan şairlərin Allahla təmasda ən çox etdikləri söhbət, ən çox istədikləri, ən çox ifadə etdikləri sevgi, həsrət - yəni kədərdi. Bu mənada yazını yazmamışdan öncə başbaşa qaldığım bir şeirdə mən düşüncələrimin bir daha təsdiqini gördüm, duydum, yaşadım...

Elə şairlər, elə söz adamları var ki, onlar istəklərini dərə-təpə aşaraq, çəmən, orman gəzərək pıçıldayır. Amma:

*Qarşıma çıxmısan bir xəyal kimi*
*Çölümdə, düzümdə, dağ-daşımda sən.*
*Qocalıb gəlmişəm indi qapına,*
*Məni tanımazsan bu yaşımda sən.*

- deyən şair isə mətləbə birbaşa üz tutub, sözü birbaşa deyir. Məramı acı da, şirin də olsa öz ilhamının və istedadının gücü ilə hopdurur adama. Onda uzaqlara getməyə, xəyallara baş vurmağa lüzum qalmır. Çünki sən canlı şahidə çevrilmisən. Görürsən ki, şeirin müəllifi həyatının hər yerində , eləcə də gəncliyində və bugünündə sənin yanında olub, səninlə olub. Baxmayaraq ki, sən onu görməmisən. Bəlkə də görmək istəməmisən. Hər iki məqamda şairin bircə qibləsi, bircə and yeri olub, o da sənsən. Yer öz oxu ətrafında fırlandığı kimi o da sənin ətrafında fırlanıb. Lakin:

*Bu səhər yenə də mənsiz açıldı,*
*Sən öz tellərini say ki, gün keçsin...*
*Sayıb qurtarmağa səbrin çatmasa -*
*Sinənin üstünə yay ki, gün keçsin!..*

Deməli, görmədiyin və yaxud da görmək istəmədiyin aşiq sənin səhərinin açıldığını, bu açılan səhərdə pəncərə önündə dayanıb saçını darağa tapşırdığını bir addımlığında görür, izləyir. Hətta sənin darağın dişindəki tellərinin sayı da onun nəzərindən qaçmır. Sən isə öz aləmindəsən. Sənin aləmin onun and yeridi, ümid yeridi. Və bu həm də o deməkdir ki, sən görməsən də, mən görürəm, özümü sənin pərvanən kimi, sənin kölgən kimi, sənin çiyin daşına çevrilirəm. Çox da ki:

*Sinəmə sağalmaz yara vurmusan,*
*Yoxuşlu yollarda məni yormusan.*
*Məhəbbət ünvanlı yuva qurmusan*
*Ruhumda, canımda, yaddaşımda sən.*

Görürsənmi, vurduğun yaraya, qurduğun yuvaya yollarda məni yormağına, özündən uzaq tutmağına baxmayaraq, sən özün də bilmədən mənimləsən, məndəsən. Həm ruh kimi, həm xəyal kimi, həm də varlıq kimi! Bu, şairin indiki məqamda aşiqin həm etirafıdı, həm də yaşadığını daha doğrusu ona yaşadılanı sərgiləməsidi. Etiraf sənin onda olmağındı, sərgiləmək sənin ona yaşatdıqlarındı. Bu iki nüansı bir bəndə yerləşdirmək, bir fikrin tamlığına çevrilmək isə bir az da geniş anlamda desək, sevgi monoloqu etmək artıq şairin qüdrətidi.

Həmin o gerçəkliyin, reallığın labirintində bir pıçıltı da boy verir. O pıçıltı başqa bir sevginin başqa bir müstəvidə gəzişməsi, özünü əyləndirməsidi, gerçəkdə isə bu "əylənmək" sənin gününü keçirməyin o keçən günün içərisində də mənim sevgimin unutdurulmasına cəhddi. Amma bu baş tutan cəhd deyil. Çünki:

*Bu həsrət səssizcə qurubdu duzaq*
*Yollar baxışları salıbdı uzaq...*
*Biz nədən danışaq, biz harda susaq -*
*Olsun son ümidə pay ki, gün keçsin...*

Hə, görürsənmi, əslində siz də görürsünüz ki, əvvəldə dediyim reallıq, sevinc və kədərin ömrümüzə hopması, bizimlə sona qədər yaşaması, yol getməsi gerçəklikdi. Bu gerçəklik bəzən əlacsızlıq, ümidsizlik də xatırladır, göstərir adama. Düşünürsən ki, bitdi hər şey, qurtardı. Az qala asilik də keçir içindən, seviyə də, həsrətə də, özünə də nifrət edirsən, yamanlayırsan. Bir daha onlara üz tutmayacağına əminlik gətirirsən dilinə!.. Lakin bu əminlik bir xatirənin, bir xəyalın, bir yuxunun təsiri ilə unudulur, silinib gedir. Səbəb də sevginin lap dərində, bütün varlığında hakim olmasıdır. Bütün varlığa hakim olan isə yuxulu mələkdir. Toxunanda oyanır. Və sən nə qədər desən ki:



*Sənə qovuşmağa yoxdur əlacım,*
*Ömür xərcləməkdə boldur xəracım...*
*Adiləm ,ağarıb o qara saçım -*
*Dumanlı sevdasan ağ başımda sən.*

Gördünüzmü, mənim dediyimi şair də təsdiq elədi. Saç ağarsa da, o ağaran saçların özündə də, o döyünən ürəkdə də, o xərclənən ömürdə də ümidsizlik heç nəyə nöqtə qoya bilmir. Başda olan sevda ürəyin ritminə bir növ dəstək verir. O çırpıntılar gözləmədiyin, istəmədiyin anda xatirə dəftərinin bir vərəqini oxudur sənə. Sən oxuduqlarının işığında öz-özünə deyirsən:

***Oğul istəyirəm dərdi yeridə,***
***Yuyub göz yaşında, asa şəridə!..***
***Ruhum uzaqlarda, cismim bəridə -***
***Sayılsın həftələr, ay ki, gün keçsin!..***

Hə, bu da mən, öz məntiqimi ürəyimin təsəllisinə çevrilmişəm. Düşünmüşəm ki, uzaqlarda olan ruhum yaxında olan cismim qədər səninlə bərabərdi. Siz bir vahidə, bir ürəyə, bir ünvana çevrilmisiniz. Bu çevrilmə ötən ayın, keçən günün hər anında sənə dediyi kimi, mənə də deyir, sənə pıçıldadığı kimi, mənə də xatırladır.

Və beləcə özümüzü sözlə, xəyalla, yuxuyla, eləcə də xatirəylə ovudur. Ovuna-ovuna da ömrümüzü ovuduruq. Ovunan ömrümüzün içərisində sevgimizin səsini, nəfəsini həm yaşayırıq, həm də yaşadırıq. Çünki Sən və Allah yer üzündə mənim üçün mütləq hakimsiniz, and yerisiniz.

Həm sevgimə, həm də varlığıma. Barəmdə necə, nə düşünməyinizdən asılı olmayaraq, bilirəm və bildirirəm ki, sən elə mənsən, mən də sən. Gözlərindən oxuyuram, sən bunu lap deməsən...də!

***P.S.** Sizinlə dərdləşəndə fikirlərimin İSTİNAD yeri dostum Adil Cəmilin "SƏN" şeri oldu!..*

**Əbülfət MƏDƏTOĞLU**

# Gördüklərim, eşitdiklərim

## Qırışmal

**Qırışmal! Bir adamdan xoşumuz gəlməyib, onun insani keyfiyyətləri bizi qane etməyəndə ona bu adları veririk. Bu sözün dilimizə hardan və necə gəldiyini, eləcə də, nə kəsb etdiyini mənanı xırdalamaq istərdim.**

Xəyal məni aparıb uzaqlara çıxartdı. Sən demə, bu ifadə dlimizə çoxdan, tacirlərin malı hələ at, dəvə belində daşıyıb, arşınla mal satdıqları dövrdən gəlib. O zamanlar tacirlər parçanı əsasən top şəklində daşıyır, arşınla ölçüb satırdılar. Topda olan mal, parça yaraşıqlı, səliqəli, təmiz olur və əzilmirdi. Ancaq bəzi tacirlərin malları səhlənkarlıqları ucbatından əzilir, qırışırdı. Belə parçaya, mala qırış mal deyərdilər. Yəni qırışmış, qırış -qırış olmuş, əzilmiş mal. Sonra bu sözü adamlara (əvvəlcə mal sahiblərinə, qırış mal satanlara) aid etmişlər. Qırış və mal kimi iki söz birləşməsindən nəticədə qırışmal sözü meydana gəlmişdir. İndi biz birini qəbul olunmuş mənəvi keyfiyyət qaydalarına cavab verməyən xasiyyətli görəndə onun necə adam olduğuna işarə edərək qırışmal deyirik. Qırış mal tək yaxşı olmayan, keyfiyyətsiz adam. Yəni qırışmal...

## Çobanyastığı

Dağda, yamacda qoyun-quzunu örüşə buraxıb, əlini başının altına söykəyərək dirsəklənib sürüyə nəzarət edən çobana yastıq olan çiçək! Əslində yabanı bitkidir. Ancaq çox həzin, poetik duruşu, görkəmi var. Odur ki, adına şeirlər, nəğmələr qoşulub.



Səbəti kiçik və yumrudur. Sarı və boz rəngdə olur, içərisi boşdur. Adətən ləçəkləri seyrək, gülləri qollu-budaqlıdır.

**Çobana yastığı əvəz edən, yastıq olan çiçək! Xalqın dilinin əzbərinə çevrilib, öz dərin mənalı adını yaddaşlara əbədi həkk etdirən çiçəkdir çobanyastığı. Çobanın quru yerdə yumşaq yastığı. Çobanyastığı...**

**Adil Misirli**

# "Uzaqlaşan yaxınlar" haqqında oxucu düşüncələri

**Onun imzası dövrün mətbuatında özünü çoxdan tanıdıb və mən də bu imza sahibini bir oxucu kimi izləyənlərdən olmuşam. Hətta onun yaradıcılığı barəsində yazılar bir çox məqalələr də elə "Ədalət" qəzetində işıq üzü görüb. Bunu ona görə xatırladıram ki, oxucu barəsində söz açdığım kitabın müəllifi ilə tanışlığımın təsadüf olmadığını bilsin. Və burda onu da mütləq əlavə etməliyəm ki, şair Qədiməli Əhmədin doğmaları ilə də mənim öncədən yolum kəsişib, hətta onlardan biri ilə tələbə yoldaşı olmuşam. Nizami Göydərəlinin imzası hələ bizim tələbəlik illərimizdən ədəbi camiəyə bəlli olubdur.**

Yaxın günlərin söhbətidi. Məhz Nizaminin doğum günü ilə bağlı bir araya gələndə Qədiməli Əhməd ilə də üzbəüz görüşdük. Həmin görüşün digər xatirələri arasında "Uzaqlaşan yaxınlar" kitabının özəl yeri var. Mən o kitabı gözdən keçirdikcə təbii ki, tanış şeirlərlə də qarşılaşdım. Həmin şeirlər mətbuatda, xüsusilə elektron mediada önümə çıxmışdı. Ona görə də kitabı köhnə tanış kimi qarşıladım. Və bildim ki, bu kitab müəllifin dediyi kimi "Son dayanacaq deyil...".

*Yenə gəldim, əllərimi istisilə*
*göy üzünün soyuğunu duya-duya.*
*Hələ də*
*xəyallar quş qanadları kimi*
*çırpır divarlarına göyün.*

Doğurdan da, poetik mənzərədir. Göy üzünün soyuğunu göy üzünə yaxın olanlar, ona baş vuranlar daha yaxşı bilirlər. Və o göy üzünün dərinliyində də xəyallar həqiqətən quş qanadına bənzəyir. Səni hər tərəfə, hər istiqamətə yönəldir. Onda ilk ağlıma gələn bu olur ki, səni yerdən göyə qanadlandıran o ilahi istək, o ilahi güc ilham adlanır. Vergili istedad deyilir ona. Və sən də o istedada güvənərək oxucuya deyirsən ki:

***Hər gecə hərfləri***
***düyünlədim uc-uca,***
***sözlərdən körpü tikdim,***
***unudulmadı yollar.***

***Uçulan divarlara***
***sevgidən hörgü hördüm***
***ev qurdum***
***oda tikdim,***
***açıqdı dost üzünə.***

***Bu yağışlı gecəni***
***oxudum dua kimi,***




***əllərimə toxundu***
***bir cüt sevda mələyi...***

Bax elə yaranmış bu bədii mənzərədə oxucu olaraq yaşananları daha tez görmək mümkündü.

Yaşanan isə təbii ki, həmin o istedadın, həmin o ilhamın sözə çevirdiyidi.

Bu məqamda isə Qədiməli Əhməd iç dünyasındakı mənzərəni istedadını ilhamının ixtiyarına veribdi. Ona görə də göy üzünün divarları da bir cüt sevda mələyi də onunla birbaşa təmasdadı.

Şair onlarla danışır, onların dediklərini də qələmin ixtiyarına buraxır. Sonuncu da kağız üzərində sözün şəklini çəkir...

Bax, mənim Qədiməli Əhmədin kitabı ilə ilk təmasda oxuduğum şeirlərdən çıxartdığım ilk nəticə məhz bu oldu. Gördüm ki, şair özünün poetik gücündən yararlanmağı bacarır.

Hətta onu mükəmməl fikirə də çevirməkdə büdrəmir. Ona görə də oxucuya deyir ki:

***Sözlə vurmayın heç kəsi,***
***söz ən ağır silahdı.***
***Söz hər şeydən irəli,***
***ondan öncə Allahdı...***

Təbii ki, şairlər, ümumiyyətlə söz adamları daha çox öz duyğularını misralayır, fikrə çevirir və onu oxucu ixtiyarına verir. Bu məqamda səmimi olmaq, yaşananı yazmaq, oxucunun diqqətini çəkmək fürsətini müəllifin qarşısına çıxarır.

Bunu bacaran müəllif oxucusunu da öz komandasına, öz çevrəsinə çevirmiş olur. Mən Qədiməli Əhmədin şeirlərini oxuduqca hiss etdim ki, şairin bu məsələdə qorxacaq yeri yoxdur. Yəni o öz oxucusunu artıq tapıbdı. Ona görə də o qətiyyətlə deyir:

***Balaca şam kimi yanar ürəyin,***
***işığa yığışar xatirələrin.***
***Kölgətək izinə düşər qaranlıq,***
***baxarsan,***
***uzaqlar da görünməz,***
***yaxınlar da sənin olmaz...***
***Yollar da qayıtmaz...***

**Mən də bu yığcam şeirin təsir dairəsində kitabla bağlı ilk təəssüratımın xoş ovqatını yaşayıram. Baxmayaraq ki, üstümə düşən sözün işığı özü-özlüyündə ürəyimi də özünə bükür. Deməli, fikirlər öz səmimiyyəti ilə məni də oxucusuna çevirir. Elə bir oxucu olaraq da Qədiməli Əhmədin 65 yaşının hədiyyəsi olan bu kitaba "Xoş gəldin" deyirəm. Kitabla bağlı oxucularıma arzum budur ki, təqdim etdiyim imzanı arayıb-axtarmağa dəyər. Qədiməli Əhmədə isə uğurlar diləyirəm.**

**Əbülfət MƏDƏTOĞLU**

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 29 (2303) 30 iyul 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# QAZMA MAĞARASI

**Azərbaycanın uzaq keçmişini, bir coğrafi məkan olaraq tarixini öz yaddaşına köçürən və onun qərinələrdən keçirib bu günümüzə gətirən abidələr arasında Naxçıvan Muxtar Respublikasının ərazisindəki abidələrin xüsusi yeri və çəkisi var. Biz bu bölgəyə, yəni Muxtar Resublikanın ərazilərinə diqqət yetirəndə təbii ki, qarşılaşdığımız bu qeyri-adiliklərin önündə bir anlıq susuruq. Bu suqunluğun da səbəbi təkcə tarixin yaddaşı yox, həm də onun əzəməti, onun nüfuzudu. Necə deyərlər, "hər başın altında bir tarix yatır" deyən böyük şairimizin o müdrik ifadəsi məhz bu coğrafiyadakı abidələrlə tanış olanda bir daha heyrətləndirir.**

Təsadüfi deyil ki, Kiçik Qafqaz ərazisindəki mağaralarla bağlı aparılan araşdırmalar, təşkil olunan ekspedisiyalar sonda belə bir yekdil qərar ortaya qoyub. Həmin qərara görə, Muxtar Respublikanın ərazisi təkcə Azərbaycan coğrafiyasının deyil, bütövlükdə Kiçik Qafqazın ən çox mağaralar yayılan ərazilərindən biridir. Karst mağaralar silsiləsi olan ərazilər içərisində Naxçıvanın ayırca yeri var.

Bir gerçəklik də var ki, republikamızın digər regionlarından fərqlənən Naxçıvan relyefinin özü də buradakı qeyri-adi özəllikləri yaddaşında saxlamaq baxımından, həm də rəngarənglik baxımından daha çox diqqət çəkir.

Məhz bu səbəbdəndir ki, tarixçilər, arxeoloqlar da Muxtar Respublikadakı mağaraya zaman-zaman böyük diqqət göstərmişdilər və bu gün də həmin mağaraların həm qorunması, həm də öyrənilməsi istiqamətində davamlı şəkildə elmi işlər aparılır.

Bu elmi işlərin, bu israrlı axtarışların nəticəsidir ki, Muxtar Respublika ərazisində bu günədək qeydə alınmış Karst mağaralarının həm müasir təbii coğrafiyamızın öryənilməsində, həm də bütövlükdə bütün tariximizin ayrı-ayrı məqamlarını - həm iqlimini, həm təbiətini, həm bitki, həm heyvan ailəmini, bir sözlə, ətraf mühiti öyrənmək imkanı əldə etmiş oluruq. Bax, elə arxeoloq tarixçilərin gəldiyi nəticə də bundan ibarətdir ki, "ərazidə qeydə alınan Karst mağaraları təkcə təbii coğrafi şəraitin deyil, həm də vaxitlə burada mövcud olmuş əlverişli iqlim şəraitinin təsiri nəticəsində formalaşmışdı.



Elə məhz buna görədir ki, insanlar qədim daş dövründən başlayaraq, bu ərazidə məskunlaşmış və öz abidələrini yaratmışdılar.

Barəsində söhbət açmaq istədiyimiz Qazma mağarası da Muxtar Respublikasın ərazində yerləşir.

Bu mağara ilə yanaşı, digərləri də, yəni Muxtar Respublika ərazisində mövcud olan Kilid və Daşqala mağaraları da barəsində bəhs etdiyimiz Qazma mağarası ilə eyni dövrün, yəni daş dövrün abidələrinin nümunələridir.

Birmənalı şəkildə demək olar ki, bu mağaralar daş dövrünün canlı şahidi olublar. Və onların şahidliyi də Muxtar Respublikanın daş yaddaşına hopmuş, nəticədə də tariximizin maddi və mənəvi dəyərlərini, bütövlükdə mədəniyyətimizi öyrənməkdə mühüm əhəmiyyət kəsb etmişdir.

Birmənalı şəkildə vurğulamaq yerinə düşər ki, bu abidələrin öyrənilməsi həm tariximizin, həm də onun ayrı-ayrı parçaları olan ədəbiyyatımızın, mədəniyyətimizin, məişətimizin, eləcə də digər dəyərlərimizin öyrənilməsində zaman-zaman öz sözünü deyib, öz varlığıyla bizim də milli varlığımızı, milli kimliyimizi ortaya qoymaqda yardımçımız olubdu.

Xatırlamaq yerinə düşər ki, barəsində söhbət açdığımız hər üç mədəniyyət nümunəsi bizim yazıya qədərki, həm də yazının araya-ərsəyə gəlməsindən sonrakı tariximizin öyrənilməsində də birmənalı şəkildə son dərəcə qiymətli bir mənbədir. Zənnimcə, bu, əvəzi olmayan bir sərvətdir. Elə Muxtar Respublikasındakı Qazma mağarası həmin dediyimiz əvəzsiz abidələrin biridir.

Biz tarixə ekskursiya çərçivəsində nəzər yetirsək, onda məlum olar ki, coğrafiyamızda kifayət qədər qədim mədəniyyət nümunələri mövcuddur.

Həmin mövcud abidələr içərisində eramızdan əvvəlki və eramızın daxilindəki zaman kəsiyinin fərqli abidələri həmişə araşdırma mövzusu olub.

Bax, bu mənada xatırlatmaq yerinə düşər ki, Qazma mağarası tarixçilərimizin sübut etdiyi kimi, Mustiye mədəniyyəti dövrünə, yəni eramızın 100-90 min il bundan əvvələ aid olan bir arxeoloji abidədir.

Özü də bu abidə təkcə bizim tariximiz üçün yox, bizim arxeologiyamız üçün yox, bütünlükdə dünya tarixi və arxeologiyası üçün özünəməxsus dəyərə malikdir. Birmənalı şəkildə bu abidə insanın izi olan, insanın məskən saldığı bir ünvandır. Həm də dünya arxeologiyası üçün Qazma mağarasının əhəmiyyəti onunla diqqətə təqdim olunur ki, bu mağaranı dünya alimləri də tanıyır və qəbul edirlər.

Hətta 2002-ci ildə bu mağara ilə bağlı fikirlərini etiraf edən avropalı alim Henri dö Lümley vurğulamışdı ki, bu mağara arxeologiya elmi üçün çox böyük əhəmiyyət kəsb edir. Həmin fikirlərini Bakıda keçirilən beynəlxalq proqram çərçivəsində dilə gətirən professor Azərbaycanın qədim daş dövrü abidələrindən olan Azıx, Tağlar, Qazma və başqaları ilə bağlı müzakirələr zamanı bu mağaralarda tapılmış maddi-mədəniyyət nümunələrinin qalıqlarını dünya arxeologiya, polenatologiya elmləri üçün müstəsna hadisə kimi qeydə almışdılar. Beynəlxalq tədbirdə dünyanın müxtəlif ölkələrindən gəlmiş 22 nəfər alim bu fikirlə həmrəy olmuşdu. Bu da onu göstərir ki, Azərbaycanın qədim insan üçün bir məkan olması danılmaz gerçəklikdir. O ki, qaldı mağaranın özünə...



Bəli, bu gün Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Hənənəm kəndində 3 km-lik məsafədə, kəndin şimal şərqində, Araz çayından 17 km aralıda, Arpa çaydan 14,5 km məsafədə, dəniz səviyyəsindən isə 1500 metr yüksəklikdə yerləşən Qazma mağarası bu gün təkcə Naxçıvanda, Azərbaycanda deyil, bütövlükdə arxeologiya tarix elmi ilə məşğul olan qədim insan izi axtaran hər bir elm ocağında tanınır.

Maraqlıdır ki, bu qədim ünvanı hələ Azərbaycanın çox dəyərli tarixçi arxeoloq alimləri M.Hüseynov və Ə.Cəfərov 1983-cü ildə Naxçıvan ərazisində arxeologi ekspertiza zamanı müəyyən ediblər. Onların Ordubad və Şərur rayonunda apardıqları kəşfiyyat işləri zamanı poleolit dövrünə aid olan Qazma mağarası aşkarlanıb. Məhz bu iki arxeoloqun aşkar etdiyi Qazma mağarasının girişdə eni 6 metr, hündürlüyü 2 metr olan dəhliz şəklində uzanır. Həlizlə hərəkət edərək 12 metrdən sonra mağaranın içərisində iki qol yaranır. Mağaranın qurtaracağı ilə girişi arasındakı hündürlük fərqi 10 metrdir. Burada çoxlu sayda arxeoloji materiallar tapılıb. 17 mindən artıq heyvan sümüyü, 24 növ fauna qalığı, 874 ədəd daş məmulat bu mağarada aşkarlanıbdı.

Bu gün Naxçıvandakı Qazma mağarası ilə bağlı fikirlərini mətbuata çatdıran tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilovun söylədiklərinə görə, "abidədə tapılmış daş məmulatlar arasında istehsal tullantılarının tapılması göstərir ki, mağara sakinləri burada müxtəlif alətlər də hazırlayıblar. Həmin alətlər Azıx və Tağlar mağaralarından tapılanlarla bənzərlik təşkil edir".

**Bəli, tariximizin bir sirli səhfəsi də Qazma mağarasıdı. Onu hər gün öyrənməklə tariximizin dərinliklərinə daha çox baş vururuq. Deməli, özümüzü daha çox tanıyırıq.**

**Əbülfət MƏDƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# EMİN PİRİNİN "EŞQ AYƏLƏRİ" NDƏKİ "BİG BANG"

**Orta məktəb illərində sinfimizə yoxlama gələndə müəllim iki, üç nəfər əlaçı şagirdi lövhəyə çıxarardı, dərs danışmağa. Vətən müharibəsi iştirakçısı, müəllim, jurnalist, şair Emin Piri də Azərbaycan jurnalistikasının, tarixinin və poeziyasının gələcək nəsillərə qürarla göstərə biləcəyimiz həmin o "əlaçı şagirddir".**

Emin Pirinin qələmini çox sevirəm. Şair qələmi ilə jurnalist qələminin hər birində ayrıca peşəkar dəsti-xətti var. Bu yaxınlarda şairin müsahibələrindən birində belə bir sual-cavab oxudum və sonra həmin suala xeyli güldüm :

"-Tənqidçilər deyirlər ki, siz sevə bilmədiyiniz üçün sevgi şeirləri sizdə o qədər də yaxşı alınmır. Yəni, özünə vurğunluq sevməyinizə mane olur. Bununla da razısınızmı?..

- Bir qədər haqlıdırlar. Sevəndə dəli kimi sevirəm, yəni, şeir yazmaq havasında olmuram. Məcnun durub şeir yazası deyil ki. Universitetdə tələbə yoldaşlarım mənə "Məcnun Emin" deyirdi. Sevgidə orta hədd yoxdur məndə. Amma son vaxtlar sevgi şeirlərim nəsə uğurlu alınır. Ola bilər, bu, lovğalıq çıxmasın, peşəkarlıqla əlaqədardır."

Mənə gülməli gələn o oldu ki, tənqidçilər bir şairin sevib-sevmədiyi qənaətinə necə gələ biliblər. Axı yaradıcılıq subyektiv yanaşmadan çox obyektiv yanaşma tələb edir. Və növbəti cümlədə şair eqosuna görə məzəmmət olunur. Axı istənilən yaradıcı adamın içində eqo var. Bu tənqidçilərin fikrindən çox keçmiş sevgililərin eyhamına oxşayır. Ona görə bu suala çox gülmüşdüm. Və sonra Emin Pirinin sevgi şeirlərini yenidən oxudum, o sualın cavabını misralarda tapmağa çalışdım, çünki şairin suala verdiyi cavabla da razılaşmamışdım.

Və nəhayət anladım ki, sevgi şeirlərinin "yaxşı alınmamasının" səbəbi o şeirləri oxuyan adamların yaxşı anlaması üçün kifayət qədər bilikli və məlumatlı olub - olmaması məsələsi imiş. Uzun sözün qısası, bu qənaətə gəldim ki, Emin Pirinin sevgi şeirlərini hər kəsin anlaması üçün xüsusi izahlı lüğət olmalıdır : "Emin Pirinin sevgi şeirlərindəki sözlərin və bəzi terminlərin izahlı lüğəti".

Şeirlərdə "Möbius lenti, Big Bang, maqnit qasırğası, Adəmin qabırğası, İsa Məsih, Kəbə, Vatikan, kilsə zəngi, Venesiya, Tanrı Kukulkan, Marian çökəkliyi, Poseydon, Axilles dabanı, H2O, 13cü gecə və s. bu kimi bir xeyli sözlərin hər kəs tərəfindən asanlıqla anlaşılmadığını etiraf etməliyik. Yəni o şeirləri oxuduqda anlayıb zövq almağımız üçün Qurandan, İncildən, Tanrıçılıqdan, kimyadan, psixologiyadan, coğrafiyadan, tarixdən məlumatlı olmalıyıq.

Şairin sevgi şeirləri Bermud üçbucağı kimidir, yəni Vətənin, ananın və sevilən qadının vəhdətidir. Məsələn, aşağıdakı nümunədə qadına olan sevgi Vətən sevgisinin timsalında görün necə də möhtəşəm səslənir:

***Nə fərqi var, Bakı,***
***ya da ki Ərdəbil,***
***indi sinəm bütöv Azərbaycandı,***
***rahat qoy başını***
***Vətəninə...***

Növbəti nümunədə isə bir xeyli psixoloji məqamlar var, insanın duyğu və düşüncələrinin onun cismində necə təzahür etdiyini aydın və zərif şəkildə görürük, sevdiyimiz adamın susqunluğunun hər şeydən ağır olduğunu, üzərimizdə gəzdirdiyimiz hədiyyə - əşyaların bəzən bizə necə acı verdiyini, xatirələrin boğazımızda necə yanğılı bir qəhərə çevrilib udqunmağa belə çətinlik yaratdığını dilə gətirir.

***Dünyanın ən qulaqbatırıcı səsidir***
***sevdiyin adamın sükutu.***
***Barmağındakı üzük də soğan kimi***
***dil açar gözlərində***

xatirələr boğaza dirənmiş ülgücə çevrilər.

Mənə görə insan psixologiyasını çox gözəl izah edən, dolu, dəyərli misralardan bir neçəsi də "Venesiyaya məktub" şeirindən indi çəkəcəyim nümunədədir. Bu misralar insan həyatının çox böyük bir kəsimini əhatə edir, ilk baxışdan çox sadə görünən kəlmələr bir insan ömrünün aynasıdır. T. Drayzer "Dahi" əsərində insan ömrünü şərti olaraq üç hissəyə bölür, gənclik-təcrübə, orta yaş mübarizə, qocalıq - peşmanlıqdır deyir, bu misraları oxuyanda "Dahi əsərini xatırlamışdım və düşünmüşdüm ki, qocalıq peşmanlıqdan çox yorğunluqdur, burda söhbət həm də mənəvi qocalıqdan, kamillikdən gedir:

***Çox yorulmuşam, şokolad qız...***
***Bu həyatdan nə doydum, nə də bezdim.***
***Yoruldum,***
***yoruldum, şokolad qız.***

Şairin müharibə şeirlərində düşmənin konkret olaraq adlandırılmamağı onu bəşəri, dünyəvi etdiyi kimi, sevgi şeirlərində də konkret olaraq bir dinə yox, bir neçə dinlərə və inanclara istinad etdiyi üçün sevgi şeirləri də tolerantlıq və dünyəviliklə səciyyələnir. Şairə görə sevgidə din anlayışı yoxdur, humanizm, insan - qadın və kişi anlayışı var. Sevdiyi qızın gözlərində Allahın əksini görən şair digər bir şeirində belə deyir:




***Üzümü hara tutum dua edəndə***
***Məkkəyə, Vatikana,***
***yoxsa Venesiyaya?***
***Bədənimdən ayrı düşən ayaqlarım,***
***"Axilles dabanı"msan.***
***Kişilər qadınsız yeriyə bilməz bu həyatı.***

Etiraf etməliyəm ki, Emin Pirinin sevgi şeirlərini oxuduqca misraları yarıda kəsib bilmədiyim sözlərin izahlarına baxıb onu beynimdə öz düşüncələrimlə uzlaşdırıb yenidən və yenidən oxuduqdan sonra zövq ala bilmişdim. Bu nümunəyə nəzər salaq :

***Heç gördünmü***
***eşqə qalxmışam desin kimsə?***
***Hamı düşdü,***
***düşdü.***

Şairin bu misraları oxuduğum andan beynimin bir köşəsində qalıb və hər dəfə xatırladıqca məni çox düşündürüb. Özözümə demişəm ki, doğrudan da adam eşqə düşür, daha sonra bəzən bu eşqin ucbatından başqalarının gözündən düşür, bəzən də elə özü öz gözündən düşür. Bu yaxınlarda Qurani - Kərimin 36-cı ayəsi haqqında bir məlumata rast gəldim, həmin ayənin orijinal mətnində "ihbitu" kəlməsindən istifadə olunur ki, bəzi dilçi alimlər onu bir yerdən başqa bir yerə keçmək kimi mənalandırsalar da, məqam sahibinin yüksək məqamdan nisbətən aşağı məqama düşmə mənasını verdiyini də vurğulamışlar. Və biz belə bir mənanı nəzərə alaraq Adəm və Həvva üçün istifadə olunan "ihbitu" kəlməsini məkan tənəzzülü kimi deyil, mənəvi tənəzzül kimi mənalandırmalıyıq. Eyni kəlmə Bəqərə surəsinin 61-ci ayəsində İsrail övladlarına cəza olaraq şəhərə getmə (enmə) əmri verilir. Deməli "ihbitu" kəlməsi bir məkandan başqa bir məkana keçmək mənasını verdiyi kimi məqam və rütbə baxımından daha aşağı dərəcəyə enmə mənasını da verə bilir. Şairin "Venesiyaya məktub" şeirindən olan bu misralar da "Quran" ın 36-cı ayəsi ilə səsləşir.

***13 cü gecə etüdləri***
***Sənin Adəmin mənəm,***
***inanmırsan, bax***
***qabırğamdakı yerinə***
***Daha sənlə yaşamaq yox,***
***səni yaşamaq istəyirəm***

Bu şeirin adındakı rəqəm mənə çox maraqlı gəlmişdi, niyə məhz 13 rəqəmi?

Daha sonra araşdırmama istinad edərək yəqinləşdirdim ki, Ramazan ayının 13-cü, 14-cü və 15-ci günləri əyyamul-beyz, yəni bəyaz günlər adlanırmış. Ayın bədrlənməsi səbəbindən həmin gecələr daha işıqlı olurmuş. Hədis və rəvayətlərdə bu gecələri ibadətdə keçirməyin əhəmiyyəti xüsusi vurğulanır. Sevdiyin insanı yaşamağın sevgi ibadəti olduğunu, Adəmin qabırğası misalı onun bir parçası olduğunu dilə gətirən şair bu misralarda isə sevgiyə qarşı olan maneələrdən şikayətlənir, bəlkə də bununla gerçək sevgilərin hüsranla sonlandığını vurğulamış olur:

***Düşmən ölkələr arasındakı***
***səngərə çevrilər***
***aramızdakı adamlar.***
***Atlantik və Aralıq kimi***
***qarışmağa qoymazlar.***

Diqqətimi çəkən mövzulardan biri də insanın həyatında doğulub, boya - başa çatdığı, tərbiyə aldığı ailənin onun sevgi ilə bağlı düşüncələrində böyük iz qoyduğunu açıq - aşkar vurğulayan misralarda öz əksini tapıb. Şair demək istəyir ki, ata-anasının savaşına şahid olan qızcığazın ruhu, qəlbi yaralanır və təəssüf ki, onun sevgisi öz təzahürünü həyat verməklə yox, can qurtardığını zənn edərək can almaqla təzahür edir, əslində isə sevgi təkcə qəlbində sevdiyini hiss etməklə bitmir, sevgi həm də yaşatmaqdır, həyatı birlikdə yaşamaqdır :

***Xatırladınmı,***
***ata-anası savaşarkən***
***oyuncağının gözlərini tutan***
***qızcığaz***
***bu gün "xilaskar" kimi***
***"Can qurtarırdı" abort masasında.***
***Burda anlayırsan ki,***
***Sevmək - solunda qəlbin döyüntüsü yox,***
***hər sabah oyandığında***
***sağında***
***bir ürəyin yatdığını görməkdir.***

***

***Mən "Big Bang" dən doğulmuş***
***işığına ac qalaktika,***
***qollarım planet***
***sən Günəşə dolanır.***
***Sən olmayanda***
***əllərimi unuduram,***
***ayaqlarım məndən xəbərsiz***
***həyətinizdə ayaq izlərini sığallayır.***
***Adam ürəkdən yox,***
***çiyinlərdən və dizlərdən sevir***
***bütün varlığınla başını qoymağa***

**Şairin "Eşq ayələri" şeirindən olan bu misralarda "Big Bang" dedikdə Böyük partlayış nəzəriyyəsi - kainatın başlağıcı ilə əlaqəli ən çox qəbul edilən açıqlama nəzərdə tutulur. Bu nəzəriyyə yalnız kainatın mənşəyi ilə əlaqəli deyil, kainatın başlanğıcından sonra meydana gələn zaman anlayışı ilə yanaşı kainatın necə böyüdüyünü, necə genişləndiyini və necə göründüyünü də izah edir. Və maraqlı bir məqamın da qalaktikaların qırmızıya doğru sürüşməsi ilə kainatın genişləndiyini göstərməsidir. (Bildiyimiz kimi psixologiyada da qırmızı rəng - cazibənin, sevginin, uğurun rəmzidir.) Keçmişə qayıtsaq, görərik ki, hər şey kiçik bir nöqtədən çıxdı. Bu kiçik nöqtədən gələn partlayışa Big Bang ( Böyük Partlayış) deyildi. Əslində elmi nöqteyi nəzərdən Big Bang nəzəriyyəsi ilə insanın yaranışında, doğuluşunda bir oxşarlıq var və şairin bu istinadı əbəs yerə deyil. Və mən bu şeirləri oxuyarkən mənalarını anlamaq üçün o qədər çox şey öyrəndim ki, bunu Brain storm (beyin fırtınası) da adlandıra bilərik.**

**Turan Novruzlu**

## Tiq-Tıq xanımlar

**Uşaqlıqdan izlədiyimiz bir cizgi filmi var: "Tıq-Tiq xanım".**

Həmişə bu cizgi filmi alt qatında mənə iyrənc görünüb. Tıq-tıq xanım mədəni desək, tərbiyəsizin biridir. Belə bir cizgi filmini uşaqların ümumiyyətlə izləməsini istəmərəm.

İndi belə qadınlar da var, film isə son epizoda qədər mahiyyətcə bunu tərənnüm edir. Sonu çıxmaqla...Tıq-tıq xanım onların




prototipidir. Müxtəlif estetik, makyaj dəyişikıliyi ilə "dost" axtarır. Dost demək olarsa. Çünki qarşısına çıxıb dost olmaq istəyənlər, ya özünün seçmək istədikləri ancaq erkək cinsinə mənsub olur. Heç kəsi bəyənməyib, axırda siçanla dost olur (ərə gedir). Siçan da ki, çurbandır. Düzdü, dolandırır, amma necə? Onun-bunun evindən, bəy məclislərindən oğurluq etməklə. Əsas odu ki, pulu hardan gətirir, gətirsin, Tıq-tıq xanımları saxlaya bilsin. Gəlirin hardan olması Tıq-tıq xanımlara önəmli deyil.

Bu həmin qadınlardır ki, hamıya deyirlər, get tayını tap, axırda onları "saxlayan" birini axtardığı məlum olur. Ailə kimi deyil, məhz bu cür.

Siçanı pul qazanmaqda olanda çətinliyə düşən kimi özünə dərhal yeni "dost", mənbə axtarır.

**Filmin bircə son qayəsi yaxşı mesajdır ki, Tıq-Tıq xanımlar axırda tənha, kimsəsiz axrıncı yola düşür...**

**Emin Piri**

## *9 il komada qalan qadın oyandı*

**Macarıstanlı Katalin Varqa adlı qadın 9 il komada qaldıqdan sonra oyanıb.**

Bu barədə "Deyli Nyus" məlumat yayıb.

"Xoşxassəli beyin şişinin çıxarılması əməliyyatından sonra Varqa bakterial infeksiyaya yoluxub.

Nəticədə o, tamamilə iflic olub və komaya düşüb. 9 il sonra komadan ayılan Varqanın vəziyyəti yaxşılaşıb və fizioterapiya sayəsində yeriməyə başlayıb", - məlumatda bildirilir.

# GƏNCƏ TİCARƏT NƏQLİYYAT ASC-NİN MÜHASİBAT BALANSI

31 dekabr 2021ci il tarixinə. (manatla)

| Bölümün. Maddənin N-si | | Hesabın N-si | 2020ci il | 2021 cu il |
|---|---|---|---|---|
| | AKTİVLƏR | | | |
| 11. | Torpaq. Tikili və avadanlıqlar | 111 çıxılsın 112 üstəqəl 113 | 35589.0 | 34549.0 |
| | CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 35589.0 | 34549.0 |
| 2. | Qısamüddətli aktivlər | | | |
| 20. | Ehtiyatlar | 20 X çıxılsın 208 | 768.0 | 518.0 |
| 21 | Qisamüddətli debitor borcları ( Vaxtı keçmiş 1994 -95 il.) | 21X çıxılsın 218 | 11877.0 | 11877.0 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 23 X çıxılsın 235 | 123.0 | 121.0 |
| 24 | Sair qısamüddətli aktivlər | 24. X | 363.0 | 443.0 |
| | | | | |
| | CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 131161.0 | 12959.0 |
| | CƏMİ AKTİVLƏR | | 48720.0 | 47508.0 |
| | KAPİTAL VƏ ÖDƏLİKLƏR | | | |
| 30 | Ödənilmiş nominal (Nizamnamə) kapital | 301 çıxılsın 302 | 44216.0 | 44216.0 |
| 33. | Kapital ehtiyatları | 33X | 69614.0 | 69614.0 |
| 34. | Bölüşdürülməmiş mənfəət (Ödənilməmiş zərər) | 34 X çıxılsın 344 | -71262.0 | -71262.0 |
| 35. | Xalis mənffətdən (başqa məqsədlər üçün ayırmalar) | 344/1 | +3553.0 | +717.0 |
| | CƏMİ KAPİTAL | | 46121.0 | 43285.0 |
| 5 | Qısamüddətli öhdəliklər (Dividentlə hesablaşma) | | 366.0 | 478.0 |
| 52 | Verqi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52 X | 2233.0 | 2796.0 |
| 53 | Qısamüddətli kreditor borcları (Ə.h.qı üzrə işçilərlə hesablaşma) | 53 X | | 949.0 |
| | CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 2599.0 | 4224.0 |
| | CƏMİ ÖHDƏLİKLƏR | | 2599.0 | 4224.0 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 48720.0 | 47508.0 |

**Mənfəət və zərər haqqında hesabat (xərclərin xüsusiyyəti üzrə təsnifləşdirilməsi)**

**31 dekabr 2021 ci il tarixinə**

| bölümin maddənin N si | | Hesabın N-si | 2020 cu il | 2021 cu il |
|---|---|---|---|---|
| 61 | Sair əməliyyət ğəliri | 611 | 23269.0 | 25511.0 |
| | Xərclərin Cəmi : O cümlədən | | 21987.0 | 24756.0 |
| | İşçi heyəti üzrə xərçlər | 533 nömrəli hesabın krediti üzrə dövriyyə | 10181.0 | 11518.0 |
| | Amortizasiya xərçləri | 102.,112,122, 132, 142, nömrəli hesabl. Krediti Üzrə dövriyyə | 1741.0 | 1652.0 |
| 73 | Sair əməliyyat xərcləri | 731 | 10065.0 | 11586.0 |
| | Əməliyyat mənfəəti (zərəri) | | +1282.0 | +755.0 |
| | Mənfəət üzrə azadolmalar və Qüzəştlər 75 faiz | | 961.0 | 566.0 |
| 90 | Mənfəət verqisi | 901 üstəqəl 902 | +64.0 | +38.0 |
| 80 | Hesabat dövründə xalis mənfəətr (zərər) | 801=Hesablama | +1218.0 | +717.0 |

**AUDİTOR RƏYİ**

**2021 ci il üçün illik balansın və maliyyə iqtisadi göstəricilərin düzgünlüyünə Azərbaycan Respublikası Auditor Palatasının üzvü sərbəst auditor 21.12 2021 il tarixli icazə N SA /072 Əhmədov Hafiz Məhəmməd oğlu ünvan Gəncə H.Əliyev meydanı tərəfindən rəy verilmişdir.**

# VƏTƏN ƏTİRLİ "VƏTƏN KİTABI"

**Bütün çətinliklərinə baxmayaraq Vətən üçün, torpaq üçün fədakarlıq edən, bu gün də canından, qanından keçməyə hazır qocaman döyüşçülərdən olan Hacı Əkbər Rüstəmovun adı Vətən yaşadıqca, torpaq durduqca dillərdən düşməyəcək. Çünki bütün ömrünü: gəncliyini də, qocalığını da doğulub boya-başa çatdığı Vətəninə - Ağdama həsr edən Hacı Əkbər Rüstəmov ikiəlli döyüşüb düşmənlə. Unudulası deyil. Bir əlində silah olub, bir əlində qələm. Döyüşəndə döyüşüb, döyüşməyəndə qələmi əlinə alıb, gücünü sözə verib silahla anlada bilmədiklərini sözlə anlatmağa çalışıb. Soyuq səngərlərdə keçən ağır günlərini, Vətən itkisindən doğan kədərini, qəlbinə sığmayan Vətən həsrətini və yanğısını kağızlara köçürüb, sətirlərə düzüb anbaan, sözbəsöz. Yanan ürəyinin alovunu bu cür söndürməyə, ovutmağa çalışıb. Qələbə qazanmaq əzmində ola-ola torpaqları itirməyi, yurdsuz qalmağı özünə sığışdırmayıb. Barışa bilməyib didərginlik köçkünlük həyatı ilə.**

Ağdamın sayılıb seçilən oğullarından olan Hacı Əkbər Rüstəmov Vətənindən - Ağdamdan uzaqda olsa da, ruhən qopmayıb o torpaqlardan. Vətənsiz yaşadığı müddətdə bir həmdəmi, bir sirdaşı olub həmişə. Vətən. Üzünü ona tutub, qəlbindəkiləri ona anladarkən, duyacağına əmin olub.

Hacı Əkbər Rüstəmov müəllifi olduğu "Vətən kitabı"nda da Vətən nisgilini, Vətən sevdasını özünəməxsus bir dillə, ağrılı-acılı ürəklə ifadə etmişdir. Başqa sözlə desək, Vətən həsrətindən, Vətən sevgisindən yoğrulub bu kitab. Sizə adi görünməsin. Öz sağlamlığını, rahatlığını, övladını Vətənə qurban vermiş bir döyüşçünün həyat manifestidir bu kitab. Hər səhifəsində qocaman döyüşçünün qəlb çırpıntıları, həyəcanı, sevgisi bizi bir daha o torpaqlara, o illərə aparıb çıxarır. Müəllifin dili ilə o gözəllikləri - Vətənli günləri bir daha duymağa vadar edir.

Yeri gəlmişkən, kitabın adı da təsadüfi seçilməyib. Barıt qoxusu, müharibə ovqatı duyulan gündəliyi vərəqlədikcə bunun bir daha şahidi oluruq. Hər səhifəsindən, hər sətrindən, hətta hər sözündən, hər hərfindən belə Vətən qoxusu gəlir. Xoş bir Vətən ətri vurur bizi. Oxuduqca da Vətənin qoxusu ruhumuza hopur, qulaqlarımızda cingildəyir Vətənin səsi. Sanki bizə: "Gəl, gəl", - deyir.

Səhifələr çevrildikcə bu qədər dərdi, ağrını həm cismən, həm də mənən yaralanmış bir döyüşçü qəlbinin necə daşıya bildiyinə təəccüb edirsən. Əvvəldən sona qədər torpaq, Vətən, yurd, elim, obam deyib inləyir müəllif. Bir qəlbin daşıya biləcəyi yük deyil bu. Bəlkə, elə ona görə də sətirlərə daşınıb bu nisgil, nalə, bu üzüntü. Buz kimi səngərlərdə keçən ömür, ürək ağrısı ilə qələmə alınmış hislər, duyğular... Nələr yoxdur bu gündəlikdə.

İrəlilədikcə Vətən üçün ölümə hazır olan döyüşçü ilə bir də ata kimi, el ağsaqqalı kimi qarşılaşırıq. Övladlarını Vətən yolunda qurban verən ata. Üzünü hələ gələcəyindən, şəhidliyindən xəbərsiz oğlu Sənanın timsalında Vətən oğullarına tutur, bu yolla hər atanın cəsarət edib ürəyinə belə gətirə bilmədiyi arzuları dilinə gətirir:

"Yadda saxla ki, insan Vətənsiz qalanda gözündən ağlamasa da, daim içindən ağlayır. Vətən oğlu olmağa çalış, mənim oğlum. Vuruş, vuruş ki, düşmən mənim gücümü - Vətənin qeyrətini görsün. Vuruş ki, Millət sənə oğul desin... Şəhid olsan, bütün Vətənin oğlu olacaqsan, qazi olsan - təkcə mənim".

Vətənin varlığı ilə nəfəs alan bir döyüşçü atadan ancaq bu sözləri eşidə bilərdi övladları.

Vətən yolunda övlad itkisi yaşasa da, dediyindən, yolundan dönmür, digər iki övladı və övlad dediyi tələbələri, el oğulları ilə yoluna davam edir. Onları da, özünü də qurban verməyə hazırdır. "Təki Vətən yaşasın!"

Yurddaşımızın qəlbindəki sonsuz Vətən məhəbbəti bizi heyran edir. Ancaq kitabda toplanan və müxtəlif illərə aid olan qeydlərdən, məlumatlardan, müəllifin duyğularını ifadə edən sətirlərdən, onun haqqında söylənən fikirlərdən aldığımız təəssürat bununla bitmir.

Kəndlərimizin, şəhərlərimizin təcavüzə məruz qalması, əhalimizin pərən-pərən düşərək didərginə, köçkünə çevrilməsi narahatlığı daha da artırır. Təkcə Ağdam yox, elə Xocalı, Şuşa və digər ərazilərimizin düşmən əlinə keçməsi qəzəbləndirir müəllifi. Gah özünü qınayır, gah dostlarını, gah zəmanəni, gah da Azərbaycan həqiqətlərinə göz yuman bütün dünyanı.

"Gördüklərim sarsıtdı məni", "Qocalırıq aram-aram", "Malıbəyli, Quşçular, ardınca Qaradağlı, daha sonra Xocalı" adlı parçalarda Xocalının ititrlməsinə soyuqqanlılıqla yanaşa bilməməsi təsirli bir dillə ifadə olunmuşdur. O gecə gördüyü vəhşilik onu sarsıdır. "İnsanlığın məhv olduğu gecədir, bu gecə", - deyən Hacı Əkbər Rüstəmovun fəryadı, naləsi bu günümüzə gəlib çatır. "Bu günü heç vaxt unutmayaq", - deyir. Yüzlərlə xocalılının xilas edilməsində köməyini əsirgəmir.

Hələ Şuşanın - o nazlı gəlinin itirlməsindən bəhs edən sətirlərdə isə acı bir təəssüf hiss edirik. "Qalx ayağa!", "Şuşanın dağları başı dumanlı", "Yurd yerlərimin tacı Şuşa" kimi yazılarda müəllifin Şuşanın işğalı ilə bağlı və Şuşasız keçən günlərdə çəkdiyi iztirabların sanki canlı şahidinə çevrilirik. Amma qəhrəman döyüşçünü heç vaxt ruhən yenilən görmürük. O bu itkilərlə barışmır. Əldə silah hazırdır. Dostlarını, yoldaşlarını, tələbələrini, bir sözlə - qeyrətli el oğullarını Vətəni azad etməyə çağırışı isə ürək ağrıdır. Şuşa üçün, Xocalı üçün haray çəkərkən daha bir zərbə alır məğrur qəhrəmanımız. Sənanını qurban verdiyi Vətəni - Ağdamı xəyanətə, özbaşınalığa kimlərinsə ambisiyalarına qurban gedir. Bu itkini heç cür qəbul edə bilməyən Vətən oğlunun səsi dağlara, daşlara düşür, onları lərzəyə gətirir, ancaq buza dönmüş vicdanları oyada bilmir. Beləcə, 27 il Vətəndən uzaqlarda Vətənin yanğısını, səmasını bürüyən tüstüsünü seyr etməklə keçir ömür.




"Vətəndən məktub", "Görüşünə gəlmək istəyirəm, Vətən", "Mütləq gələcəyik, Vətən!", "Mən həmişə səninləyəm!", "Həyatım mənim - Ağdamım, Qarabağım, bütöv Azərbaycanım!", "Cəhənnəmə dönmüş, cənnətim - Ağdamım!", "Xatirələr qoynunda...", "Ö görünən Ağdamdır", "Ağdamın küsəyən gülü", "Ağdama bahar gələndə" və s. bu tip parçalarda isə Ağdamın işğal günlərindən və müəllifin Ağdamla bağlı xatirələrindən bəhs edilir.

Lakin oxuduğumuz sətirlərdən aydın olur ki, bu illəri ömründən hesab etmir. Səngərlərdə ömür fəda edən Əkbər müəllim dörd divar arasına sığa bilmir. Elə ona görə tez-tez Ağdam-Bakı yollarında görünür. Gah yetişən yeni nəslin Vətənə biganə böyüyəcəyindən, dədəbaba torpaqlarını tanımayacaqları, unudacaqları qorxusundan doğan bir narahatlıqla, təşvişlə nəvələri ilə Ağdam kəndlərində, gah da tək-tənha düşmən girovluğunda qalan Ağdamla dərdləşən görürük onu.

Bir də ömrünün ahıl çağlarını yaşayan müəllifin bir qorxusu diqqətimizi cəlb edir. Vətən torpaqlarına qovuşa bilmədən bu dünyadan köç etmə qorxusu. Yox, Yox. Fikirləşməyin ki, ruhdan düşüb, inamını itirib. Əsla! Ruhdan düşməyib. Torpaqların alınacağına əmindir. Amma ömrün vəfa edəcəyinə əmin deyil. Onu narahat edən suallar ard-arda düzülüb hər gün cavab tələb edir ondan. Görəsən, elə bir gün gələcəkmi ki, əldə silah yenidən Vətənə son xidmətimi, son borcumu verim? O gün gələcəkmi? O günü görəcəyəmmi? Yoxsa bu dünyada ömrümü bir didərgin kimi başa vuracaq, doğma Vətənimə həsrət dünyadan köçəcəyəm? Onu narahat edən bu sualların cavabı isə nəhayət ki, tapılır. 27 ildən sonra o gün gəlmiş, səfərbərlik elan edilmiş. müharibə başlamışdı.

Vətən müharibəsində iştirak etmək arzusunu müəllif belə ifadə etmişdir: "Mən də özümü bir əsgər bilirəm. Düzdür, getdim, müraciət etdim, amma yaşım çox olduğuna görə götürmədilər. Üç oğlumla döyüşmüş biri kimi yenə də özümü orada hiss edirəm".

Hacı Əkbər Rüstəmovun bir neçə sətrini təqdim etdiyimiz "Mən həmişə deyirdim ki, bu, Vətən müharibəsidir" başlıqlı yazısı elə əhval-ruhiyyə baxımından da digər hissələrdən fərqlənir. Bu parçada biz xəyalımızda canlandırdığımız qaşqabaqlı, üzündən dərd, kədər yağan bir insanın xəyalən də olsa, çöhrəsinin necə işıqlandığını hiss edə, gözlərinin güldüyünü də duya bilirik. Çünki o artıq arzusuna çatmış, Ağdama geri dönmək üçün bir işartı görmüşdü.

Kitabın son bölümünə Sarvan Şamiloğlunun, Milli Məclisin deputatı Aqil Abbasın Əkbər müəllim haqqında məqalələri də daxil edilmişdir. Döyüşçünün bədii portretini isə Aqil Abbasın qələmində daha yaxşı duyur və anlayırıq. Dostuna və müəllliminə maraqlı arzusu da yaddaşımıza əbədi həkk olur, orijinallığı ilə yadda qalır. Deməli ki, tələbəsi, A. Abbasın elə özünün dili ilə desək, dostu onu qəlbən duyan, anlayan adamdır. Ürəyindən keçənləri bilir və dilinə gətirir, onun özünə arzuladığını arzulayır:

"Səni övladların, nəvələrin, şagirdlərin, toy-bayramla Ağdamdakı Qarağacı qəbiristanlığında dəfn eləsinlər. Başdaşına ad da yazmaq lazım deyil, elə Müəllim yazmaq kifayətdir".

Bu arzudan heç altı ay keçmir ki, Ağdam və digər torpaqlarımız işğaldan azad edilir.

**Ağdam kəlməsi dilindən düşməyən Əkbər müəllim bu gün Ağdamlı günlərinin sevinicini yaşayır kədər qarışıq olsa belə. Bu sevinc qarışıq kədər isə ürək yanğısı ilə "Mən oradan - oralardan eyy, Ağdamdan gəlirəm!" adlı parçada əks olunmuşdur.**

**Səltənət Əliyeva**
**Filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Nizami Gəncəvi adına**
**Ədəbiyyat İnstitutu**
**selteneta@gmail.com**

# "Dəniz adam" – şeiriyyətimizin yeni bir səhifəsi...

**Etiraf edək ki, şeir yazmaq artıq dəb halına çevrilib. Şeir yazanların bəziləri poeziyaya əyləncə kimi baxır. Bəziləri isə ona da şair desinlər deyə yazmağa üstünlük verir. Çox az bir qismi isə sənətin ecazkar diliylə duyğu və düşüncələrini paylaşmaq üçün əlinə qələm götürür. Hələ bunların arasında da qeyri-peşəkar yazanlar nə qədər desən...**

Ancaq bütün bu xoşagəlməz hallara görə heç kimi qınamaq da olmur. Yazı, düşüncə, fikir azadlığı var axı. Düşünürəm ki, hər kəsin yaradıcılığını zaman özü ələyindən keçirir. Ədəbiyyatın, sənətin yaddaşında kim qalacaqsa, onları da seçib saxlayır. Bu mənada ciddi narahatlığa da bir əsas yoxdur.

Şair Damət Salmanoğlunun şeirləri təbii ki, şeiri dəb halına çevirənlədən fərqli olaraq ədəbi ictimaiyyət tərəfindən qəbul edilir.

Çünki Damətin yazdıqlarında poeziyanın əlvan dünyasından naxışlar var. Damət səmimi şairdir. Duyğularının hər sətirini çəkinmədən misralara düzərək sevimli oxucularına müxtəlif mövzulu şeirlər ərmağan edə bilir. Şair dənizdən, təbiətdən, onu narahat edən hər hansı bir cəmiyyət hadisəsindən, yaxud bir insan mənzərəsindən yazanda da təbii duyğularına xələl gətirmir. Daha çox dənizə vurğunluğu, dəniz heyranlığı onun şeirlərinin yelkəninə çevrilir. Yaradıcılığına hansı yöndən baxsan o yelkəni görməmək mümkün deyil. Heç də təsadüfi deyil ki, onun yaxın günlərdə işıq üzü görmüş yeni şeirlər kitabı da elə "Dəniz adam" adlanır.

Xalq şairi Vahid Əzizin redaktorluğu ilə nəşr olunmuş "Dəniz adam" hər səhifəsindəki nəğmə, ahəng dolu misraları ilə insanın ruhunu dilləndirir. Ruh demişkən, "Beynəlxalq Rəsul Rza və "Səməd Behrəngi" mükafatları laureatı Damət Salmanoğlu poeziyanın əsas şərtlərindən biri olan poetik ruhun əsiridir. Poetik ruha könül vermək, daha doğrusu, ən böyük sevgi qaynağı kimi ona təzim etmək şairliyin bir mərtəbəsidir deməzdim, bəlkə də elə özüdür.

Şairin dəniz haqqındakı şeirləri onun yaradıcılığında doğrudan-doğruya mavi dəniz dalğaları kimi əsir - bəzən də coşub-daşır. Bütün hallarda şairin şeirləri öz oxucusunu ülviyyət məqamına çəkir. Ancaq hərdən də hiss edirsən ki, şair dünyanın acımasız dərdlərindən usanaraq tənhaığa meyillənir. Nə qədər tənhalğa çəkilsə də dənizi özünə yenə həmdəm bilir:



*Əl gedək, əzizim, uzaq bir yerə.*
*Bir yaşıl adaya, heç kim olmasın.*
*Qaçaq bu dünyanın qeyli-qalından.*
*Orda tək biz olaq, kimsə olmasın.*

*Hər tərəf dənizlə əhatə olsun,*
*Yaşıl meşəsində bir koma quraq,*
*Komada sevginin istisi olsun,*
*Səhərlər quşların səsinə duraq.*

Damət Salmanoğlunun şeirləri türkdilli poeziya nümunələri kimi digər türk xalqları arasında da sevgilə qarşılanır. Onun şeirlərinin bir çoxu özbək dilinə çevrilərək özbək ədəbiyyatının da səhifələrini rövnəqləndirir. Özbəkistanla ədəbi-mədəni əlaqələrimizin bugünkü inkişaf mərhələsində Damətin də poeziyasının xüsusi rolu var.

Ədəbi yaradıcılığa erkən yaşlarından başlamış, bir-birindən rəngarəng kitabların müəllifi Damət Salmanoğlunun şeirləri barədə müxtəlif mətbuat səhifələrində bir neçə məqaləm də dərc olunub. Bu yazının səbəbi isə "Dəniz adam" kitabı oldu. Bu kitabdakı şeirlər də səmimi ovqatı ilə seçilir. Mövzu və məzmun rəngarəngliyi, əlvan poetik çalarlar səhifələri bir-bir çevirib oxumağa sövq edir adamı. "Dəniz adam" kitabında fəsillərin hər birinin rəngi, ruhu, ahəngi, ritmi duyulur. Kitabda bahar coşğusu, sözün, düşüncənin yay bərəkəti, poeziyanın payız əlvanlığı və duyğuların qar bəyazlığı hiss olunur. Şair insan mənəviyyatını sənət vasitəsilə mənəvi təmizlənmədən keçirməyə çalışır. Məsələn, şeirlərinin birində "yağış yağır".

*Yağış yağır, dəstəmaz alır yer kürəsi,*
*səcdə edir, namaz qılır gül kolları.*
*Çiçək açır, sevinirlər, nazlanırlar.*
*Sübh çağında sığal çəkib*
*tellərinə, güllərinə...*
*Al günəşin nəfəsinin hənirtisi.*

*Ey insanlar, gəlin sevək dünyamızı,*
*təbiətin yağışını, günəşini,*
*sirlə dolu kəhkəşanı,*
*gəlin sevək insanları,*
*gəlin sevək,*
*bizi sevib yaradanı.*

Müəllifin kitabda Vətən savaşından sonrakı zəfər duyğularından od alan şeirləri də maraqla oxunur. Qazilərimizə, şəhidlərimizə, ordumuzun qüdrətinə, müharibə generallarımıza həsr etdiyi bədii nümunələr hədsiz sevgilə qarşılanır.

Eləcə də erməni vandalizminə qarşı nifrətlə yazılmış şeir nümunələri naqis düşmənlə mübarizədə oxucunu daim mətin olmağa səsləyir.

**Beləcə, Vətən tariximizin salnaməsini poetikləşdirməyə çalışan şair çiyninə götürdüyü sənət missiyasını yerinə yetirməkdə daim israrlıdır. "Dəniz adam" şeiriyyətimizin yeni bir səhifəsidir. İnanırıq ki, şair gələcəkdə daha böyük ədəbi uğurlara imza atacaq.**

**Fariz Çobanoğlu**

## *Azərbaycan və İsrail kinematoqrafçıları birgə film çəkir*

**Azərbaycanda Oğuz rayonun dağ yəhudiləri ilə bağlı yeni sənədli filmin çəkilişlərinə başlanılıb. Azərbaycan və İsrail kinematoqrafçılarının birgə işi olan filmin ssenari müəllifi və rejissoru Rüfət Əsədov, filmin İsrail tərəfdən prodüseri hazırda İsraildə yaşayan, əslən Azərbaycandan olan tanınmış diaspor fəalı və şair Şaul Siman-Tovdur. Filmin çəkilişləri Azərbaycanda və İsraildə aparılacaq.**

Film Oğuz rayonunda məskunlaşmış dağ yəhudilərinin tarixi haqqındadır. Rüfət Əsədovun dağ yəhudilərindən bəhs edən bu dəfəki ekran əsərinin qəhrəmanı İsraildə yaşayan, əslən Oğuz rayonundan olan həmvətənimiz ravvin Şmuel Simantovdur. Filmdə Oğuz rayonunda məskunlaşmış dağ yəhudilərinin tarixi, həyat tərzi Şmuel Simantovun dilndən nəql edilir. Qeyd edək ki, ravvin Şmuel Simantov illərdir Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində yorulmadan çalışır. Sözügedən film Rüfət Əsədovun dağ yəhudiləri ilə bağlı altıncı filmidir ( "Quba yəhudiləri", "Kənddə sonuncu yəhudi","Peyğəmbər Yereminin göz yaşları", "Əgər səni unutsam,Yerusəlim","Kənddə sonuncu yəhudi. 9 il sonra").

Seyid Lazım Ağa ocağı adından Seyid Yusif **Aqil Abbasa** bacısı

**Ədibə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 89**
Çapa imzalanmışdır: 29.07.2022